**Mündəricat**


Minnətdarlıq ........................................ 2

Ümumi Xülasə ........................................ 3

Tövsiyyələr ........................................ 4

Giriş ........................................ 7

Metodologiya ........................................ 9

Tədqiqatın Nəticələri ........................................ 10

Bölmə 1:Məhkəmə hakimiyyətinin gücləndirilməsi ........................................ 10

Bölmə 2: Dövlət Qulluğu sahəsində İslahatlar ........................................ 30

Bölmə 3: GRECO tövsiyyələrinin İcra vəziyyəti ........................................ 51

**Minnətdarlıq**
Şəffaflıq Azərbaycan təşkilatı bu hesabatın hazırlanmasında öz qiymətli tövsiyyələrini verdikləri üçün, hər kəsə, müstəqil ekspertlər, dövlət və qeyri-dövlət instutlarına öz dərin təşəkkürünü bildirir. O cümlədən layihənin hazırlanmasında TI Katibliyi, TI Brussel ofisi, TI təşkilatının Azərbaycan, Ermənistan və Gürcüstan bölmələrinin əməkdaşlarının davamlı dəstəklərinə görə minnətdarlığını bildirir. Eyni zamanda Norveç Xarici İşlər Naziriyinə hesabatın hazırlanmasında maliyyə yardımı ayırdığı üçün təşəkkür edir.

## Ümumi Xülasə

Bu hesabat Azərbaycan Hökumətinin 2006-cı ildə Avropa Qonşuluq Siyasəti çərçivəsində götürülən öhdəliklərin yerinə yetirilmə səviyyəsinin monitorinqinin bir hissəsidir[1]. Bu hesabtada, əsas 3 sahə üzrə 2010-cu ildə görülən işlərlə bağlı irəliləyişlər nəzərə alınmışdır. Bunlar məhkəmə, dövlət qulluğu və korrupsiyaya qarşı mübarizə sahəsində Avropa Şurasının Korrupsiyaya Qarşı Mübarizə aparan Ölkələr qrupu (GRECO) tərəfindən verilən tövsiyyələrin[2] yerinə yetirilməsi səviyyyəsi ilə bağlıdır. Bu üç element Avropa İttifaqı və Azərbaycan höküməti arasında Əməkdaşlıq və Fəaliyyət planınında öz əksini tapan ən əsas əməkdaşlıq sahələrindəndir.

| | **2009-cu ilin nəticələri** | **2010-cu ilin nəticələri** |
|---|---|---|
| Məhkəmələrin Gücləndirilməsi | 33/52 (63%) | 39/58 (67%) |
| Dövlət Qulluğu sahəsində islahatlar | 22/50 (44%) | 28/50 (56%) |
| GRECO tövsiyyələrinin icrası | 23/36 (64%) | 24/36 (67%) |

## Məhkəmə İslahatları

Hazırda məhkəmələrdə islahatları dəstəkləyən iki proqram mövcuddur. Bunlardan birincisi hökumət tərəfindən qəbul edilən Məhkəmə Sektorunun İnkişafı üzrə Dövlət Proqramıdır[3]. 2009-cu ildən həyata keçirilən proqram 2013-cü ildə yekunlaşır. İkinci belə bir proqram 2006-2011-ci illəri əhatə edən Dünya Bankının Məhkəmələrin Müasirləşdirilməsi Layihəsidir[4]. Hər iki proqram məhkəmələrin müasirləşdirilməsi və məhkəmə hakimiyyətinin gücləndirilməsi məqsədi daşısa da,2010-cu ildə bununla bağlı əsaslı islahatlar nəzərə çarpmayıb.

Nəticədə, məhkəmələrin icra hakimiyyətindən yüksək asılılığı hələ də qalır və bunu tənzimləyən qanunlar effektiv icra mexanizmləri ilə dəstəklənmir. Eyni zamanda hakimlərin fəaliyyətini qiymətləndirmək üçün qərəzsiz mexanizm mövcud deyil. Bu isə hakimlərin öz işlərini daha yaxşı yerinə yetirməməsinə və onların vəzifədə irəliləməsinə qərar verərkən qərəzli nəticələrin ortaya çıxmasına şərait yaradır.. Məhkəmələrdə inzibati fəaliyyətlə məşğul olan  işçilərin (kargüzar) əmək haqqlarının aşağı olması da məhkəmənin zəif idarə edilməsinə və dolayısı ilə məhkəmələrə inamın azalmasına  gətirib çıxarır. Bu vəziyyət məhkəmə sisteminin nümayəndələri tərəfindən də qəbul edilir.[5] Məhkəmə qərarlarının icrası məsələləri

[1] Avropa İttifaqı və Azərbaycan höküməti arasında Əməkdaşlıq və Fəaliyyət planı: http://ec.europa.eu/world/enp/pdf/action_plans/azerbaijan_enp_ap_final_en.pdf

[2] Joint First and Second Round Evaluation Compliance Report on Azerbaijan, dated 10 October 2008; and  Addendum to the Compliance Report on Azerbaijan Joint First and Second Evaluation Round, dated 1 October 2010; available at: www.coe.int

[3] Ədliyyə Naziri Fikrət Məmmədovla müsahibə 16 Fevral 2010;: http://www.judicialcouncil.gov.az/e_view_index.php?id=23

[4] Dünya Bankının Məhkəmələrin Müasirləşdirilməsi Layihəsi: http://siteresources.worldbank.org/AZERBAIJANEXTN/Resources/301913-1287044230041/Judicial.pdf

[5] Ali Məhkəmənin sədri Ramiz Rzayevin müsahibəsi, 11 Noyabr 2010; www.news.day.az .

də ən ciddi problemlərdən biri kimi qalmaqdadır. Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarını da bura əlavə etmək olar.   .

**Dövlət Qulluğu sahəsində islahatlar – Dövlət Qulluğunun İdarəedilməsi**

2010-cu ildə dövlət qulluğuna qəbul və dövlət qulluqçularının peşəkarlıq kurslarına, eyni zamanda etik davranış və düzgün idarəçiliklə bağlı təlimlərə cəlb edilməsi istiqamətində xeyli irəliləyişlər əldə olunub. İdarəçilik sahəsində də nəzərəçarpacaq inkişaf qeydə alınıb. Dövlət qulluqçularının idarəetmə keyfiyyətləri bir qədər aşağıdır. Amma bununla belə dövlət qulluqçularını onların rəhbərlərinin qərəzli qərarlarından qoruyan effektiv mexanizmlərin mövcudluğu sahəsində boşluqlar qalır. Dövlət qulluqçularının mükafatlandırılma səviyyəsi də aşağıdır. Əmək haqqları xeyli aşağı olan dövlət məmurları öz gəlirlərini artırmaq üçün bəzi hallarda, korrupsiya kimi bir sıra digər yollara əl atırlar.

Hesabatlılıq səviyyəsinin artırılması üçün dövlət qulluğu sahəsində ciddi islahatlara ehtiyac duyulur. Dövlət qulluğu sahəsində korrupsiyaya ən çox şərait yaradan satınalma qaydalarında dəyişikliklər edilsə də, proses hələ də qaranlıq olaraq qalır. Bu isə o deməkdir ki, hökumət rəsmiləri müqavilələr imzalanarkən şəffaflıq və bərabərlik tələblərinə uyğun şəkildə satınalma qayadalarına riayət etmək əvəzinə, hələ də bəzi çox “yaxşı əlaqələrə malik” şirkətlər və ya fərdi şəxslərə üstünlük verirlər.[6]

**GRECO tövsiyyələrinin icrası**

GRECO tövsiyyələrinin icra vəziyyətinin analizi, göstərir ki, korrupsiyaya qarşı mübarizə istiqamətində bir sıra irəliləyişlər əldə edilib. Korrupsiya Hüquq Pozmaları ilə əlaqədar məlumat bazası[7] tərtib edilib. Analitik hesabatlar mətbuat vasitəsi ilə ictimaiyyətə çatdırılır. Çirkli pulların yuyulmasının qarşısının alınması sahəsində hökumət tərəfindən görülən cəhdlər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilib. Avropa Şurasının MONEYVAL komitəsi Azərbaycanın qanunvericilk istiqamtində addımlarını model kimi qəbul edib[8] digər ölkələrə nümunə kimi göstərib, Azərbaycana Moldovadakı sistemin qiymətləndirməsini aparmaq həvalə olunub[9]. GRECO-nun ən əsas tövsiyyələrindən biri korrupsiya yolu ilə əldə edilmiş varidatın, o cümlədən üçüncü tərəflərin adına əldə edilmiş mülklərin müsadirə edilməsi ilə bağlı qanun olsa da, bunların effektiv icrası ilə bağlı hələ də əsaslı bir fakt yoxdur.

**Tövsiyyələr**

AQS-in qarşıya qoyduğu öhdəlikləri yerinə yetirmək və idarəçilik sistemində irəliləyişlərə nail olmaq üçün “Beynəlxalq Şəffaflıq” təşkilatı Azərbaycan hökumətinə aşağıda göstərilən tövsiyyələri həyata keçirməyi təklif edir.

***Məhkəmə İslahatları.***

[6] Satınalmalar üzrə dövlət Agentliyinin 2010-cu il hesabatı http://tender.gov.az/new/?inc=report&rep=2010
[7] Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Monitorinq Hesabatı: http://www.oecd.org/dataoecd/8/11/44996103.pdf
[8] MONEYVAL komitəsinin 33-cü plenar iclası, Sentyabr 2010.
[9] 22nd Plenary Session of the Financial Action Task Force, October 2010; available at www.fatf-gafi.org.

*Müstəqillik və Hesabatlılıq:*

- Məhkəmə və İcra hakimiyyəti arasında maliyyə müstəqilliyi də daxil olmaqla asılılığının tamamilə aradan qaldırılması.
- Məhkəmə işçilərinin (kargüzar) əmək haqqlarının artırılması.

*Şəffaf və ədalətli idarəçilik:*

- Məhkəmə işlərinin hakimlər arasında bərabər bölünməsini təmin edəcək sistem formalaşdırmaq və bu sistemin kənar təsirlərdən uzaq fəaliyyət göstərməsini təmin etmək
- Məhkəmə prosesinin bütün mərhələlərini, aşağı instansiya məhkəmlərinin də çıxardıqları qərarların dərci və məhkəmə proseslərinin lentə alınması üçün müasir texnologiyalardan istifadə etməklə şəffaflaşdırılması.
- Azərbaycan Vəkillər Assosiasiyasının rolunu artırmaqla dövlət hesabına pulsuz müdafiə imkanlarını möhkəmləndiricək sistemin yaradılması və Azərbaycan Vəkillər Assosiasiyasının müvafiq resurslarla təmin edilməsi.
- Ədliyyə Nazirliyi tərəfindən monitorinqlərə daha çox diqqət ayırmaq yolu ilə məhkəmə qərarlarının icra edilməsinə nəzarətin sıxlaşdırılması

*Təlimlər və normalar:*

- Hakimlərin imtahandan kənar təyin olunmasına imkan verən qaydanın aradan qaldırılması və bütün işçilərin təlimlərə cəlb edilərək öz vəzifə borclarını yerinə yetirməyə hazır olmalarına əmin olmaq.
- Qaydaların təlimlər və qiymətləndirmə aparmaq üçün kifayət etmədiyi sahələrdə, fəaliyyətin qiymətləndirilməsini aparmaq üçün aydın və şəffaf sistem yaradılmalıdır.

***Dövlət Qulluğu sahəsində islahatlar***

*Şəffaf və ədalətli idarəçilik:*

- Dövlət qulluqçularının vəzifədə yüksəlmə və rotasiya qaydasında yer dəyişməsi üçün qanunvericilik səviyyəsində addımlar atılsın və dövlət qulluqçularını onların rəhbərlərinin qərəzli qərarlarından qoruyan effektiv sistem formalaşdırılsın.
- Dövlət qulluqçularının maliyyə deklarasiyasının ictimailəşməsinə imkan verəcək qanunlara əlavələrin edilməsi ilə bağlı yeni sistem yaradılsın.
- Qanunsuz fəaliyyətlə bağlı məlumat verən whistleblowerlərin (xəbərçi) qorunmasının təmin edilməsi  üçün daxili nəzarət sistemi yaradılsın.
- Dövlət satınalmaları sahəsində daha şəffaf bir sistem formalaşdırılsın

*Təlimlər və bacarıqların artırılması:*

- Təlimlər yolu ilə dövlət qulluğu sahəsində çalışan şəxslərin idarəçilik keyfiyyəltərinin və bacarıqlarının artırılması təmin edilsin.

***GRECO ilə bağlı tövsiyyələr***

*Qanunvericilk və istutlaşma:*

- Bir sıra qanunlar və normativ hüquqi aktlar qəbul olunmalıdır; Hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında, Dövlət rəsmilərinin maliyyə deklarasiyasının tərtibatı və maraqların toqquşması barədə, eyni zamanda dövlət məmurlarının dövlət qulluğundan kənar digər hüquqi sahədə fəaliyyətinə yol verilməməsi ilə bağlı qanunlar.
- Korrupsiya faktları ilə bağlı şübhələri olan dövlət məmurlarının bununla bağlı məlumat vermə öhdəliyi olmalı, bunun üçün müvafiq şərtlər formalaşdırılmalı və onlara bunu necə etmək yolları izah edilməli və whistleblowerin (xəbərçi) müdafiəsi təmin edilməlidir.
- İnformasiya işləri üzrə agentlik və ya İnformasiya Ombusmanı institutu yaradalmalıdır. Həmin qurumlar lazımı formada təchiz olunmalı və hökümətin fəaliyyəti ilə bağlı müstəqil qaydada məlumat verməlidir.
- Korrupsiya yolu ilə əldə edilmiş qazancın müsadirə edilməsi ilə bağlı yeni qəbul edilmiş qanun icra olumalı və bu qanunun icrası ilə bağlı mətbuatda məlumatlar mütəmadi qaydada yerləşdirilməlidir.

*Təlimlər və bacarıqların artırılması:*

- Hakimlər, məhkəmə katibləri, məhkəmə icraçıları və hüquq mühafizə orqanları ilə keçirilən təlimlər artırılmalıdır.
- Vətəndaş cəmiyyəti tərəfindən yeni qəbul edilmiş qaydalarının monitorinqinin aparılması dəstəklənməlidir.

**Giriş**

Avropa Qonşuluq Siyasəti (AQS) Avropa İttifaqı ilə onun cənubdan şərqə qədər olan qonşuları arasında imzalanan iki tərəfli əməkdaşlıq müqaviləsidir. Proqramın əsas məqsədləri sırasında göstərilir ki, "Aİ ilə qonşuları arasında genişlənmə prosesində ortaya çıxan fərqlilikləri aradan qaldırmaq, tərəqqi, stabillik və təhlükəsizlik əlaqələrini genişləndirməkdir". Avropa Qonşuluq Siyasəti çərçivəsində Aİ ölkələri ilə bir sıra dövlətlər arasında Fəaliyyət Planı imzalanıb, bu fəaliyyət planında dövlətlər Aİ ilə əməkdaşlıq istiqamətində bir sıra öhdəliklər götürüblər. Bir sıra fəailiyyət sahələri ilə yanaşı olaraq korrupsiyaya qarşı mübarizə və yaxşı idarəçilik ən əsas nəzərə alınan sahələrdir.

Azərbaycanla bağlı Fəaliyyət Planı, Avropa Birliyi ilə Azərbaycan arasında daha əvvəl imzlanmış əməkdaşlıq və tərəfdaşlıq razılaşmasının davamı olaraq 2006-cı ildə qəbul edilmişdir. Fəaliyyət planına əsasən Azərbaycanın qarşısına 2011-ci ilə qədər bir sıra hədəflər qoyulur. Bunlar əsasən hüquqi və iqtisadi sahədə avropa və beynəlxalq standarlara uyğunlaşdırmaqla demokratik və qanunun qüvvəsinin daha yüksək olduğu cəmiyyət formalaşdırması ilə bağlıdır. Fəaliyyət Planı 10 əsas islahat sahəsi və əldə edilən ishalatların qiymətləndirilməsi üçün bir sıra göstəricilər müəyyənləşdirmişdir[10]. Fəaliyyət Planının həyata keçirilməsinin davamlı olaraq qiymətləndirilməsi AQS prosesinin əsas tərkib hissələrindən biri kimi qəbul olunur. Vətəndaş cəmiyyətinin üzvləri hər zaman bu prosesin mərkəzində dayanıb və 2008, 2009-cu illərdə Avropa Komissiyası da öz qiymətləndirməsini dərc edib.

Bu hesabatda, fəaliyyət planında nəzərə alınan 3 əsas sahəyə diqqət yönəlib; məhkəmə sahəsində islahatlar, dövlət qulluğu sahəsində islahatlar və korrupsiyaya qarşı mübarizə məqsədilə qəbul olunmuş beynəlxalq konvensiyaların həyata keçirilməsi. Bu hesabatda vətəndaş cəmiyyyəti tərəfindən aparılan müstəqil monitorinqin nəticələri açıqlanır və irəliləyişlərə nail olunması məqsədilə hökumətə müəyyən tövsiyyələr təqdim olunur.

İlk iki sahə ölkədə ən əsas narahatçılıq doğuran sahələr hesab olunurlar. Məhkəmə sisteminin düzgün idarə edilməsi, demokratiyanın təşviq edilməsi, insan hüquqların və iqtisadiyyatın inkişaf etdirilməsi üçün vacib əhəmiyyət daşıyır. Dövlət qulluğu sahəsi də olduqca vacibdir. Beləki, dövlət tərəfindən vətəndaşlara göstərilən xidmət və insan hüquqların qorunması da daxil olmaqla dövlətin öz üzərinə düşən məsuliyyəti necə yerinə yetirməsinin əsasını təşkil edir.

Və nəhayət korrupsiya istənilən islahatlar prosesinə mənfi təsir göstərdiyindən və eyni zamanda həm dövlətin, həm də fərdi şəxslərin həyatında aşınmalara yol açıtığı üçün, ona qarşı

---

[10] (1) Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylər göstərmək; (2) ölkədə demokratiyanın vəziyyətinin yüksəldilməsi, həmçinin ədalətli və şəffaf seçki prosesinin formalaşdırılması; (3) İnsan hüquqlarının, fundamental azadlıqların və qanunun aliliyi prinsiplərinin yüksəldilməsi; (4) İnvestisiya və biznes mühitinin yaxşılaşdırılması, əsas olaraq korrupsiya ilə mübarizənin yüksəldilməsi; (5) dövlət gömrük xidməti səviyyəsinin artırılması; (6) davamlı və balanslı iqtisadi inkişafın dəstəklənməsi, o cümlədən ətraf mühitin qorunması; (7) iqtisadi qanunvericilik və inzibati addımların atılması işini həyata keçirmək; (8) Aİ və Azərbaycan arasında ikitərəfli enerji və nəqliyyat sahələrində əməkdaşlığın inkişaf etdirilməsi; (9) Ədliyyə sahəsində, təhlükəsik və azadlıqların qorunması sahəsində, o cümlədən sərhədlərin idarə edilməsi sahəsində əməkdaşlığln artırılması; (10) regional əməkdaşlığın yüksəldilməsi.

mübarizə strategiyası da  Fəaliyyət planında əsas yerlərdən birini tutur. Hökumətin korrupsiyaya qarşı mübarizə ilə bağlı qəbul etdiyi strategiya bir sıra cəhətlərdən mütərəqqi hesab edilsə də, ən əsas vacib məsələ davamlı nəzarət olaraq qalır. Bununla da demək olar ki, GRECO qrupu tərəfindən icra edilməsi tövsiyyə edilən məqamlar hələ də aktuallığını qoruyur.

**Metodologiya**

Avropa Komissiyası dövri olaraq AQS-in həyata keçirilməsini səviyyəsini təhlil edir. Bununla yanaşı, Transparency İnternational tə.kilatı da daxil olmaqla bir sıra vətəndaş cəmiyyəti üzvləri müstəqil şəkildə hökumətin bu istiqamətdəki fəaliyyətinin monitorinqini aparır. Amma nəticə etibarı ilə görülən işlərin təsir imkanları bir qədər məhduddur. Buna əsas səbəb isə, analitik yanaşmanın olmaması, aydın çıxış nöqtələrinin və müddətin olmamasıdır. Bu hesabatın məqsədlərindən biri idarəçilik və korrupsiyaya qarşı mübarizə tədbirlərinin qoyulan suallara əsaslanan qiymətləndirməsini aparmaqdır. Bu ikinci hesabatdır və ilk dəfə 2010-cu ilin may ayında təqdim edilmiş hesabatın dərc edilməsindən bu yana dövlət qurumları tərəfindən aparılan fəaliyyətin monitorinqinin nəticəsidir və ilk hesabatın davamıdır.[11]

Bu hesabatda qoyulan suallar Transparency International-ın baş katibliyi tərəfindən, Azərbaycan, Ermənistan və Gürcüstan milli bölmələrinin tövsiyyələri əsasında hazırlanıb. Fəaliyyət Planı analiz edilib, dövlət idarəçiliyi və korrupsiyaya qarşı mübarizə ilə bağlı müddəalar müəyyənləşdirilib. Fəaliyyət Planında göstərilən üç əsas sahəyə diqqət ayrılıb. Bunlar məhkəmə sistemində islahatlar, dövət quluğu sahəsində əldə edilən irəliləyişlər və beynəlxalq konvensiyaların yerinə yetirilməsidir. Hər bir sahənin tərkibində isə, ayrıca sahələr üzrə müstəqillik, şəffaflıq, hesabatlılıq və vicdanlı davranış məsələləri nəzərdən keçirilmişdir. Qiymətləndirmə sistemi hər bir suala uyğun olaraq, beynəlxalq standartlara və ən yaxşı təcrübələrə əsaslanaraq hazırlanıb və müəyyən sahələr üzrə uyğun olan vəziyyətin ümumi qiymətləndirlməsinə və keyfiyyətli analizin aparılmasına imkan verir. .

Hesabatda yer alan materiallar qanunvericilikdən və müvafiq sənədlərdən, eyni zamanda 2011-ci ilin mart və fevral aylarında bu sahə üzrə ixtisaslaşmış şəxslərdən alınan müsahibələrdən əldə edilib. Hesabat 2010-cu ilin sonuna olan vəziyyəti əhatə edir. 2010-cu ilin sonunda qəbul edilib, 2011-ci ildə qüvvəyə minən qanunlar hesabat hazırlanarkən nəzərə alınmayıb və bu istiqamətdə olan məlumatlar toplanmayıb .

[11] Hesabatı www.transparency.az. Ünvanından əldə etmək olar

**Tədqiqatın Nəticələri**

2010-cu ildə Azərbaycanda korrupsiyaya qarşı mübarizə istiqamətində aparılan fəaliyyət kifayət qədər yüksək olub.2011-ci ilin yanvarın 27-də Korrupsiyaya Qarşı Mübarizə üzrə dövlət Komissiyasının geniş tərkibli görüşü keçirilib. Görüşdə bu sahədəki mövcud vəziyyət və Nazirlər Kabinetinin ilin yekunları ilə bağlı 2011-ci ilin yanvarın 27-də keçirilən görüşündə prezident tərəfindən korrupsiyaya qarşı mübarizə ilə bağlı hökumətin üzərində qoyulmuş öhdəliklər müzakirə olunub. Prezident monopoliyanın aradan qaldırılmasını və bazarda azad rəqabətə şərait yaradacaq mühitin yaradılmasını tapşırıb. O eyni zamanda süni qiymət artımı ilə bağlı ölçü götürülməsini, dövlət orqanları tərəfindən sahibkaraların lazımsız audit və yoxlamalara cəlb olunmasının dayandırılmasını, vergidən yayınmaların qarşısının alınmasını və lazımı qurumların korrupsiyaya qarşı sistemli şəkildə mübarizə aparması tapşırığını verib. Ən nəhayət o bildirib ki, hökümət özünə qarşı ictimai inamı formalaşdırmalıdır.[12]

**Bölmə 1: Məhkəmə sisteminin gücləndirilməsi**

| | **2009-cu ilin qiymətlədirilməsi** | **2010-cu ilin qiymətləndirilməsi** |
|---|---|---|
| **Ümumi qiymət** | 33/52 (63%) | **39/58 (67%)** |

| **Alt bölmə** | **2009 –cu ilin qiymətləndirməsi** | **2010-cu ilin qiymətləndirilməsi** |
|---|---|---|
| *Məhkəmələrin Müstəqilliyi* | 14/24 (58%) | 14/24 (58%) |
| *Məhkəmə İnsan Hüquqları* | 4/4 (100%) | 4/4(100%) |
| *Məhkəməyə çıxış* | 2/4 (50%) | 3/4 (75%) |
| *Məhkəmə resursları* | 6/8 (75%) | 6/8 (75%) |
| *Şəffaflıq* | 7/12 (58%) | 7/12 (58%) |
| *İcraya nəzarət* | | |
| *Vicdanlı davranış* | | |

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Suallar:** Qanunla hakimlərin seçilməsi və vəzifədə yüksəlişlərinin bilik və bacarıqlara əsaslanması nə səviyyədədir?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

Məhkəmə Hüquq Şurasının bəyənatına görə, hakimlərin seçimini tənzimləyən protokollar Avroşa Şurasının ekspertləri tərəfindən yüksək qiymətləndirilib[13]. Bununla belə, 2009-cu ildən

[12] Bax: http://www.525.az/view.php?lang=az&menu=17&id=25911
[13] Ədliyyə Nazirliyindən məktub. 28 Aprel 2010;

bu sahədə qanunvericilik səviyyəsində irəliləyiş qeydə alınmayıb. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi üçün tərəfsiz sistem mövcud deyil, bu isə əsassız/mübahisəli qərarların verilməsinə yol açır.

**2009-cu il qeydləri**

Hakimlərin seçilməsi prosesi Məhkəmələr və Hakimlər haqqında Qanunda təsbit olunduğu kimi, Məhkəmə Hüquq Şurası yanında fəaliyyət göstərən Hakimlərin Seçki Komitəsi tərəfindən şifahi və yazılı formada aparılır.[14] İlkin mərhələdən uğurla keçən namizədlər uzunmüddətli təlim proqramlarının ardından, Komitə tərəfindən qiymətləndirilir, müsahibəyə cəlb olunur. Bundan sonra isə təyinat üçün siyahı müvafiq icra hakimiyyəti orqanına göndərilir.

Bundan başqa Məhkəmələr və Hakimlər haqqında Qanuna görə bəzi hallarda hüquq sahəsində nüfuza, hüquqşünas ixtisası üzrə 20 illik iş təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik olan şəxslər bu qanunun 93-3-cü maddəsində nəzərdə tutulmuş prosedurlardan kənar Hakimlərin Seçki Komissiyasının təklifinə əsasən qanunvericiliklə müəyyən edilmiş qaydada yüksək hakim vəzifələrinə təyin edilə bilərlər[15].[16] Bu şərtlər olduqca əhatəlidir və əsassız qərarların verilməsi üçün əlavə imkan yarada bilər.

Vəzifədə yüksəliş attestasiya əsasında aparılır, lakin burda da qiymətləndirmə aparmaq və bunu həyata keçirmək üçün aydın sistem mövcud deyil və bu, yekun etibarı ilə əsassız qərarların verilməsi ilə nəticələnir.

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Suallar**: Təcrübədə hakimlərin seçilməsi və vəzifədə irəli çəkilməsi nə dərəcədə bilik və bacarıqlara əsaslanır?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

2010-cu ildə hakim korpusunun sayı artırılıb. Prezident 78 hakim təyin edib, əlavə olaraq 157 hakim isə test üsulu keçirilən imtahanlar yolu ilə təyin edililib.[17]

Vətəndaş cəmiyyətinin tənqidlərindən sonra, Məhkəmə hüquq şurası onları sentyabr ayında hakimlərin seçim prosesinin sonuncu mərhələsini müşahidə etməyə dəvət edib.[18] "Şəffaflıq Azərbaycan" təşkilatının nümayəndələrinin də daxil olduğu, vətəndaş cəmiyyətində 50 nəfərə qədər müşahidəçi prosesə qatılıb. Həmin mərhələlərdə heç bir pozuntu halına rast gəlinməyib. Vətəndaş cəmiyyətinin prosesə cəlb edilməsinə hazır olduğunun göstərilməsinə baxmayaraq,

---

[14] Məhkəmələr və Hakimlər haqqında Qanunu, Maddə 93- 10 İyun 1997-ci il; Hakimlərin Seçki Komitəsi 28 dekabr 2004 il tarixli Məhkəmə Hüquq Şurası haqqında Qanunun 14-cü maddəsinə uyğun olaraq Məhkəmə Hüquq Şurası tərəfindən yaradılmışdır; Məhkəmə Hüquq Şurası Azərbaycan Respublikasının Prezidentinin 1 dekabr 1998 tarixli 30 nömrəli sərəncama əsasən yaradılmışdır və 28 dekabr 2004 il tarixli Məhkəmə Hüquq Şurası haqqında Qanuna uyğun olaraq fəaliyyət göstərir .

[15] Məhkəmələr və Hakimlər haqqında Qanunu, Maddə 93-4

[16] Azərbaycan Respublikasının Konstitusiyası, maddə 126

[17] **Məhkəmə islahatları uğurla davam etdirilir**, 26 Yanvar 2011, http://www.justice.gov.az/view_full.php?id=247

[18] See: www.day.az, 16 September 2010

proesesin ümumi vəziyyəti ilə bağlı narahatlıqlar qalmaqdadır və hakimlərin seçilməsinin və qiymətləndirilməsinin bilik və bacarıqlara əsaslanması ilə bağlı tutarlı sübutlar çox azdır.
.

**2009-cu ilin qeydləri**

Şəffaflıq Azərbaycan təşkilatı hər zaman seçim prosesinin ilk iki mərhələsinə müstəqil müşahidəçi kimi dəvət olunur (yuxarıda göstərilən qanundan fərqli olaraq mərhələlərin hər ikisi yazılı formada olur, test və inşa üsulu ilə). Amma təşkilat heç bir halda üzbəüz müsahibənin keçirildiyi yekun mərhələyə müşahidəçi qismində dəvət olunmur. Yekun mərhələ əvvələcədən müəyyən edilmiş meyarlara əsaslanır, müsabiqədə iştiak edən namizədlərin bildirdiyinə görə (müvəffəqiyyət qazanan və qazanmayan namizədlər) seçim prosesi bilik və bacarıqlara əsaslanmır[19]. Yekun olaraq bunu bildirmək olar ki, Məhkəmələr və Hakimlər haqqında Qanunun 93-3 maddəsində bununla bağlı heç bir qayda öz əksini tapmayıb. Qanunda ilk iki mərhələdən uğurla keçən namizədlərin təlim proqramlarına cəlb edilmə müddəti dəqiq göstərilmir. Ümumiyyətlə bu proses adətən Ədliyyə Akademiyasında 6 ay müddətində nəzəriyyənin öyrənilməsi və 3 ay məhkəmələrdə təcrübənin keçirilməsi şəklində aparılır[20]. Bununla belə qanunda seçilmiş namizədlərin hakim vəzifəsinə təyinat prosesi ilə bağlı da aşkarlıq yoxdur. Buna görə də bəzi hallarda seçilmiş namizədlər hakim vəzifəsinə təyinatını illərlə gözləməli ola bilirlər[21]. Hakimlərin seçimi ilə bağlı burada göstərilən dəlillər onu söyləməyə əsas verir ki, irəli çəkilmələr çox az hallarda bilik və bacarığa münasib olaraq edilir.[22]

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Suallar**: Hakimlərə vəzifədə olduqları müddət ərzində bu vəzifədən uzaqlaşdırılmaması ilə bağlı qanunvericilik səviyyəsində nə kimi təminat verilir ?
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

Bu sahədə heç bir yenilik qeydə alınmayıb.

**2009-cu ilin qeydləri**

Konstitusiyaya[23] görə, hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər. Azərbaycan Respublikası məhkəmələrinin sədrləri, sədr müavinləri və məhkəmə kollegiyalarının sədrləri müvafiq məhkəmələrin hakimləri sırasından 5 il müddətinə təyin

---

[19] Mənbə: 19 mart 2010 tarixində hakimlər və yarımfinalçılarla müsahibə
[20] Mənbə: 18 mart 2010 tarixində İnformasiya və Cəmiyyət İctimai Birliyin sədri Alövsət Əliyevdən müsahibə
[21] Mənbə: Azərbaycanın Avropa İttifaqı ilə imzaladığı "Fəaliyyət Planı" üzrə 2007-ci ildə əldə edilmiş tərəqqinin qiymətləndirilməsi, http://aamik.az/ts_general/download/Brief_ANCEI_report_on_AP_Azerbaijan-2007_eng.pdf
[22] Mənbə: Hüquq Təlim Mərkəzinin rəhbəri ilə 1 mart 2010 tarixli müsahibə
[23] Azərbaycan Respublikasının Konstitusiyanın 127 Maddəsinin I hissəsi

edilirlər və bir qayda olaraq həmin vəzifəyə iki dəfədən artıq təkrarən təyin oluna bilməzlər[24]. Digər hakimlər də 5 illik müddətə seçilir və vəzifə səlahiyyətlərinin yerinə yetirlməsi zamanı heç bir qanun pozuntusuna yol verməyiblərsə (Məhkəmələr və Hakimlər haqqında qanunun 99 və 99-1 maddəsində hakimlərin öhdəlikləri əks olunub) Məhkəmə Hüquq Şurasının təklifi ilə onun səlahiyyətləri son yaş həddinə - 65 yaşınadək uzadıla bilər. Bəzi istisna hallarda Məhkəmə Hüquq Şurasının qərarı ilə hakimlik müddəti 70 yaşına qədər uzadıla bilər[25]. Hakimlərin vəzifə olduqları müddətdə daşıdıqları toxunulmazlıqları və dəyişilməzlikləri digər normativ aktlarla da tənzimlənir[26]. Konstitutsiyaya[27] görə hakimlərin səlahiyyətlərinə yalnız qanunda nəzərdə tutulmuş əsaslara və qaydalara müvafiq surətdə xitam verilə bilər. Hakim səlahiyyətləri yalnız Məhkəmə Hüquq Şurasının qərarı ilə məhdudlaşdırıla və ya dayandırıla bilər. Əgər Şuraya hakimlə bağlı kriminal xarakterli və ya digər qanun pozuntular ilə əlaqədar məlumat daxil olarsa, Şura faktı araşdırıb bununla bağlı qərar verə bilər[28]. Hakimin vəzifə səlahiyyətlərinə xitam verilməsinin əsasları Məhkəmələr və Hakimlər haqqında Qanunda[29] göstərilib. Qanunla hakimlər onların müqavilələrinin əsassız dayandırılmasından qorunurlar.

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Sual:** Təcrübədə, hakimlərin işində yol verdiyi qüsur və ya işini yerinə yetirə bilməməkdən savayı, başqa səbəblərlə vəzifəsindən azad olunma halları baş veribmi?
**Qiymət: 1**

**2010-cu ilin yenilikləri**

Ötən il, əvvəlki illərlə müqayisədə daha çox sayda hakim cəzalandırılıb, hakimlik dərəcələri aşağı salınıb vəya onlar vəzifədən azad ediliblər[30]. Ümumilikdə 21 hakim intizama cəlb olunub. 3 nəfərin hakim səlahiyyətlərinə xitam verilib, üçünün vəzifəsi aşağı salınıb digərləri isə yazılı töhmət alıb. Hakimlərin cəzalandırılması səbəbləri tam açıqlanmır, amma hakimlərin vəzifədən uzaqlaşdırlması ilə bağlı qərarlar icra hakimiyyəti orqanları tərəfindən siyasi səbəblərdən verilib kimi qəbul edilə bilər.[31]

Rəsmi dairələr tərəfindən cəzalandırmaların səbələri tam olaraq açıqlanmasada bunlar əsasən məhkəmə işlərinə baxılmasının hədsiz uzadılması, məhkəmədə iştirak edən tərəflərin hamısının məhkəmə prosesinə cəlb edilməməsi, məhkəmə tərəflərinin apelyasiya şikayəti verməsinin məhdudlaşdırılmasıdır.

**2009-cu ilin qeydləri**

Təcrübədə, bir qədər aşağı rütbəli hakimlər Məhkəmə Hüquq Şurasının tövsiyyələri əsasında Parlamentin təsdiqinə ehtiyac olmadan prezident tərəfindən təyin olunur, yüksək rütbəli

---

24 Məhkəmələr və Hakimlər haqqında qanun 94-cü maddəsi
25 Məhkəmələr və Hakimlər haqqında qanunun 96-cı maddəsi
26 Məhkəmələr və Hakimlər haqqında qanunun 97, 100 və 101-ci maddəsi
27 Azərbaycan Respublikasının Konstitusiyanın 128 Maddəsinin III hissəsi
28 Azərbaycan Respublikasının Konstitusiyanın 128 Maddəsinin IV and V hissələri
29 Məhkəmələr və Hakimlər haqqında qanunun 113-cü maddəsi
30 **Məhkəmə islahatları uğurla davam etdirilir**, 26 January 2011; http://www.justice.gov.az/view_full.php?id=247
31 Azerbaijan Progress Report on Implementation of the European Neighbourhood Policy in 2010, Azerbaijan National Committee for European Integration; available at: www.aamik.az

hakimlərin təyinatı zamanı isə Parlamentin təsdiqinə ehtiyac duyulur.[32] Bu isə hakimlərin icra hakimiyyəti orqanından asılılığına şərait yaradır. [33] Reallıqda hakimlər siyasi müdaxilədən azad deyillər və siyasi səbəblərdən vəzifədən uzaqlaşdırılma riskləri mövcuddur. Buna aşkar fakt kimi onu göstərmək olar ki, məhkəmələr Ədliyyə Nazirliyi tərəfindən qeydə alınmayan ictimai təşkilatların şikayətlərini bir çox hallarda ümumilikdə qəbul etmir, bəzi hallarda isə tamamilə rədd edirlər. Ədliyyə Nazirliyinə qarşı çıxmaqdan çəkinirlər. QHT təsisçiləri Ali Məhkəməyə, Ədliyyə Nazirliyinə, Məhkəmə Hüquq Şurasına və digər səlahiyyətli dövlət qurumlarına yüksək rütbəli hakimlərə qarşı inzibati tədbirlərin görülməsi üçün müraciət etsələrdə bu bir fayda vermir.[34]

Hakimlər işdə yol verdikləri nöqsanlar və yarıtmaz fəaliyyətlə əlaqədar olaraq da vəzifədən uzaqlaşdırılırlar. Ədliyyə Nazirinin verdiyi müsahibədə qeyd olunur ki, 2009-cu ildə Məhkəmə Hüquq Şurası tərəfindən 22 hakim inzibati məsuliyyətə cəlb edilib. İşdə yol verdiyi qanunsuzluqlara görə iki hakim vəzifədən uzaqlaşdırılıb[35], 3 hakimin vəzifə səlahiyyətlərinə xitam verilib, bəzilərinə töhmət verilib, bəziləri isə sərt qərarlar vermələri səbəbi ilə aşağı vəzifəyə keçiriliblər. Ali Məhkəmənin sədri Ramiz Rzayev keçirdiyi sonuncu mətbuat konfransında açıq şəkildə bildirib ki, hakimlər, digər cəza tədbirləri mümkün olsa da onlar, əksər hallarda həbs qəti imkan tədbirinə üstünlük verirlər. Belə ki, haqqında istintaq işi aparılan şəxs barəsində, istintaqın davam etdiyi müddət ərzində məhkəmə qərarı ilə həbs qərarı verilir amma, bunun əvəzində ona ev həbsi və ya istintaqın azad şəkildə davam etdirilməsinə icazə qərarı verilə bilər. Nazir də məhz bu məqamı tənqid edir. [36]

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Sual**: Hakimlərin maaşı ilə, digər yüksək rütbəli məmurların maaşları arasında fərqi müəyyənləşdirən qanuni nizamlamalar nə səviyyədədir?
**Qiymət**: 2

**2010-cu il yenilikləri**

2010-cu ildə hakimlərin maliyyə vəziyyətlərinin yaxşılaşdırılması, hakimlərin səyahət , rabitə və gündəlik xərclər kimi iş xərclərinin ödənilməsi ilə bağlı əlavələr qəbul olunub.[37] Ali Məhkəmə hakimlərinin aylıq maaşları 25%, Apelyasiya Məhkəmələrinin Hakimlərinin 20% və aşağı instansiya məhkəmələrinin 15% artıb. Əlavə olaraq, yeni hakim təyinatı alan hakimlər dörd il müddətində 2 aylıq maaşın həcmi qədər əlavə maaşla təmin olunurlar. Bu əlavələr hakimləri ölkədə ən çox ödəniş alan məmurlar səviyyəsinə qaldırıb.

**2009-cu ilin qeydləri**

[32] Azərbaycan Respublikasının Konstitusiyanın 109.9 maddəsi, Məhkəmələr və Hakimlər haqqında qanunun 94-cü maddəsi
[33] Mənbə: 2009-cu il üzrə Global Integrity Hesabatı, http://report.globalintegrity.org/Azerbaijan/2009/scorecard/91/80b
[34] Mənbə: Azərbaycanın Avropa İttifaqı ilə imzaladığı "Fəaliyyət Planı" üzrə 2009-cu ildə əldə edilmiş tərəqqinin qiymətləndirilməsi, http://aamik.az/en/reports.html
[35] Mənbə: Ədliyyə Naziri Fikrət Məmmədovun müsahibəsi, http://www.525.az/view.php?lang=az&menu=2&id=10373
[36] Mənbə: Ali Məhkəmənin sədri Ramiz Rzayevin pres konfransı, http://www.525.az/view.php?lang=az&menu=17&id=11612

[37] «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə, 8 Oktyabr 2010

Hakimlərin vəzifə maaşları Məhkəmələr və Hakimlər haqqında Qanun və Konsitutsiya Məhkəməsi haqqnda Qanun, bununla yanaşı bir sıra digər normativ aktlar ilə tənzimlənir.[38] Yüksək vəzifəli dövlət məmurlarının əmək haqqları, xüsusi cədvəl əsasında ödənilir. [39] Amma bununla belə hakimlərinin maaşları ilə digər dövlət məmurlarının əmək haqqlarını əlaqələndirən hər hansı bir qanun mövcud deyil.

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Sual**: Təcrübədə, hakimlərlə yüksək rütbəli dövlət məmurları arasında maaş fərqi nə səviyyədədir?
**Qiymət**: **2**

**2010-cu il yenilikləri**

Hakimlər ən çox əmək haqqı alan dövlət məmurları olaraq qalırlar.

**2009-cu il qeydləri**

Demək olar ki, hakimlərin maaşları ilə qanunvericilik və icra sektorunda çalışan yüksək vəzifəli məmurların maaşaları bir-birinə yaxındır. Məsələn, Ali məhkəmənin və Konstitustsiya Məhkəməsinin sədrlərinin aylıq maaşları 1785 manatdır (2213$)[40]. Müqayisə üçün Prezident Adminstrasiyasının rəhbəri 1900 manat (2356$), Milli Məclisin sədri, Hesablama Palatasının rəhbəri 1550 manat (1922$). Bununla yanaşı Ali Məhkəmənin, Konstitustsiya Məhkəməsinin, Məhkəmə Hüquq Şurası və Ombusmanın maaşı 1525 manat (1891$)[41]. Ədliyyə Nazirinə görə, 2000-ci illə müqayisədə hakimlərin maaşı 25 dəfə artıb[42], bu isə hakimlərin maaşlarının verilməsinin, beynəlxalq təcrübəyə yaxınlaşıdırılması istiqamətində son illər əldə edilmiş inkişafın sübutudur.

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Sual**: Məhkəmə sistemi qanunla öz büdcə təkliflərini irəli sürə, onu bölüşdürə və idarə edə bilərmi ?
**Qiymət**: **1**

**2010-cu il yenilikləri**

Bu sahə ilə bağlı irəliləyiş qeydə alınmayıb.

**2009-cu ilin qeydləri**

---

[38] Məhkəmələr və Hakimlər haqqında qanunun 106-cı maddəsi və Konstitusiya Məhkəməsi haqqında Qanunun 71-ci maddəsi
[39] Mənbə: 2009-cu ilin Dövlət Büdcəsi üzrə Dövlət Qulluqçusunun Büdcə Yaddaşı
[40] Manat və ya AZN Azərbaycan Respublikasının milli valyutasıdır; Bloomberg, Coin Mill.Com əsasən 1 mart 2010 tarixinə mübadilə kursu 1 AZN = 1.24 USD, http://coinmill.com/AZN_USD.html#AZN=1
[41] Mənbə: 2009-cu ilin Dövlət Büdcəsi üzrə Dövlət Qulluqçusunun Büdcə Yaddaşı
[42] Mənbə: Ədliyyə Naziri Fikrət Məmmədovun müsahibəsi, http://www.525.az/view.php?lang=az&menu=2&id=10373

Məhkəmələrin maliyyələşdirilməsi qaydaları Məhkəmələr və Hakimlər haqqında Qanun, Konstitutsiya Məhkəməsi haqqında Qanun və digər normativ aktlarla tənzimlənir.[43] Məhkəmələr və Hakimlər haqqında Qanuna görə məhkəmələrin büdcəsi dövlət büdcəsinin ayrıca maddəsi ilə ayrılan vəsait hesabına təmin olunur. Prezidentin müvafiq fərmanı ilə Nazirlər Kabinetinə və Ədliyyə Nazirliyinə tapşırılıb ki, məhkəmələr maliyyə idarə etməsi ilə bağlı işləri həyata keçirsinlər. Ədliyyə Nazirliyinə və yüksək instansiya məhkəmələrinə növbəti ilin dövlət büdcəsindən ayrılmalarla bağlı tövsiyələrini müvafiq icra orqanlarına göndərmək tapşırığı verilib, Müvafiq İcra Hakimiyyəti orqanın səlahiyətləri prezidentin fərmanı[44] ilə Nazirlər Kabinetinə verilib. Yuxarıda göstərilənlər, bir daha göstərir ki, məhkəmələr büdcə idarə etməsində və maliyyə bölgüsündə səlahiyyətə malik deyillər.

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Sual**: Təcrübədə, məhkəmələr öz büdcə təkliflərini irəli sürə, onu bölüşdürə və idarə edə bilirlərmi?
**Qiymət**: **0**

**2010-cu il yenilikləri**

Bu sahə ilə bağlı heç bir irəliləyiş qeydə alınmayıb.

**2009-cu ilin qeydləri**

Təcrübədə[45], məhkəmlər büdcənin bölüşdürülməsində və idarə olunmasında səlahiyyətə sahib deyillər. Bununla belə yalnız yüksək instansiya məhkəmələri (aşağı instansiya məhkəmləri deyil) öz büdcələri ilə bağlı təklif yollaya bilərlər. Bu isə məhkəmlərin icra orqanlarından asılılığını əsaslandıran digər bir faktdır. Bununla bağlı daha ətraflı məlumat əldə etmək mümkün deyil.

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Sual**: Məhkəmə işlərinin hakimlər arasında bərabər bölünməsini tənzimləyən nə kimi obyektiv üsullar mövcuddur?
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

Bu sahə ilə bağlı heç bir irəliləyiş qeydə alınmayıb.

**2009-cu il qeydləri**

Təyinatla bağlı qaydalara görə, proseslərə təyinat kod sistemi ilə həyata keçirilməlidir.[46] Hakimlərin adları 1 rəqəmindən başlayaraq növbə ilə nömrələnir. Kodlaşdırma prosesi

---

[43] Məhkəmələr və Hakimlər haqqında qanunun 90-cı maddəsi və Konstitusiya Məhkəməsi haqqında Qanunun 70-ci maddəsi
[44] 12 fevral 2004 tarixli Azərbaycan Respublikasının Prezidentinin 29 nömrəli sərəncamı
[45] Mənbə: 17 mart 2010 tarixində hakimlər ilə müsahibə
[46] Azərbaycan Respublikasının Məhkəmələrində Kargüzarlığın Aparilmasına dair Təlimat, fəsil XI

hakimlərin ümumi yığıncağında seçilmiş təsadüfi rəqəmlər əsasında aparılmalı, işlərin bölgüsü isə hakimlərin sıra bölgüsünə əsasən ardıcıllıqla həyata keçirilməlidir. Bəzi hallarda hakim vəzifə başında deyilsə və ya həddindən artıq işə baxırsa, işin baxılması bir digər hakimə həvalə oluna bilər. Hakimlər arasında təyinatların bərabər bölünməsinə əmin olmaq üçün, məhkəmənin kargüzarlığı tərəfindən işlərin bölüşdürülməsinə nəzarət cədvəli tərtib edilir. İşlərin bölüşdürülməsinə nəzarət cədvəli kargüzarlıq xidmətinin bu işə məsul işçisi tərəfindən işlərin daxil olma ardıcıllığına uyğun olaraq, gündəlik doldurulur və imzalanır. İşlərin bölüşdürülməsinə nəzarət cədvəlinin bir nüsxəsi aidiyyatı üzrə müvafiq məhkəmə və kollegiya sədrinə təqdim edilir, bir nüsxəsi isə ayrıca qovluqda saxlanılır. Kargüzarlıq xidməti tərəfindən təqdim edilmiş təhlil əsasında hər rübün sonunda məhkəmədə işlərin bölüşdürülməsinin vəziyyəti məhkəmə sədrinin yanında keçirilən iclasda müzakirə edilməlidir.

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Sual**: Təcrübədə məhkəmə işləri hakimlər arasında obyektiv üsullarla bölünürmü?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

Ədliyyə Nazirliyi tərəfindən bildirilir ki, işlərin hakimlər arasında bölünməsi ixtiyari qaydada həyata keçirilir.[47] Məhkəmə işlərinin bölgüsü də məhkəmə təlimlərinə daxildir. Təcrübədə qaydaya riayyət olunur amma eyni zamanda məhkəmə sədrlərinin işləri öz yaxın ətrafı arasında bölmək üçün imkanları var.

**2009-cu ilin qeydləri**

Təcrübədə heç də hər zaman məhkəmə işlərinin bölgüsü yuxarıda göstərilən qaydalar əsasında aparılmır. Bəzi hallarda, iş bir-başa olaraq nömrələnməmiş məhkəmə sədrinə verilir və bundan sonra onun müdaxiləsi ilə işə baxılması üçün hakim ayrılır.[48] Məhkəmələrdə avtomatlaşdırılmış innovativ texnologiyalardan istifadə olunmur. Bununla belə bu istiqamətdə irəliləyişlərin əldə edilməsi, "kor təyinat" sistemindən istifadəyə keçilməsi ilə müzakirələr aparılır.[49]

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Sual**: Hakimlərin dövlət rəsmilərinin və şəxsi maraqların xarici müdaxilələrindən, yalnış təsirlərdən qorunması, qanunlar və konstitutsiya ilə hansı səviyyədə tənzimlənir?
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

Bu sahə ilə bağlı irəliləyiş qeydə alınmayıb.

---

[47] Ədliyyə Nazirliyindən məktub, 28 Aprel 2010
[48] Mənbə: Hakimlərlə müsahibə
[49] 2009-cu il üzrə Global Integrity Hesabatı, http://report.globalintegrity.org/Azerbaijan/2009/scorecard/91/80b

**2009-cu ilin qeydləri**

Azərbaycan Respublikası Konstitutsiyası və Məhkəmlər və Hakimlər haqqında Qanunda hakimlərin müstəqilliyi təmin olunur. Hər hansı bir şəxs tərəfindən, hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, təsir, hədə və müdaxilə edilməsi, habelə məhkəməyə hörmətsizlik göstərilməsi, yaxud aşkar etinasızlıq göstərildiyini bildirən hərəkətlər edilməsi yolverilməzdir.[50]

**Alt-Bölmə 1: Məhkəmələrin Müstəqilliyi**
**Sual:** Təcrübədə, məhkəmə baxışları və qərar qəbul etmə dövlət rəsmilərinin və şəxsi maraqların təsirindən nə dərəcədə azaddır?
**Qiymət**: **0**

**2010-cu ilin yenilikləri**

Azərbaycan hökuməti, jurnalist Eynulla Fətullayevin azad olunması ilə bağlı 2010-cu ilin aprel ayında Avropa İnsan Hüquqları Məhkəməsinin çıxardığı qərarı yerinə yetirməməyə davam edir. Onun həbsində siyasi səbəblərin əsas rol oynadığı ehtimal edilir. Hökumət Avropa İnsan Hüquqları Məhkəməsinin qərarından iyun ayında apelyasiya şikayəti versə də, oktyabr ayında qərar öz qüvvəsində qalıb. Nəticədə, Ali məhkəmə Bakıda noyabr ayında böhtan və terror da daxil olmaqla ona qarşı sürülən bəzi ittihamları geri götürüb. Bununla belə o hazırda, inanılması çətin olan narkotik maddə saxlamaq ittihamı ilə həbsdədir. Onun həbsdə qalması xeyli sayda insan hüquqları təşkilatları tərəfindən beynəlxalq səviyyədə tənqid olunub.[51]

2010-cu ilin yanvar ayında, Sülh və demokratiya institutu İnsan Hüquqları üzrə Avropa konvensiyasının tələblərini pozan hakimlərin siyahısını hazırlayıb və onu ictimaiyyət arasında yayıb.[52] Bu və vətəndaş cəmiyyətinin digər üzvləri tərəfindən aparılan müşahidələr əsasında demək olar ki, məhkəmə qərarları rəsmi və şəxsi maraqların təsirindən azad deyil[53].

**2009-cu ilin qeydləri**

Yuxarıda göstərildiyi kimi, hakimlərin seçilməsi və vəzifələrinin artırılması qaydalarını tənzimləyən qanunlarda bir sıra boşluqlar var və bunlar yerli icra hakimiyyətinə məhkəmlərə müdaxilə üçün imkanlar yaradır. Bəzi hallarda siyasi motiv daşıyan bir sıra işlər məhkəmə baxışına qəbul edilmir. Məsələn, 2009-cu ildə hüquq mühafizə orqanları və məhkəmələr tərəfindən pis rəftara məruz qalan jurnalistlər, siyasi partiya üzvləri, QHT təmsilçiləri, tələbələr və digərlərinin bununla bağlı şikayətləri rədd edilib. [54](Bu şikayətlərin içərisində Talişi Sədo qəzetinin baş redaktoru Novruzəli Məmmədovun da şikayəti olub ki, oda sonradan həbsxanada dünyasını dəyişib). Reallıqda Məhkəmə sistemi icra hakimiyyətinin ciddi təsiri altında fəaliyyət göstərir.[55]

---

[50] Azərbaycan Respublikasının Konstitusiyanın 127-3 Maddəsi, Məhkəmələr və Hakimlər haqqında qanunun 9-cu maddəsi
[51] ANCEI Progress Report for 2010, available at: www.aamik.az
[52] Sülh və demokratiya İnstitutundan məktub, 29 yanvar 2010
[53] ANCEI Progress Report for 2010, available at: www.aamik.az
[54] Azərbaycanın Avropa İttifaqı ilə imzaladığı "Fəaliyyət Planı" üzrə 2009-cu ildə əldə edilmiş tərəqqinin qiymətləndirilməsi
[55] Mənbə: 2009-cu il üzrə Global Integrity Hesabatı, http://report.globalintegrity.org/Azerbaijan/2009/scorecard/91/80b

**Alt-Bölmə 2: Məhkəmə İnsan Resursları**
**Sual:** Qanunla, hakimlərin, prokurorların və digər məhkəmə işçilənin, yeni məhkəmə təcrübələrinin və proseslərinin öyrədilməsi, yeni vəya dəyişilmiş qanunlara tanış olması məqsədi ilə təlimlərin keçirilməsinin tənzimlənməsi nə səviyyədədir?
**Qiymət**: 2

**2010-cu ilin yenilikləri**

Bu sahədə heç bir irəliləyiş qeydə alınmayıb.

**2009-cu ilin qeydləri**

Qanuna görə Ali Məhkəmənin və Apelyasiya Məhkəməsinin hakimləri istisna olmaqla, digər hakimlərin bilik və bacarıqlarının artırılmasına, məhkəmələrin zəruri materiallarla təchiz olunmasına Məhkəmə Hüquq Şurası məsuliyyət daşıyır[56]. İlin əvvəlində Şura hakimlərin təlim keçmək istədikləri sahələri müyyənləşdirmək üçün onlara sorğu göndərir. Əldə edilə cavablar əsasında təlim proqramları tərtib edilir. Qanuna görə təlimlərdə iştirak könüllülük əsasında aparılır.[57] Amma məhkəmə işçilərinin təlimlərə cəlb edilməsi bu proqrama daxil deyil.

**Alt-Bölmə 2: Məhkəmə İnsan Resursları**
**Sual:** Təcrübədə, hakimlər, prokurorlar və digər məhkəmə işçilərinin mütəmadi olaraq yeni məhkəmə təcürəblərinin və prosedurların öyrənilməsi, yeni qəbul edilmiş və dəyişdirilmiş qanunlarla tanışlıq məqsədi ilə təlimlər keçirilirmi?
**Qiymət**: 2

**2010-cu ilin yenilikləri**

Beynəlxalq hüquq təşkilatları və Ədliyyə Akademiyası tərəfindən məhkəmlərin peşəkarlığının artırılması məqsədilə 20-yə yaxın təlim proqramı həyata keçirilib. Təlim proqramlarına 200-dən çox hakim qatılıb.[58] Ali Məhkəmənin sədrinin sözlərinə görə illik təlim proqramlarına əlavə olaraq, məhkəmə mövzularının yenidən analiz edilməsi məqsədi ilə seminarlar keçirilir. Yeni seçilmiş hakimlər 2010-cu ildə ilk dəfə olaraq Almaniya və Türkiyəyə təlimlərə göndəriliblər.[59]

**2009-cu il qeydləri**

Təlimlər Ədliyyə Nazirliyi yanında fəaliyyət göstərən keçmiş Hüquqi Təlim Mərkəzinin bazasında yaradılmış yeni Ədliyyə Akademiyasında keçirilir (tam olaraq fəaliyyət göstərmir).

---

[56] Məhkəmələr və Hakimlər haqqında qanunun 86-cı maddəsi
[57] Cavid Hüseynovun (Məhkəmə Hüquq Şurasının aparat rəhbəri) təqdimatı Presentation by Javid Huseynov, head of office of Judicial Legal Council at advocacy round table on Improvement of Transparency of the Judicial System organized by TI Azerbaijan on 31 March 2011
[58] Official Bulletin of the Ministry of Justice, 'Judicial Reform Successfully Continues', 26 January 2011, available at : http://www.justice.gov.az/view_full.php?id=247
[59] Interview of Ramiz Rzayev, chairman of the Supreme Court, 31 January 2011; available at: www.trend.az

Ədliyyə Nazirinin müsahibəsində də məhz bu fakta diqqət ayrılır. Nazir hakimlərin yol verdikləri yalnışlıqları azaltmaq, xidmət səviyyəsini daha da artırmaq məqsədi ilə Məhkəmə Hüquq Şurasının beynəlxalq təcrübəni öyrəndiyini, Avropa Hakimlər Şurasının tövsiyyələri və hakimlər arasında aparılmış tədqiqatların əsasında yeni tədris planlarının hazırlandığını bildirib. [60]Məhkəmə Hüquq Şurası 2009-cu ildə müxtəlif mövzuda xarici ekspertlərin iştirakı ilə 17 treninq təşkil edib və aşağı instansiya məhkəmlərinin hakimləri bu təlimlərdə iştirak ediblər. Hakimlərlə hüquq mühafizə orqanları əməkdaşlarının birgə təlimlərə cəlb edilməsi məsələsi də gündəlikdəir. Daha ətraflı Bölmə 3-ə bax. Ədliyyə Akademiyasında vəkillər də daxil olmaqla digər hüquq mütəxəssislərinə də təlimlər keçirilir ki, buda müsbət hal kimi qiymətləndirilə bilər.

**Alt Bölmə 3: Məhkəməyə çıxış**
**Sual:** Qanunla məhkəmə iştirakçılarının pulsuz vəkillə təmin olunmasının vəziyyəti hansı səviyyədədir?
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

2010-cu ildə bu istiqamətdə heç bir qanunvericilk təşəbbüsü olmayıb. Təcrübədə imkansız əhali ( daha çox qaçqınlar və məcburi köçkünlər) dövlət hesabına pulsuz hüquqi müdafiə ilə təmin olunurlar. Vətəndaş cəmiyyəti də, Avropa təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), USAİD və digər donorların dəstəyi ilə prosesə töhfə verir. [61]Əlavə olaraq, Ali Məhkəmənin sədri, Sosial Müdafiə Fondu ilə birlikdə kasıb ailələrin puzlsuz hüquqi müdafiə ilə təmin edilməsi üçün ayrıca təşkilat yaratmağı təklif etmişdi. Buna hazırlıq işləri görülür.[62]

**2009-cu il qeydləri**

Konstitutsiyaya  görə, qanunla hüquqi yardım dövlət hesabına pulsuz təmin edilməlidir.[63] Məhkəmələr və Hakimlər haqqında Qanuna görə Azərbaycan Respublikası vətəndaşlarının, onun ərazisində yaşayan xarici vətəndaşların, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunlarda nəzərdə tutulmuş hüquq və azadlıqlarının, hüquqi şəxslərin qanuni mənafelərinin hər cür qəsdlərdən və qanun pozuntularından məhkəmə icraatının istənilən mərhələsində məhkəmə müdafiəsi hüququ təmin olunur. [64]Bu hüquq digər dövlət aktları ilə də tənzimlənir.[65] Ali Məhkəmənin sədri Ramiz Rzayev son mətbuat konfransında  kasıb ailələri vəkillə təmin etmək məqsədi ilə xüsusi

---

[60] Mənbə: Ədliyyə Naziri Fikrət Məmmədovun müsahibəsi,  http://www.525.az/view.php?lang=az&menu=2&id=10373
[61] Since 2009 OSCE funds five Legal Resource Centres in the cities of Ganja, Lenkoran and Sheki   operated by Transparency Azerbaijan and one centre in the city of Sumgait  operated by Democracy and  Human Rights. Meanwhile, USAID has supported Transparency Azerbaijan with three Advocacy and Legal Advice centre since March 2005
[62] Interview of Ramiz Rzayev, chairman of the Supreme Court,  31 January 2011; available at: www.trend.az
[63] Azərbaycan Respublikasının Konstitusiyanın 61 Maddənin II hissəsi
[64] Məhkəmələr və Hakimlər haqqında qanunun 10-cu maddəsi
[65] Cinayət Prosessual Məcəlləsinin 92.9.24, 90.7.9 və 91.5.5 maddələri, Vəkillər və Vəkillik haqqında qanunun 19 və 20 maddələri

orqanın yaradılmasının planlaşdırıldığını bildirib.[66] Əgər insanların gəlirləri vəkil tutmağa kifayət etməzsə, vəkilin haqqı vəkillə, vətəndaş arasında bağlanan müqavilə əsasında yaradılcaq həmin qurum tərəfindən ödəniləcək. Reallıqda vəkillərin bilik və bacarıqları kifayət qədər yüksək səviyyədə deyil. Bu onunla bağlıdır ki, yüksək ixtisaslı vəkillər dövlət tərəfindən ödəniləcək məbləğ qarşılığında məhkəmədə təmsil olunmaq istəmirlər. Baxmayaraq ki, ölkədə əvvəllər vəkillərə bir saata görə ödənilən 99 qəpiklik ($1.22) haqq, 2 manata ($2.48) qədər artırılıb,[67] bu özəl sektorla müqayisədə çox azdır. Müqayisə üçün özəl qaydada məhkəmələrdə qaydada məhkəmlərdə təmsil olunan vəkillər hər işə görə 200 manatdan ($248) 5000 manata ($6,200) qədər haqq alırlar.[68]

**Alt Bölmə 3: Məhkəməyə çıxış**
**Sual:** Məhkəmə sistemində tərcümə işi hansı səviyyədə təşkil edilir (yerli dili bilməyən və eşitmə qüsuru olan məhkəmə iştirakçılar üçün)?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

Bu sahədə heç bir irəliləyiş qeydə alınmayıb.

**2009-cu il qeydləri**

Konstitutsiyaya[69] görə, Azərbaycan Respublikasında məhkəmə icraatı Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq yerin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində aparılır. İşin iştirakçısı olub məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin işin materialları ilə tam tanış olmaq, məhkəmədə tərcüməçi vasitəsi ilə iştirak etmək və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilir. Bu hal həmçinin digər dövlət aktları ilə də tənzimlənir[70]. Təcrübədə həm xarici dili, həm yerli dili həm də eyni zamanda hüquqi sitemi bilən tərcüməçilərin sayı azdır və bu görülən işin keyfiyyətini azaldır.[71]

**Alt Bölmə 4: Məhkəmə Resursları**
**Sual:** Maliyyə mənbələri**:** Məhkəmələrə ayrılan büdcə dövlətin ümumi büdcəsinin artımından nə dərəcədə asılıdır və bu məhkəmə xidmətinin ehtiyaclarının ödənməsinə nə kimi təsir göstərir?

---

[66] Mənbə: Ali Məhkəmənin sədri Ramiz Rzayevin pres konfransı, http://www.525.az/view.php?lang=az&menu=17&id=11612
[67] Mənbə: http://www.baki-xeber.com/new/2010/02/01/get=39778
[68] Azərbaycanda hüquqşünaslar üçün, az sayda böyük hüquq şirkətlərdən başqa, saat hesabı ödəniş təcrübəsi yoxdur. Mənbə: Hüquq Təlim Mərkəzinin rəhbəri ilə 1 mart 2010 tarixli müsahibə
[69] Azərbaycan Respublikasının Konstitusiyanın 127 Maddənin X hissəsi
[70] Məhkəmələr və Hakimlər haqqında qanunun 14 maddəsi, Cinayət Prosessual Məcəllənin 26 və 99 maddələri, Mülki Prosessual Məcəllənin 11 və 65 maddələri
[71] Mənbə: 18 yanvar 2010 tarixində hakim ilə müsahibə

**Qiymət**: 2

**2010-cu ilin yenilikləri**

2010-cu ilin 18 iyununda, hökumət neft gəlirləri və vergi ödənişləri hesabına 2010-cu ilin dövlət büdcəsinin artırılması barədə qanun layihəsi qəbul edib. [72]Ona uyğun olaraq məhkəmələrə ayrılan büdcə 2009-cu ildən 3% daha artıq olub.

**2009-cu ilin qeydləri**

Hesabablama Palatasının 2010-cu ilin dövlət büdcəsinin qanun layihəsi ilə bağlı rəyindən aydın olur ki, son beş ildə büdcədən məhkəmlərə ayrılan vəsait 3 dəfə artıb. Bu isə imkan verib ki, hakimlərin və məhkəmlərin sayı artırılsın, məkhəmələrin maddi və texniki bazası inkişaf etdirilsin.[73] 2008-ci illə müqayisədə 2009-cu ildə büdcədən məhkəmə sektoruna ayrılmalar ümumi məbləğ olaraq arıtılıb amma xüsusi ayrılmalar azalıb. 2010-cu il büdcəsi isə bir qədər fərqlidir, belə ki, dövlət büdcəsi ümumilikdə aşağı düşüb. Neftin qiymətində düşüşün yaşanması büdəcəyə, dolayısı ilə büdcədən məhkəməyə ayrılan vəsaitə təsir edib, amma bununla belə dövlət fondundan məhkəməyə ayrılmalar artıb. Bu göstərir ki, hökumət digər sahələrdə qənaət hesabına olsa belə, məhkəmə sisteminə müvafiq maliyyələşməni ayırır.

**Alt Bölmə 4: Məhkəmə Resursları**
**Sual:** İnsan Resursları/ Potensialı**:** Qanunlarla hədsiz yubanmalara yol verilməməsi, hakimlərlə işə baxmaq və qərar qəbul etmək üçün müvafiq vaxtın verilməsi və apelyasiya işlərinə vaxtın baxılması ilə bağlı nə kimi şərtlər mövcuddur?
**Qiymət**: 2

**2010-cu il yenilikləri**

İnzibati Prosesual Məcəlləyə edilən əlavə və dəyişikliklərdən sonra ağır cinayətlərə dair işlər üzrə məhkəmələrin sayı ikidən beşə qaldırılıb və yeni inzibati/iqtisad məhkəmələri təsis edilib. Yeni məhkəmələr 2011-ci ilin yanvar ayının 1-dən etibarən fəaliyyətə başlayıb.[74] Bu məhkəmələr ümumi işə kömək etmək və aşağı instansiya məhkəmələrinin yükünü azaltmaq məqsədilə yaradılıb. Eyni zamanda 2010-cu ilin avqust ayına qədər olan 480 nəfərlik hakim korpusunun 600 nəfərə qədər artırılması qərara alınıb.[75]

**2009-cu il qeydləri**

---

[72] Azərbaycan 2010-cu il büdcəsini artırır 18 İyun 2010;bax: www.news.az
[73] Mənbə: http://www.ach.gov.az/index.php?/az/content/319, Qanun layihəsi bu hesabat hazırlanan zaman qüvvəyə minmişdir
[74] The Law on Making Amendments and Changes to the Law on Courts and Judges, dated 22 June 2010; approved by Presidential Decree, dated 15 July 2010.
[75] Presidential Decree on some changes in the composition of the judicial corps, on number of judges and jurisdiction of territorial courts, dated 9 August 2010

Prosessual hərəkətlər Mülki Prosessual Məcəllə, Cinayət Prosesual Məcəlləsi, İnzibati İcraat haqqında Qanun və İnzibati Prosessual Məcəllə əsasında həyata keçirilir.[76] Qanunla tənzimlənməyən hallar, ortaya çıxarsa məhkəmələr tərəfindən tənzimlənir. Məsələn, cinayət işi ilə əlaqdar ilkin instansiya məhkəməsi və Apelyasiya məhkəməsi, işlə bağlı hazırlıq iclasını iş məhkəməyə daxil olduqdan sonra 15 gün müddətində təmin edilməlidir (cinayət işinin həcminin böyüklüyü, təqsirləndilən şəxslərin sayının çoxluğu və ya baxışın təşkilinin xüsusilə mürəkkəb olması ilə əlaqədar bu müddət məhkəmənin qərarı ilə 30 günədək uzadıla bilər). Hazırlıq iclası keçirildikdən 15 gün müddətində məhkəmə baxışı təyin edilməlidir. Apelyasiya Məhkəməsinə göndərilən işlərə, işlə tanışlıq bitdikdən sonra 30 gün müddətində baxılmalıdır. Həddindən artıq yubanmalara görə Məhkəmə Hüquq Şurası tərəfindən sanksiyalar tətbiq edilir.

**Alt-Bölmə 4: Məhkəmə Resursları**
**Sual:** İnsan Resursları/ Potensialı**:** Təcrübədə, məhkəmə baxışları qanunsuz təxirə salınmalar olmadan, hədsiz yubanmalarsız həyata keçirilirmi??
**Qiymət**: **1**

**2010-cu il yenilikləri**

Məhkəmə Hüquq Şurası məhkəmə protokollarının pozulması hallarına yol verən hakimlər barədə cəza tədbirləri görməyə davam edir. Bir çox hakimlər xüsusilə region məhkəmələrinin hakimləri ağır iş yükünün olmasından şikayətlənir, bu isə bir çox hallarda bu kimi pozuntuların ortaya çıxmasının səbəbi kimi göstərilir. Bu məhkəmələr, məhkəmə prosesinin sadələşdirilməsini və hakimlərlə, məkhəmə işçilərinin sayının artırılmasını istəyirlər.[77]

**2009-cu il qeydləri**

Əvvəlki illərdən fərqli olaraq[78], işlərin əksəriyyətinə vaxtında baxılır. Bunu daha çox cinayət işlərinə aid etmək olar, mülki işlərdə isə yubanmalar daha çox olur[79]. Ümumiyyətlə hakimlər işlərə vaxtında baxılmasının tərəfdarıdırlar və yubanmalara yol vermək istəmirlər. Çünki Məhkəmə Hüquq Şurası verilən müddətdən artıq vaxt keçərsə hakimlərə qarşı bir sıra intizam tədbirləri həyata keçirir. [80]

**Alt-Bölmə 4: Məhkəmə Resursları**
**Sual:** İnsan Resursları/ Potensialı**:** Hakimlərə öz işlərini icra edə bilmək üçün adi şərait yaradılırmı (iş şəraiti, köməkçi şəxslər, hüquq nəşrlərdən ibarət kitabxana və.s) ?

---

[76] Mülki Prosessual Məcəllə, Fəsil X, Cinayət Prosesual Məcəlləsi, 48.2.3, 202 və 203 Madələr, İnzibati İcraat haqqında qanun, maddə 48, İnzibati Prosessual Məcəllə, Fəsil V

[77] Məhkəmə sistemində korrupsiya cinayətləri ilə bağlı müzakirələr, 7 Fevral, 2011; bax: www.trend.az; və Şəffaflıq Azərbaycan təşkilatı tərəfindən 2010-cu il İyul-Dekabr ayları arasında Lənkəran şəhərində hakimlər arasında apardığı sorğu

[78]Mənbə: "Azərbaycanda həyata keçirilən islahatların sənəd və icrası arasında fərq" Rəna Səfərəliyeva, Global Corruption Report 2007, Transparency International nəşri, 2007 http://www.transparency.org/publications/gcr/gcr_2007#book

[79] Mənbə: Hakimlə müsahibə, 1 fevral 2010.

[80] Mənbə:İctimai Maraqların müdafəsi və hüquq məsləhət mərkəzi layihəsinin müraciətçilərindən əldə edilən təcrübə və Ədliyyə Naziri Fikrət Məmmədovun müsahibəsi, http://www.525.az/view.php?lang=az&menu=2&id=10373

**Qiymət**: **1**

**2010-cu il yenilikləri**

Hakimləri, xüsuilə regional məhkəmələrdə çalışan hakimləri insan resurs və potensialı sahəsində olan problemlər, eyni zamanda hüquqi materelların məhdudluğu narahat edir.[81] Digər bir problem internetə qoşulmaq və əyalət hakimləri və yaşlı hakimlərin komputer biliklərinin aşağı olması ilə əlaqədardır. [82]Hakimlər eyni zamanda qanunla onlara ayrılmalı olan yaşayış yerlərinin onlara ayrılmamasından şikayətlənirlər.[83] Qanuna görə hakimlər vəzifəyə təyin olunduqdan sonrakı altı ay ərzində evlə təmin olunmalıdırlar.[84] Şəffaflıq Azərbaycan təşkilatı məhkəmə kargüzarlarının işə qəbulunun monitorinqini aparıb və məlum olub ki, peşəkarlıq səviyyəsi aşağıdır. [85]

**2009-cu ilin qeydləri**

Qanunvericiliyə[86] görə, məhkəmələr tərəfindən ədalət mühakiməsinin prosessual qanunvericiliyinin tələblərinə uyğun həyata keçirilməsinə lazımi şərait yaradılmasından ötrü hər bir məhkəmə xüsusi təchiz edilmiş binalarla, məhkəmə hakimyyətinin rəmzləri (Azərbaycan Respublikasının Dövlət bayrağı, Dövlət gerbi və ədalət mühakiməsinin rəsmi emblemi) və hakimlərin xüsusi geyimləri ilə, zəruri nəqliyyat vasitələri və təşkilati-texniki qurğularla: blanklar, ştamplar, məhkəmənin adı və dövlət gerbi həkk olunmuş möhürlə təmin edilir. Hakimlərə onların statusunu təsdiq edən xidməti vəsiqələr verilir. Məhkəmələrin fəaliyyəti, maddi-texniki təchizatı dövlət büdcəsi hesabına həyata keçirilir. Məhkəmələr üçün tikilən yeni binalar kifayət qədər geniş və hər tərəfli təmin edilmiş binalardır[87]. Amma bununla belə hələ də kifayət qədər maliyyə vəsaitinin ayrılmaması ilə əlaqədar məhkəmə zallarının maddi texniki təminatı sahəsində problemlər qalmaqdadır[88]. Digər bir problem isə məhkəmə işçiləri; məhkəmə nəzarətçiləri və icraçılarının peşəkarlıq səviyyəsinin aşağı olması ilə əlaqədardır. Təlimlər keçirilərkən daha çox hakimlər diqqət mərkəzində saxlanılır və digər əməkdaşlar isə təlimlərə cəlb olunmurlar. Paytaxtda yerləşən məhkəmələr əyalətdə yerləşən məhkəmələrlə müqayisədə daha yaxşı təchiz olunub və onların əməkdaşları daha ixtisaslıdır. [89]

**Alt Bölmə 5: Şəffaflıq**
**Sual:** Qanunla məhkəmə zalları ictimaiyyətə və mediaya nə qədər açıqdır?
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

---

[81] Şəffaflıq Azərbaycan təşkilatı tərəfindən 2010-cu il İyul-Dekabr ayları arasında Lənkəran şəhərində hakimlər arasında apardığı sorğu
[82] Şəffaflıq Azərbaycan təşkilatının regional mərkəzlərindən əldə edilmiş bir başa məlumat
[83] 4 mart 2010-cu il tarixdə götürülmüş müsahibə
[84] Məhkəmə və hakimlər Haqqında qanun, 10 İyun 1997-ci il
[85] Məkkəmə işçilərinin işə götürülməsi Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 2010-cu ilin Noyabrından, 2011-ci il Yanvarına qədər aparılıb
[86] Məhkəmə və Hakimlər Haqqında qanun 90-cı maddə
[87] Mənbə: Ədliyyə Naziri Fikrət Məmmədovun müsahibəsi, http://www.525.az/view.php?lang=az&menu=2&id=10373
[88] Mənbə: Regionlardan olan hakimlərlə müsahibə, 14 mart 2010.
[89] Mənbə: Gəncə hakimlərindən götürülən müsahibə, Dekabr 2009

Bu sahədə heç bir irəliləyiş qeydə alınmayıb.

**2009-cu ilin qeydləri**

Konsitutsiyaya[90] və digər bir sıra qanunlara görə[91], bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır. İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, ya da vətəndaşların şəxsi və ya ailə həyatının məxfiliyini qorumaq zərurətinin mövcudluğunu müəyyən edir.

**Alt Bölmə 5: Şəffaflıq**
**Sual:** Təcrübədə, məhkəmə iclasları ictimaiyyətə və mediaya nə dərəcə açıqdır və onların yerləşdirilməsi üçün kifayət qədər yer varmı?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

2010-cu ildə məhkəmə zallarına girişin məhdudlaşdırılması ilə bağlı müraciət edənlərin sayı əvvəlki illərə nisbətən az olub.[92]

**2009-cu ilin qeydləri**

Təcrübədə, məhkəmələr açıq elan olunsa da, bəzi hallarda siyasi səbəblərdən məhkəmə işləri qapalı aparılır. Məsələn, müxalif mövqeyinə görə işdən azad edilən İntiqam İsmayılovun məhkəmə prosesi zamanı jurnalistlər məhkəmə zalına buraxılmayıb. Keçmiş İqtisadi İnkişaf Naziri Fərhad Əliyevin işi zamanı da jurnalistlər məhkəmə zalından kənarda saxlanılıb.[93] Media nümayəndələri gənc blogerlər Adnan Hacızadə və Emin Millinin məhkəməsi zamanı da zala daxil ola bilməyiblər.[94] Digər bir halda isə Seçkilərin Monitorinqi mərkəzinin qeydiyyatının dayandırılması ilə bağlı məhkəmə işini izləmək istəyən beynəlxalq təşkilatların, səfirliklərin və QHT-lərin nümayəndləri də zala buraxılmayıb və içəri keçmək istəyənlərə polis işçiləri bildiriblər ki, onlara heç kimi içəri buraxmamaq tapşırılıb.[95] İçərisində məhkəmə prosesinin lentə alınması üçün video kameralar quraşdırılan məhkəmə zalları mövcuddur, amma zaldan çöldə prosesi onlayn qaydada izləyə bilmək üçün sistem quraşdırılmayıb.

---

[90] Konstitutsiyanın V hissəsinin 127-ci maddəsi
[91] Məhkəmələr və Hakimlər haqqında Qanunun 12 maddəsi, Mülki Prosessual Məcəllənin 10 maddəsi və Cinayət Prosessual Məcəllənin 27 maddəsi

[92] Vətəndaşlara pulsuz hüquqi yardım verən və onları məhkəmlərdə təmsil edən Şəffaflıq Azərbaycan təşkilatının 5 bölməsi tərfindən əldə edilmiş təcrübə
[93] Mənbə: http://www.nakhchivan.org.az/content/view/736/28/lang,az/ və Mənbə: http://www.irfs.az/content/view/938/28/lang,az/
[94] Mənbə: http://ol-az.blogspot.com/2009/09/bir-mhkm-iclas-da-arxada-qald.html
[95] Mənbə: http://azadliq.az/?p=9810

**Alt Bölmə 5: Şəffaflıq**
**Sual:** Qanunla məhkəmə qərarlarının dərci və ictimaiyyətə açıqlılığı nə səviyyədədir?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

Bu sahədə heç bir irəliləyiş qeydə alınmayıb

**2009-cu ilin qeydləri**

Bəzi istisnalar olmaqla, məhkəmələr tərəfindən qəbul edilən qərarların çap edilməsi ilə bağlı kokret qaydalar mövcud deyil. Ancaq Konstitutsiya Məhkəməsinin plenar iclaslarının qəraları rəsmi qəzetdə çap olunmalıdır[96]. Mülki Prosessual Məcəlləyə[97] əsasən məhkəmə icraatı ilə əlaqədar yeni qəbul edilmiş və ya öz qüvvəsini itirmiş normativ aktlar kütləvi informasiya vasitəslərində dərc edilməlidir Ədliyyə Naziri Fikrət Məmmədov son müsahibəsində[98] məhkəmə işlərində şəffaflığın təmin edilməsi məqsədi ilə yüksək instansiya məhkəmələri tərəfindən qəbul edilmiş məhkəmə qərarlarının dərc edilməsinin müzakirə edildiyini deyib. Bura həmçinin aşağı instansiya məhkəmələrinin dayandılımış və dəyişdirimiş qərarları da daxildir.

**Alt Bölmə 5: Şəffaflıq**
**Sual:** Məhkəmə qərarları dərc edilirmi?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

Məhkəmə Hüquq Şurası internet vasitəsilə məhkəmələrin şəffaflaşdırılması ilə bağlı layihə həyata keçirir. Hazırda 16 yuxarı instansiya məhkəsinin veb səhifəsi fəaliyyət göstərir. Layihəyəyə əsasən bütün məhkəmələrin saytının yaradılması və onların 2011-ci ilin sonuna kimi vahid şəbəkəyə qoşulmaası nəzərdə tutulub.[99] 2010-cu ildə məhkəmə qərarların dərcinin həm keyfiyyət, həm kəmiyət baxımından az aparılmasına baxmayaraq, məhkəmələrin audio yazısının (lentə alınmasının) aparılması üçün hazırlıq işləri görülüb.

**2009-cu il qeydləri**

Yuxarıda göstərildiyi kimi, Konstitutsiya Məhkəməsinin plenunumun qərarları rəsmi dövlət qəzetində dərc edilməlidir. (Bu qəzetlər "Azərbaycan" və "Respublika" qəzetləridir[100]). Bəzi

---

[96] Konstitutsiya Məhkəməsi haqqında qanun –Maddə 69
[97] Mülki Prosessual Məcəllə- maddə 221.3 və 304.3
[98] Mənbə: Ədliyyə Naziri Fikrət Məmmədovun müsahibəsi, http://www.525.az/view.php?lang=az&menu=2&id=10373
[99] Presentation by Javid Huseynov, head of office of Judicial Legal Council at advocacy round table on Improvement of Transparency of the Judicial System, organised by Transparency Azerbaijan on 31 March 2011.
[100] Konstitutsiya Məhkəməsi haqqında qanun Maddə 69 , Mənbə: Anonim hakimdən götürülmüş müsahibə, 19 Yanvar 2010.

hallarda Ali Məhkəmənin və Apelyasiya məhkəməsinin çıxardığı qərarlar da onların veb səhifələrində yerləşdirilir. Ali Məhkəmənin Plenumlarının qərarları da toplanır və xüsusi broşura şəklində müntəzəm qaydada dərc edilir. Amma heç bir halda ilkin instansiya məhkəmkərinin qərarlarının dərci ilə bağlı fakta rast gəlinməyib. [101]

**Alt Bölmə 5: Şəffaflıq**
**Sual:** Məhkəmə iclaslarının stenoqramlarının çoxaldılması və ictimaiyyətə açıqlılığı qanunla hansı qaydada tənzimlənir?
**Qiymət**: **1**

**2010-cu il yenilikləri**

Bu sahədə heç bir irəliləyiş qeydə alınmayıb.

**2009-cu ilin qeydləri**

Mülki Prosessual Məcəllədə, Cinayət Prosessual Məcəllədə və məhkəmə iştirakçıların hüquqlarını tənzimləyən digər hüququ aktlarda göstərilir ki, məhkəmənin protokulunu əldə etmək mümkündür. [102]Protokollarla yalnız işdə iştirak edən şəxslər və nümayəndələr tanış ola bilərlər. Amma onlar ictimaiyyət üçün açıq deyil. Protokolların qorunub saxlanması məhkəmə nəzarətçilərinin fəaliyyət qaydaları haqqında təlimatla[103] tənzimlənir. Təlimatda həmçinin kimlərin məhkəmə sədrinin və hakimin icazəsi ilə protokllarla tanış ola biləcəyi göstərilir. Bu halda müraciətçidən şəxsiyyəti təsdiq edən sənəd tələb olunur (şəxsiyyət vəsiqəsi, hərbi bilet və s. ).

**Alt Bölmə 5: Şəffaflıq**
**Sual:** Məhkəmə stenoqramları, səs və video yazıları çoxladılırmı və ictimaiyyətin bu məlumatları əldə etmək imkanı varmı?
**Qiymet**: **1**

**2010-cu ilin yenilikləri**

Protokollar mühafizə edilsə də, onların əldə edilməsi o qədər də asan deyil. Müdafiə tərəfinin vəkilləri üçün bir əvvəlki məhkəmə prosesinin protokolu olmadan öz müştərisinin müdafiəsini qurmaq çox çətindir.[104]

**2009-cu il qeydləri**

---

[101] Mənbə: Anonim hakimdən götürülmüş müsahibə, 19 Yanvar 2010.
[102] Konstitutsiya Məhkəməsi haqqında qanun Maddə 69 , Mənbə: Anonim hakimdən götürülmüş müsahibə, 19 Yanvar 2010.
[103] Məhkəmə nəzarətçilərinin fəaliyyət qaydaları haqqında təlimat- XXII və XXIII fəsillər
[104] Remark by Fuad Agayev, practicing lawyer at the advocacy round table on Improvement of the Transparency of the Judicial System, organised by Transparency Azerbaijan on 31 March 2011.

Stenoqramlar saxlanılır və yuxarıda göstərildiyi kimi işdə iştirak edən şəxslər məhkəmə materaialları ilə təmin olunurlar. Əgər məhkəmədə iştirak edən şəxslər və ya onların nümayəndələrinin protokolun tərtibatı, yol verilmiş yalnışlıqlar və ya natamamlıq ilə bağlı narazılıqları varsa, onlar protokulun nüsxəsini əldə edib bununla bağlı hakimə etirazlarını bildirə bilərlər. Ümumiyyətlə, Azərbaycan Respublikasının vətəndaşları, istənilən fərdi şəxs və ya hüquqi şəxs, sənədləri Dövlət Arxiv Fondundan[105] çıxarmamaq şərti ilə onlarla tanış ola bilər. Dövlət Arxiv Fondunda sənədlərdən istifadə qaydaları müfaviq icra hakimiyyəti orqanı tərəfindən tənzimlənir. Məhkəmədəki arxiv sənədləri çox az halda Dövlət Arxiv Fonduna göndərilir, əksər hallarda materiallar məhkəmələrin özündə saxlanılır və bu hal arxivlərdən istifadə imkanını məhdudlaşdırır.[106] Beləliklə demək olar ki, məhkəmə işlərinin səs və video yazıları saxlanılır amma onlar ictimaiyyət üçün açıq deyil. Yuxarıda göstərildiyi kimi, məhkəmələrin bu kimi materialları sadə sorğu əsasında ictimaiyyətə təqdim etməsini təmin edən heç bir qayda mövcud deyil, amma bununla bağlı hər hansı bir qadağa da yoxdur. Məhkəmə hakimiyyəti orqanları qanundakı bu boşluqdan istifadə edirlər və bu ictimaiyyət nümayəndələrinə və kütləvi informasiya vasitələrinə məlumat almaqda çətinliklər yaradır. [107]

**Alt Bölmə 6: Məhkəmə qərarlarının icrası**
**Sual:** Qanunlarla məhkəmə icraçılarının rolu, təşkilat, status və təlim baxımından necə təmin olunur.?
**Qiymət**: **2**

**2010-cu il yenilikləri**

Məhkəmə icraçılarının rolu, statusu və təlimlərə cəlb edilməsi Məhkəmə Nəzarətçiləri və Məhkəmə İcraçıları Haqqında qanun[108] və Məhkəmə Qərarlarının İcrası Haqqında Qanunla[109] tənzimlənir. 2010-cu ilin iyun ayında qanunlara dəyişiklik edilsə də, bunlar sadəcə texniki dəyişiklik idi. [110] Bundan sonra Məhkəmə Nəzarətçiləri və Məhkəmə İcraçıları Xidməti, Məhkəmə İcra Məmurları Xidməti adlanır. Eyni zamanda Məhkəmə Qərarlarının İcrası Haqqında qanunda da bir sıra ad dəyişiklərinə yönələn digər texniki dəyişikliklər edilib.[111]

Qeyd: Bu sual 2009-cu il hesabatına daxil edilməmişdi.

**Alt Bölmə 6: Məhkəmə qərarlarının icrası**
**Sual: Məhkəmə icraçıları təcrübədə icra prosedurlarını həyata keçirmək üçün təlimlərə cəlb edilirlərmi?**
**Qiymət: 1**

---

[105] Milli Arxiv haqqında qanun
[106] Mənbə: Təcrübəli hüquqşünasla müsahibə, 9 Fevral 2010.
[107] Mənbə: Hüquqi Təhsil Cəmiyyətinin rəhbəri İntiqam Əliyevlə müsahibə, 1 mart 2010.
[108] Law on Court Supervisors and Court Executors, dated 28 December 1999; available at: www.e-qanun.az
[109] Law on the Execution of Court Decisions, dated 27 November 2010; available at: www.e-qanun.az
[110] Law on Court Supervisors and Court Executors, dated 28 December 1999 with changes and amendments it was turned into the Law on Execution Officials, dated 1 November 2010; and Law on Execution of Court Decisions, dated 27 December 2001 with changes and amendments was turned into the Law on Execution, dated 1 November 2010; available at: www.e-qanun.az.
[111] Law on the Execution of Court Decisions, with changes and amendments available at: www.e-qanun.az.

**2010-cu il yenilikləri**

Məhkəmə icraçıları, digər məhkəmə işçiləri ilə birlikdə  icra prosedurlarını və təcrübələrini öyrənmək məqsədilə təlimlərə cəlb olunurlar. Bununla belə, çıxarılmış məkəmə qərarlarının icrası sahəsində problemlər, çox aktualdır. Bunlar dövlət rəsmiləri və analitiklər tərəfindən də qəbul olunur. Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycanla bağlı çıxardığı 45 qərarın, 19-u məhkəmə qərarlarının icra edilməməsi ilə bağlıdır.[112]

Ədliyyə Nazirliyi, Məhkəmə İcraçıları İdarəsinin rəhbəri X. Zeynalova görə, çıxarılan məhkəmə qərarlarının 77%-i (50 000 iş), icra olunub, amma yerdə qalab 23 faizin hansı səbəblərlə icra edilməməsi aydınlaşdırılmır. 2010-cu ildə dərc edilmiş statistik məlumatlara əsasən demək olar ki, məmurlar daha çox dövlətin marağında olan işlərin icrasına cəhd göstərirlər. Məhkəmə qərarlarının icra edilməməsi , vəzifə səlahiyyətlərini yerinə yetirməmək olsa da bununla bağlı çox az sayda istintaq işi açılıb.

Qeyd: Bu sual 2009-cu il hesabatına daxil edilməmişdi.

**Alt Bölmə 7: Etik Davranış Kodeksi**
**Sual:** Məhkəmə İcraçıları, Etik Davranış Koeksində qeyd olunan etik və peşəkarlıqla bağlı qaydalara nə qədər raiyyət edirlər?
**Qiymət**: **2**

**2010-cu il yenilikləri**

Bu sahə Məkhəkəmə Sistemində Çalışanlar üçün Etik Davranış Kodeksinin xüsusilə bir başa olaraq məhkəmə icraçılarına aid olan 6.1.2-ci maddə ilə tənzimlənir.[113] Beynəlxalq ictimaiyyətin yaxından göstərdiyi köməklik sahəsində ortaya gələn sənədin icra vəziyyəti olduqca aşağı səviyyədədir və xüsusi dəyərləndiriləcək heç bir hal mövcud deyil. .

Qeyd: Bu sual 2009-cu il hesabatına daxil edilməmişdi..

---

[112] Latif Huseynov, head of the department of State Building and Legislation of the Parliament Office, 'There are problems with execution of court decisions in Azerbaijan', 9 February 2011; available at: www. trend.az
[113] Məkhəkəmə Sistemində Çalışanlar üçün Etik Davranış Kodeksi, 29 Noyabr 2007-ci l tarixli

**Bölmə 2: Dövlət Qulluğu sahəsində islahatlar**

| | 2009-cu ilin qiymətləndirməsi | 2010-cu ilin qiymətləndirməsi |
|---|---|---|
| **Ümumi qiymət** | **22/50 (44%)** | **28/50 (56%)** |

| **Alt Bölmə** | **2009-cu ilin qiymətləndirməsi** | **2010-cu ilin qiymətləndirməsi** |
|---|---|---|
| Dövlət Qulluğunda müstəqillik, hesabatlılıq və Şəffaflıq | 8/16 (50%) | 9/16 (56%) |
| İnsan resursları | 5/10 (50%) | 8/10 (80%) |
| Dövlət Qulluğunda vicdanlı davranış | 2/8 (25%) | 3/8 (38%) |
| Ümumi alt qiymətləndirmə | 15/34 (44%) | 20/34(58%) |
| Dövlət Satınalmalar | 7/16 (44%) | 8/16 (50%) |

**Alt Bölmə 1**: Dövlət Qulluğunda müstəqillik, hesabatlılıq və Şəffaflıq
**Sual**: Dövlət qulluqçularının təyinatı və qulluqda yüksəlişinə siyasi müdaxilələrin qarşısının alınması sahəsində qaydalar hansı səviyyədədir?
**Qiymət**: **1**

**2010-cu il yenilikləri**

Dövlət Qulluğu Komissiyası daxili qaydalarına vətəndaş cəmiyyəti üzvlərinin Apelyasiya Komissiyasının işində iştiraka dəvət etməyə şərait yaradan əlavələr edib. “Şəffaflıq Azərbaycan” təşkilatı prosesdə iştirak üçün dəvət olunub. Apleyasiya Komissiyası dövlət qulluğunda çalışmaq üçün müraciət edənlərin şikayətlərinə baxıb. [114] Dövlət Qulluqçularının Qeydiyyatına hər hansı bir dövlət məmuru (yeni qəbul olunmuş vəya stajlı işçilər barədə) barədə səhv vəya tam olmayan məlumatın verilməsi üçün 300-700 manat (təxminən 375-875 ABŞ$) məbləğində cərimə nəzərdə tutulub. Bir sıra islahatlara baxmayaraq, hələ də orta və yüksək rütbəli dövlət məmurlarının təyinatı və vəzifədə irəli çəkilməsi prosesinin şəffaflaşdırılmasını dəstəkləyən qanunlar mövcud deyil.

**2009-cu il qeydləri**

[114] Presentation by Vugar Askerov, legal sector head, the State Civil Service Commission under the President of the Republic of Azerbaijan at the advocacy round table on Improvement of Good Governance Principles in Civil Service, organised by Transparency Azerbaijan in February 2011.

Azərbaycanın qanunvericilik bazasında dövlət qulluğunun tənzimlənməsi ilə bağlı bir sıra hüquqi-normativ aktlar[115] mövcuddur ki, onların da ən əhəmiyyətlisi Dövlət Qulluğu haqqında Azərbaycan Respublikasının qanunudur. Sözügedən qanunun 27.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının 16 yaşına çatmış, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan vətəndaşlarının dövlət qulluğuna qəbul edilmək hüququ vardır. Qanunun 4.1.9-ci maddəsi 27.2-ci maddədə qeyd edilən məhdudiyyətlər istisna olmaqla dövlət qulluğuna qəbul və qulluqda yüksəlişi ilə bağlı bütün vətəndaşlar üçün bərabər hüquqlar təsbit edir. 28-ci maddəyə uyğun olaraq dövlət qulluğuna qəbul müsabiqə və ya müsahibə əsasında aparılır .29.2-ci maddəyə əsasən orta və yüksək təsnifatlar üzrə vəzifələrə qəbul yalnız müsahibələr, 6-9-cu təsnifatlar üzrə vəzifələrə qəbul isə müsabiqə və/və ya müsahibə əsasında aparılır. Müsabiqədə iştirak edən və imtahanları müvəffəqiyyətlə verən şəxslər növbəti mərhələyə, müsahibəyə buraxılırlar. Qanunun 29.7-ci maddəsinə əsasən müsahibə komissiyası aidiyyatı şəxslər, daha dəqiq desək, işəgötürən dövlət orqanının nümayəndəsi də daxil olmaqla ən azı 3 nəfər üzvdən ibarət olmalıdır. Bu isə, təyinat prosesində qərəzli qərarların qəbul edilməsinə və siyasi müdaxilələrə səbəb ola bilər. Dövlət qulluğunda yüksəlişə gəldikdə isə, burada qaydalar qeyri-müəyyəndir ki, bu da əsaslandırılmamış qərarların verilməsinə imkan yaradır.[116]

**Alt Bölmə 1**: Dövlət Qulluğunda müstəqillik, hesabatlılıq və Şəffaflıq
**Sual**: Dövlət qulluqçularının təyinatı və qulluqda yüksəlişi ilə bağlı qaydalar siyasi müdaxilələrin qarşısının alınması sahəsində nə dərəcədə səmərəlidirlər? (məsələn, seçki komitələri öz fəaliyyətlərində siyasi təsirə məruz qalırlarmı)
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

İşə qəbul proesesində vətəndaş cəmiyyətinin iştirakını zəruri edən daxili qaydaların mövcud olmasına baxmayaraq, 2010-cu ilin ortalarına qədər nə Dövlət Qulluğu Komissiyası, nədə vətəndaş cəmiyyətinin üzvləri işə qəbul prosesinin monitorinqini aparmaq üçün fəallıq göstərməyiblər.[117] Komissiya, Prokurorluq, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Xarici İşlər Nazirliyi, Gömrük Komitəsi, hakim vəzifələri, Dövlət Miqrasiya Komitəsindən başqa digər bütün dövlət qurumlarına işçi qəbuluna cavabdehdir. Adı çəkilən qurumlarda işə qəbul prosesi 3 mərhələdən ibarət olan daha qəliz imtahanla həyata keçirilir. Vətəndaş Cəmiyyətinin bu prosesi izləmək üçün məhdud müşahidəçi rolu var.

---

[115] Dövlət Qulluğu haqqında qanun, 21 İyul 2000, # 926-I; Dövlət qulluqçularının məcburi sığortalanması ilə bağlı qanun 30 Aprel, 2002 # 318-IIQ; Dövlət qulluğuna müsabiqə yolu ilə qəbul qaydalarının təkmilləşdirilməsi ilə bağlı prezident sərəncamı 24 İyun, 2009, # 108; Dövlət Qulluğu Komissiyasının yaradılması ilə bağlı prezident sərəncamı 19 Yanvar, 2005 # 180; Dövlət Qulluğu Komissiyasının qaydalarının təsdiq edilməsi ilə bağlı prezident sərəncamı 3İyun, 2005 # 247; Dövlət qulluqçuların davranış kodeksi 31 May, 2007 # 352-IIQ
[116] Mənbə: Dövlət Qulluğu haqqında qanun, 21 İyul 2000, # 926-I; Maddə 32
[117] Şəffaflıq Azərbyacan təşəkilatının Dövlət Qulluğu Məsələləri ilə bağlı keçirilən dəyimi masada edilən təqdimat, 2 Fevral 2011-ci il.

**2009-cu ilin qeydləri**

Praktikada, vətəndaş cəmiyyəti bir sıra əsas dövlət orqanlarına[118] işə qəbul prosesi ilə bağlı yazılı/elektron imtahanlara və inşa müsabiqələrinə dəvət olunurlar. Sözügedən proseslərin ilk 2 mərhələsini monitorinq edən bütün QHT-lər, o cümlədən, ŞA onları ədalətli və şəffaf hesab edirlər. Lakin, sonuncu mərhələ olan müsahibələr bağlı qapılar arxasında aparılır və yekun seçim meyarları qanunvericiliklə dəqiq şəkildə müəyyən edilməmişdir. Vətəndaş cəmiyyətinin işə qəbul prosesinin monitorinqini aparması qanunvericiliklə təsbit olunmadığı üçün müvafiq sorğu asanlıqla rədd edilə bilər. Lakin, namizədin razılığı əsasında aparılan müsahibə video lentə yazıla və tələb olunduğu təqdirdə müstəqil müşahidəçiyə təqdim oluna bilər. Eyni zamanda, Dövlət qulluğu məsələləri üzrə Komissiya narazı namizədlərin ərizələrini nəzərdən keçirən apelyasiya komissiyası yaratmışdır.[119]

Həmçinin, bəzi nazirliklər fərdi məsləhətçilər qismində yeni əməkdaşları işə qəbul edirlər (xidməti müqavilə əsasında). Bu şəxslər eyni vəzifələri icra etməsinə və eyni məbləğdə əmək haqqı almasına baxmayaraq onlar, faktiki olaraq, tam hüquqlu dövlət qulluqçuları hesab edilmirlər və imtiyaz hüquqlarına malik deyillər. "Boş yerlər" üçün müsabiqə elan olunduqda sözügedən şəxslər standart prosedurlardan (müsabiqə və/və ya müsahibə) keçirilər və faktiki olaraq daha üstün mövqeyə malik olurlar.

Oxşar sxem qulluqda yüksəliş üzrə də tətbiq olunur. Dövlət qulluqçuları şöbə müdirinin vəzifələrini icra edən şəxslər təyin oluna bilirlər. Nəticədə, illərlə müvafiq vəzifəni həyata keçirən şəxslər qanunvericiliklə tam şəkildə qorunmurlar və beləliklə də, həssas şəxslərə çevrilirlər. Bu isə, onların asanlıqla manipulyasiya edilməsinə imkan yaradır. Bir sıra hallarda dövlət orqanlarının yeni təyin edilən rəhbərləri 29.2-ci maddəyə uyğun olaraq özlərinə sadiq olan şəxsləri əvvəlki iş yerlərindən gətirərək yuxarı vəzifəyə təyin etmək üçün digər dövlət qulluqçusunun vəzifəsini aşağı salırlar.[120] 21.4-cü maddədə dövlət orqanında struktur və ya rəhbərlik dəyişikliyinin baş verməsinin dövlət qulluğuna xitam verilməsi üçün əsas olmadığı təsbit edilsə də, yuxarıda qeyd edilən hallar baş verir.

Mövcud faktlar Azərbaycanda dövlət qulluqçularının siyasi müdaxilələrdən qorunmadığına dəlalət edir və digər bir sıra müşahidəçilər də bu qənaətdədirlər.[121]

**Alt Bölmə 1**: Dövlət Qulluğunda müstəqillik, hesabatlılıq və Şəffaflıq
**Sual**: Dövlət qulluqçularının siyasi fəaliyyəti ilə bağlı nə dərəcədə kompleks qaydalar mövcuddur (yəni, siyasi partiyaya üzvlük, siyasi fikir azadlığı və s)?
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

Bu sahədə heç bir dəyişiklik qeydə alınmayıb.

**2009-cu ilin qeydləri**

---

[118] Ədliyyə Nazirliyi, Baş Prokurorluq, Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi
[119] Mənbə: Azərbaycan Respublikası Prezidenti yanın Dövlət qulluğu məsələləri üzrə Komissiyanın sədri cənab Bəhram Xəlilovun 23 aprel 2010-cu il tarixli məktubu
[120] Mənbə: Anonim şəxs ilə müsahibə, 23 yanvar 2010-cu il
[121] Mənbə: Göstırici 45; "Global İntegrity" təşkilatının Hesabatı 2008, http://report.globalintegrity.org/Azərbaycan/2008/scorecard/54

Dövlət qulluğu haqqında qanunun 20.1.6-cı maddəsi qulluq vəzifələrini icra etdiyi dövrdə dövlət qulluqçusunun siyasi partiyaların fəaliyyətində iştirak etməsini qadağan edir. Həmən qanunun 4.2-ci maddəsi[122] dövlət orqanlarında siyasi partiyaların filiallarının yaradılmasını qadağan edir. 4.3-cü maddəyə əsasən dövlət qulluqçuları vəzifə borclarını yerinə yetirərkən Azərbaycan Respublikası Konstitusiyasını, qanunlarını və onlara müvafiq olaraq qəbul edilmiş digər qanunvericilik aktlarını rəhbər tuturlar və siyasi partiyaların və ictimai birliklərin qərarlarının onlara dəxli yoxdur. Sözügedən qanunun 10.4-cü maddəsinə əsasən siyasi vəzifələri tutan şəxslərin hüquqi statusu başqa qanunvericilik aktları ilə müəyyən olunur və bu Qanunda başqa hal nəzərdə tutulmayıbsa, bu Qanunun qüvvəsi onlara şamil edilmir. Qanunun 31.5-ci maddəsi dövlət qulluqçularının onların siyasi baxışlarına və fikirlərinə görə attestasiyadan keçirilməsini qadağan edir. Qeyd edilən müddəalar dövlət qulluğunun siyasi fikirlərdən azad olması üçün kifayət qədər aydın və zəruri məzmuna malikdirlər.

**Alt Bölmə 1**: Dövlət Qulluğunda müstəqillik, hesabatlılıq və Şəffaflıq
**Sual**: Qeyd edilən qaydalar nə dərəcədə həyata keçirilir?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

Bu sahədə heç bir dəyişiklik qeydə alınmayıb.

**2009-cu ilin qeydləri**

Faktiki olaraq dövlət qulluqçuları hakim Yeni Azərbaycan partiyasının təşkil etdiyi tədbirlərdə iştirak etməyə sövq edilir. Bir sıra hallarda hakim və onu dəstəkləyən siyasi partiyaların filiallarının (regional bölmələrin) rəhbərləri dövlət qulluqçularıdır. Lakin, müxalif partiyaların tədbirlərində iştirak etmək və ya onlara üzv olmaq çox böyük arzuolunmayan hal hesab olunur və sonda, müvafiq əməkdaşın digər səbəbdən işdən xaric olması ilə nəticələnir. [123]

**Alt Bölmə 1**: Dövlət Qulluğunda müstəqillik, hesabatlılıq və Şəffaflıq
**Sual**: Dövlət sektorunda işçilərin şəxsi gəlir, əmlak, maddi maraqlarının bəyan edilməsi ilə bağlı hüquqi tələblər hansı səviyyədədir?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

Vətəndaş cəmiyyəti üzvlərinin və medianın dövlət rəsmilərinin iştirakı ilə keçirilən görüşlərdə və seminarlarda dəfələrlə bu sahə ilə bağlı məsələləri qaldırmasına baxmayaraq, heç bir yenilik qeydə alınmayıb.[124]

---

[122] Dövlət qulluğu haqqında qanun, 21 iyul, 2000-ci il # 926-I
[123] Mənbə: Anonim şəxs ilə müsahibə, 23 yanvar, 2010-cu il

[124] Rəna Səfərəliyevanın Azadlıq Radiousuna ,müsahibəsi, 30 July 2010; available at: http://www.azadliq.org/content/article/2114304.html.

**2009-cu ilin qeydləri**

Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanununun[125] 5-ci maddəsinə əsasən vəzifəli şəxslər gəlirlərin mənbəyi, növü və miqdarı, malik olduqları səhmlər, vergitutma obyekti olan əmlak və digər mülkiyyət barədə məlumatları müntəzəm olaraq təqdim etməlidirlər. Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının qanununun 3.1-ci maddəsinə əsasən yüksək səviyyəli vəzifəli şəxslər, o cümlədən Azərbaycan Respublikasının Prezidenti maliyyə xarakterli məlumatları Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına, daha aşağı vəzifəli şəxslər isə müvafiq maliyyə/mühasibat qurumuna təqdim etməlidirlər. Sözügedən qanuna uyğun olaraq[126] vəzifəli şəxslər vəzifələrinin icrasına başladıqları gündən 30 gün ərzində bəyannamə təqdim etməlidirlər. Azərbaycan Respublikası Nazirlər Kabinetinə müvafiq forma və qaydaların hazırlanması həvalə edilsə də, bu günə kimi heç bir sənəd hazırlanmamışdır.[127]
Maliyyə bəyannamələrinin yoxlanılması mexanizmi hələ də müəyyən edilməmişdir. Belə ki, qanunvericilik icra orqanları tərəfindən təqdim edilən əmlak bəyannaməsinin müstəqil auditini nəzərdə tutmur. Qanunun 8-ci maddəsinə əsasən Komissiya özü təqdim edilən məlumatların dürüstlüyü yoxlayır.[128]
Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının qanununun 6.5-ci maddəsi[129] üzrsüz səbəbdən bəyannaməni vaxtında təqdim etməyən vəzifəli şəxslərin inzibati məsuliyyətə cəlb olunduğunu təsbit edir. Eyni zamanda, Cinayət Məcəlləsinə əsasən məlumatları bilərəkdən saxtalaşdıran və ya gizlədən şəxslər cinayət məsuliyyətinə cəlb olunurlar.[130] Korrupsiyaya qarşı mübarizə haqında qanun, həmçinin, intizam proseduralarına da istinad edir.[131] Lakin, hansı növ intizam prosedurasının və ya cəza tədbirinin tətbiq edilməsi qanunvericilikdə aydın şəkildə göstərilməmişdir və ümumiyyətlə, hər hansı bir tədbirin tətbiq edilib-edilmədiyi qeyri-müəyyəndir. Qeyd etmək lazımdır ki, həm seçilmiş, həm də təyin edilmiş vəzifəli şəxs sənədlərin saxtalaşdırılması ilə bağlı cinayət məsuliyyətinə cəlb oluna bilər.[132]

**Alt Bölmə 1**: Dövlət Qulluğunda müstəqillik, hesabatlılıq və Şəffaflıq
**Sual**: Dövlət sektorunda işçilərin şəxsi gəlir, əmlak, maddi maraqlarının bəyan edilməsi praktikada necə tətbiq edilir?

[125] Korrupsiyaya qarşı mübarizə haqqında Qanun, 13 Yanvar 2004-cü il
[126] Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 93-II Q saylı, 7 aprel 2006-cı il tarixli qanunu
[127] Azərbaycan Respublikası Prezidentinin 278 saylı, 9 Avqust, 2005-ci il tarixli sərəncamı
[128] Mənbə: "Global Integrity" təşkilatının hesabatı 2009 http://report.globalintegrity.org/reportPDFS/2009/Azerbaijan.pdf
[129] Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqim edilməsi qaydalarının təsdiq edilməsi haqqında qanun, # 93-IIQ, 7 Aprel, 2006-cı il
[130] Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 313-cü maddəsi, # 787-IQ, 30 dekabr, 1999-cu il.
[131] Korrupsiyaya qarşı mübarizə haqqında qanunun 6-cı maddəsi, 1 yanvar 2005-ci il tarixində qüvvəyə minmişdir
[132] Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 313-cü maddəsi, # 787-IQ, 30 dekabr, 1999-cu il.

**Qiymət**: **0**

**2010-cu ilin yenilikləri**

Bu sahədə heç bir irəliləyiş  qeydə alınmayıb

**2009-cu ilin qeydləri**

Bu günə qədər vəzifəli şəxslər heç bir maliyyə bəyannaməsi təqdim etməmişdir. Çünki, artıq qeyd edildiyi kimi müvafiq icra hakimiyyəti orqanı (yəni, Nazirlər Kabineti) tərəfindən heç bir bəyannamə forması tərtib və təsdiq edilməmişdir.

**Alt Bölmə 1**: Dövlət Qulluğunda müstəqillik, hesabatlılıq və Şəffaflıq
**Sual**:  Dövlət qulluqçularını əsassız olaraq işdən çıxarılmaqdan və ya siyasi müdaxilələrdən müdafiə edən hüquqi normalar hansı səviyyədir?
**Qiymət: 1**

**2010-cu ilyenilikləri**

Bu sahədə heç bir irəliləyiş  qeydə alınmayıb

**2009-cu ilin qeydləri**

Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının qanununun 10-cu maddəsinə əsasən[133] Dövlət qulluqçusu birbaşa və ya yuxarı rəhbərinin qanuna uyğun olan və səlahiyyətləri daxilində qəbul etdiyi yazılı əmri, sərəncamı və ya verdiyi şifahi tapşırıqları yerinə yetirməyə borcludur. Qeyd edilən maddə dövlət qulluqçusunu qanunsuz əmr və tapşırıqları yerinə yetirməkdən qorunmasını qismən təmin edir. Lakin, Dövlət Qulluğu haqqında Azərbaycan Respublikası qanunun 33-cü maddəsi[134] dövlət qulluğuna xitam verilməsi üçün bir sıra hallar müəyyən edir ki, onların sırasına  vəzifələrin yerinə yetirilməməsi də daxildir. Dövlət qulluğuna xitam verilməsi üçün əsaslar 18-ci maddənin (dövlət qulluqçusunun vəzifə və öhdəlikləri) və 20-ci (dövlət qulluqçuları üçün məhdudiyyətlər) maddənin tələblərinin pozulması ola bilər.  Sözügedən iki maddə müxtəlif mənalarda yozula bilər ki, bu da hüquqi müdafiənin aşağı səviyyədə təmin edilməsi deməkdir. 20.1.6-cı maddə siyasi partiyaların fəaliyyətində iştirakı qadağan edir; lakin, yuxarıda qeyd edildiyi kimi bu hal hakim partiya ilə münasibətdə tez-tez təsadüf  edilir.

**Alt Bölmə 1**: Dövlət Qulluğunda müstəqillik, hesabatlılıq və Şəffaflıq
**Sual**: Müvafiq qaydalar təcrübədə  dövlət qulluqçusunu əsassız olaraq işdən çıxarılmaqdan qoruya bilirmi?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

[133] Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Qanun, 31 May 2007-ci il
[134] Dövlət Qulluğu haqqında Qanun, 21 İyul 2000-ci il

Dövlət rəsmilərinin işdən çıxarılması və istintaqa cəlb olunması ilə bağlı məlumatları media vasitəsi ilə almaq mümkündür. 2010-cu ildə işində yol verdikləri ciddi pozuntulara görə prokurorluq orqanlarının 5 əməkdaşı işdən azad olunub.[135] Cinayət əməllərini törətməkdə ittiham olunan 24 bələdiyyə nümayəndəsi saxlanılıb. [136]Bununla belə, məmurların siyasi səbəblərdən yoxsa həqiqətən pozuntulara yol verdikəri üçün cəzalandırıldıqlarını müəyyən etmək çətindir. Buna görə də "Şəffaflıq Azərbaycan" təşkilatı hüquqi işlərlə bağlı məlumat bazasının yaradılmasını tövsiyyə edib.[137] Bir sıra digər mənbələrə görə, aşağı vəzifəli məmurlar istisna olmaqla digər dövlət məmurları barədə aparılan istintaq işləri çox hallarda siyasi məqsədlər daşıyır. [138]

**2009-cu ilin qeydləri**

Dövlət qulluğu haqqında mövcud qanunda [139] aydın şəkildə qeyd edilmişdir ki, dövlət hakimiyyəti orqanlarının, habelə dövlət orqanları rəhbərliyinin tərkibinin dəyişməsi dövlət qulluğuna xitam verilməsi üçün əsas deyildir.[140] Lakin, bu maddə tətbiq olunan qaydalar ilə dəstəklənmir. Nə müvafiq səlahiyyətli quruma (Dövlət qulluğu məsələləri üzrə Komissiya), nə də vətəndaş cəmiyyətinə dövlət orqanlarının rəhbərliyində baş verən dəyişiklik nəticəsində işdən çıxarılma hallarını monitorinq etməyə və məlumatlar toplamağa imkan verilmir. Dövlət qulluqçularının işləri ilə bağlı inzibati araşdırmalara dair məlumat mövcud deyildir.
Bir sıra mənbələrə və ŞA İctmai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzinə əsasən, qeyd edilən maddələr praktikada çox vaxt səmərəsiz olurlar. Baxmayaraq ki, Dövlət qulluğu haqqında qanuna əsasən dövlət qulluqçusunun müvafiq orqanlarda və məhkəmədə öz qanuni hüquqlarını və mənafeyini müdafiə etmək hüququ vardır.[141] Lakin ŞA İctmai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində işdən çıxarılan əməkdaşın ictimai təşkilatların dəstəyi ilə , Müəllif Hüquqları agentliyində işdən çıxarılan şəxsin isə məhkəmənin qərarı əsasında öz müvafiq iş yerlərinə bərpa edilməsi barədə etibarlı mənbədən əldə edilmiş məlumatlar vardır.[142] Beləliklə, bu göstərici 1 xal ilə qiymətləndirilir ki, bu da qaydaların nə tam olaraq səmərəsiz, nə də tam olaraq səmərəli olduğunu göstərir. Onlar daha çox fərdi hallardan və işdən çıxarılan şəxsin öz hüquqlarını nə dərəcədə müdafiə etməsindən asıllıdır. Hüquqların məhkəmə orqanları vasitəsilə qorunması Mülki Məcəllədə əks olunmuşdur.

## Alt-Bölmə 2: İnsan resursları

[135] Prokurorluq orqanlarının 5 əməkdaşı işdən azad olunub, 5 Fevral 2011; Bax: http://www.milli.az/news/society/35736.html ,

[136] Cinayət əməllərini törətməkdə ittiham olunan 24 bələdiyyə nümayəndəsi saxlanılıb., 24 Noyabr 2010; bax www.day.az
[137] Dövlət Qulluğu Məsələləri üzrə komissiyaya 2 fevral 2011-ci il tarixdə keçirilmiş dəyirmi masanın nəticəsində göndərilmiş təkliflər
[138] Azerbaijan Country Profile; bax: http://www.business-anti-corruption.com/country-profiles/europe-central-asia/azerbaijan/initiatives/public-anti-corruption-initiatives/.
[139] , Dövlət qulluğu haqqında qanun, 21 İyul 2000-ci il
[140] Maddə 21, Dövlət qulluğu haqqında 926-I saylı 21 İyul 2000-ci il tarixli qanun
[141] Dövlət qulluğu haqqında 926-I saylı 21 iyul 2000-ci il tarixli qanun 19.0.9-cu maddəsi
[142] Mənbə: ŞA təşkilatının birbaşa təcrübəsi

**Sual:** Ölkənin iqtisadi vəziyyəti ilə müqayisədə dövlət qulluqçusunun müvafiq həyat səviyyəsinin təmin edilməsi baxımından dövlət sektorunda mövcud olan əmək haqları nə dərəcədə münasibdir?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

2010-cu il Aprelin 15-də, Beynəlxalq Valyuta Fondunun Azərbaycanda böyük enişə səbəb olacağı ilə bağlı xəbərdarlığına cavab olaraq hökumət tərəfindən dövlət qulluğunda çalışan şəxslərin əmək haqqlarının qeyri müəyyən səviyyədə artırılması ilə bağlı qərar verildi.[143] 2010-cu ilin sentyabr, oktyabr aylarında prezident İlham Əliyev büdcə təşkilatlarında çalışan şəxslərin, pensiyaların baza hissəsinin və digər bütün sosial müavinətlərin artırılmasına dair bir sıra fərmanlar imzalayıb.[144] Bununla belə hələ də dövlət qulluğunda çalışanların əmək haqqları, müqayisədə özəl sektordan və yaşayış standartlarından[145] aşağıdır. Bu hesabat hazırlanan müddətək, dövlət qulluqçularının 2010-cu il üçün orta maaşı ilə bağlı məlumat almaq mümkün olmayıb.[146]

Dövlət sektorunda çalışanlara, dövlət məmurları və müəllimlər həkimlər kimi, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda işləyənlər daxildir. Mövcud qanunvericiliyə görə, bəzi dövlət qurumları öz işçiləri üçün büdcədən kənar fondlar (digər bbir adıyla daxili inkişaf fondları ) yarada bilərlər. Bunlara misal olaraq Vergilər Nazirliyini, Daxili İşlər Nazirliyini və Gömrük Komitəsini göstərmək olar. Bu fondlar tamamilə qeyri şəffafdır  və bu hal korrupsiyaya şərait yaradır.[147]

2010-cu ildə dövlət sektorunda maaşların qalxması ilə yanaşı,  ümumi yaşayış standartları da artıb. Azərbaycan BMT-nin 2010-cu il üçün İnsan İnkişafı İndeksində[148] 169 ölkə arasında 67-ci yerdə qərarlaşıb, insan inkişafının orta səviyyəsində olan ölkələr qrupundan, insan inkişafının yüksək olduğu ölkələr qrupuna daxil olub. 2010-cu ildə insanların banklardakı depozitləti 23% artıb, özəl müklərin inkişaf göstəricisi isə 8%-i keçib.[149]

**2009-cu ilin qeydləri**

Ümumiyyətlə, dövlət sektorunda hazırda mövcud olan əmək haqqı səviyyəsi dövlət qulluqçusunun müvafiq həyat səviyyəsinin təmin edilməsi üçün kifayət deyildir. Bu səbəbdən də, orta və aşağı səviyyəli dövlət qulluqçularının özəl sektora keçməsi meyləri müşahidə olunur.[150] Bir faktı da qeyd etmək lazımdır ki, ölkə heç də yoxsul hesab olunmur. BVF-nin

---

[143] Economic crisis could trigger recession in Azerbaijan', 26 May 2010; available at: http://www.muxbir.com/2010/05/economic-crisis-could-trigger-recession-in-azerbaijan.
[144] "2010-cu ildə Azərbaycanda sosial vəziyyət" 9 Fevral 2011; bax: www.trend.az
[145] 2010-cu il 29 Noyabr, 2  Fevral 2011-ci il və 30 may 2011-ci il tarxilərində keçirilən dəyirmi masalar zamanı 12 nəfər yaxın dövlət qulluqçusu ilə söhbət
[146] "2010-cu ildə Azərbaycanda sosial vəziyyət" 9 Fevral 2011; bax: www.trend.az və Statististika Komitəsinin rəsmi məlumatı http://www.azstat.org/;
[147] Milli Büdcə qrupu tərəfindən 2010Azərbaycannın mikro iqtisadiyyat siyasətinin qiymətləndirilməsi hesabatı. 15 mart 2010-cu il, www.nbg.az.
[148] BMT İnsan İnkişafı Hesabatı İndeksi 2010, www.un-az.org.
[149] 2010-cu ildə Ölkədə Sosial İqtisadi İnkişaf, http://president.az/attachments/figures_en.pdf
[150] Mənbə: 25 yanvar 2010-cu il tarixində anonim şəxs ilə aparılan müsahibə

2009-cu il üzrə məlumatlarına[151] əsasən Azərbaycanın ÜDM-i 9,352 ABŞ dolları həcmində olan adambaşına alıcılıq qabiliyyəti paritetinə (AQP) əsaslanır. Bu göstəriciyə görə Azərbaycan təhlil aparılan 181 ölkə arasında 81-ci yerdədir. Dövlət sektoru əməkdaşlarının minimum əmək haqları hələ də aşağıdakı kimi müəyyən olunur (1 mart 2010-cu il tarixinə olan ABŞ dolları üzrə rəsmi məzənnə əsasında): inzibati vəzifələrdə çalışan işçilər üçün aylıq 175 manat (217 ABŞ dolları) və yardımçı vəzifələrdə çalışan işçilər üçün aylıq 120 manat (149 ABŞ dolları).[152] Qeyd edilən əmək haqları işə yeni qəbul edilən şəxslər üçün baza hesab olunur və iş stajından və dərəcədən aslı olaraq sonradan artırılır. Müqayisə üçün qeyd edək ki, minimum əmək haqqı 75 manat (93 ABŞ dolları), hökumət tərəfindən hesablanan minimum ehtiyac meyarı isə 77 manat (95 ABŞ dolları), civarında müəyyən edilmişdir ki, bu da müstəqil ekspertlərin fikrincə real istehlak səbətinin dəyərindən 30% aşağıdır.[153]
Qeyd etmək lazımdır ki, dövlət sektorunda əmək haqlarının səviyyəsi qeyri-bərabərdir. Bir sıra qurumlar, xüsusilə də, hüquq mühafizə orqanları, habelə, neft hasilatı və emalı müəssisələri özəl sektor ilə rəqabət apara biləcək əmək haqları verirlər. Məsələn, Ali Məhkəmənin sədrinin əmək haqqı qanunvericiliyə əsasən 1,785 manat (2,222 ABŞ doları) həcmində müəyyən edilmişdir .[154] Bəzi sektorlar (məsələn, sosial xidmətlər) isə həddindən artıq aşağı əmək haqları verirlər. Bu baxımdan, Dövlət Statistika Komitəsi tərəfindən verilən məlumata əsasən dövlət sektorunda orta aylıq əmək haqqı 429 ABŞ dolları təşkil etmişdir (10 iyun, 2009-cu il tarixinə).[155]

**Alt Bölmə 2: İnsan resursları**
**Sual:** Texniki və idarəetmə biliklərinin artırılması üçün dövlət qulluqçularının müntəzəm təlim keçməsini təmin edən hüquqi müddəalar hansı səviyyədədir?
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

Tələb olunan peşəkarlıq təlimlərinin qaydaları 2009-u ildə qəbul olunsada, 2010-cu ilin yanvarın 1-dən qüvvəyə minib.[156]

**2009-cu ilin qeydləri**

---

151 www.imf.org
152 Mənbə: Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən nəşr etdirilən "Yaddaş kitabçası", 2009, Ekspert nəşriyyat evi – 2009
153 Mənbə: Azərbaycanda minimum əmək haqqı yaşayış xərclərindən çox aşağıdır: iqtisadçı Oqtay Haqverdiyev ilə müsahibə, 19 yanvar 2010-cu il, t http://www.news.az/articles/6965, Mənbə: Azərbaycanda minimum əmək haqqı yaşayış xərclərindən çox aşağıdır: iqtisadçı Oqtay Haqverdiyev ilə müsahibə, 19 yanvar 2010-cu il, t http://www.news.az/articles/6965
154 10 iyun 1997-ci il tarixli Məhkəmə və hakimlər haqqında qanunun 106-cı maddəsinə əlavə və dəyişikliklərin edilməsi haqqında 8 may 2007-ci il tarixli qanun
155 Mənbə: APA qəzeti, http://az.apa.az/news.php?id=156681
156 Dövlət qulluqçularının əlavə peşə təhsilinin növləri, froması, şərtləri və maliyyələşmə proseduraları üzrə qaydalar, Nazirlər Kabinetinin 19 mart 2009-cu il tarixli, 44 saylı sərəncamı

Dövlət Qulluğu haqqında Qanunun 19.0.13-cü maddəsinə [157] əsasən dövlət qulluqçusu qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət vəsaiti hesabına təhsil almaq və müvafiq təlim keçmək, habelə təhsil məqsədilə məzuniyyət almaq hüququna malikdir. Bu hüquq geniş şəkildə müəyən edilmişdir. Dövlət qulluqçularının peşə təhsilinin növlərini və şərtlərini, eləcə də, əlavə təlimlər üçün maliyyələşmə prosedurlarını müəyyən edən Nazirlər Kabinetinin müvafiq fərmanında təfsilatlı məlumatlar verilmişdir. [158]Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət müəssisələrində təlim tədbirlərinin əlaqələndirilməsini həyata keçirir.[159]
Əməkdaşların təlimi ilə bağlı dövlət orqanlarının daha konkret vəzifələri bəzi sektorlar üzrə hüquqi-normativ sənədlərdə əks olunmuşdur. Məsələn, Ədliyyə Işçilərinin Etik Davranış Qaydalarının 2.9-cu maddəsi ədliyyə sistemi işçiləri üçün təlimlərin keçirilməsi ilə bağlı hüquq və öhdəlikləri müəyyən edir.[160] Lakin, qaydalar nə təlim proqramlarının məzmununu, nə də bu cür proqramların təşkili üçün məsul olan vəzifəli şəxslərin öz vəzifəsini yerinə yetirmədiyi təqdirdə müvafiq məsuliyyəti müəyyən etmir. Eyni zamanda, təlim iştirakçıları və təlimçilər üzrə monitorinq və qiymətləndirmə mexanizmi də mövcud deyildir.

**Alt Bölmə 2: İnsan resursları**
**Sual:** Təcrübədə dövlət qulluqçularının texniki və idarəetmə bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün mütəmadi olaraq təlimlər keçirilirmi?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət məmurlarının peşəkarlıqlarının artırılması istiqamətində ehtiyaclarının öyrənilməsi məqdəsilə mütəmadi sorğular keçirir. 2010-cu ildə Nazirlər Kabinetinə təlimlər üçün təkliflər göndərilib. Bu proqrama əsasən ölkədən kənarda qısa müddətli təlimlərin təşkili və yerində təlim keçməsi üçün xarici ekspertlərin ölkəyə dəvət edilməsi nəzərdə tutulur. Nümunə kimi, icra hakimiyyəti əməkdaşlarının 36 nəfərinin Litva İdarəçilik İnstitutunda, 9 nəfərin isə Hollandiya Dövlət İdaretməsi İnsitutunda təlim proqramlarına qatılmasını göstərmək olar. 2010-cu ilin 15 fevralında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya İnsan Resurslarının İdarəedilməsi mövzusunda Litvadan olan ekspertin iştirakı ilə 150 nəfər məmur üçün keçirilən təlim kursunu da bu siyahıya əlavə etmək olar. Ümumilikdə Komissiya tərəfindən keçirilən təlimlər 750 nəfərə yaxın dövlət qulluqçusunu əhatə edib.[161] Bu nailiyyətlərə baxmayaraq, idarəetmə sahəsində, xüsusilə vaxtın idarəediləmsi və yeniliklərin tətbiqi, yeni texnologiyanın idarəedilməsi bacarıqları ilə bağlı təlimlər keçirilmir.

**2009-cu ilin qeydləri**

---

[157] Dövlət Qulluğu haqqında Qanun, 21 İyul 2000-ci il
[158] Dövlət qulluqçularının əlavə peşə təhsilinin növləri, froması, şərtləri və maliyyələşmə proseduraları üzrə qaydalar, Nazirlər Kabinetinin 19 mart 2009-cu il tarixli, 44 saylı sərəncamı
[159] Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2005-ci l tarixli, 247 saylı sərəncamı
[160] Ədliyyə Işçilərinin Etik Davranış Qaydaları, 31 May 2007-ci il
[161] Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın üzvü ilə söhbət, 18 mart 2011-ci il.

Praktikada, peşə təhsili proqramlarının mövcudluğu və keyfiyyəti dövlət orqanlarından asılı olaraq çox müxtəlifdir. Əksər milli dövlət qurumları təlim mərkəzlərinə malikdirlər və işə yeni qəbul olunan əməkdaşlar (Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi, Baş Prokurorluq, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və s.), eləcə də, orta səviyyəli işçilər üçün müvafiq vəzifələr üzrə təlimlər təşkil edirlər. Eyni zamanda, bəzi dövlət qulluqçuları USAID, Aİ, AŞ, GTZ və digər beynəlxalq təşkilatların dəstəyi ilə və müvafiq dövlət orqanları arasında əldə edilən razılığa əsasən həyata keçirilən texniki yardım layihələri çərçivəsində Azərbaycanda və ölkədən kənarda orta dərəcəli vəzifələr üzrə təlimlərdə iştirak edirlər.[162] Azərbaycanın bir sıra dövlət orqanları bu sahədə müəyyən uğurlar əldə etmişdir. Buna misal olaraq, Ümumdünya Gömrük Təşkilatı tərəfindən Bakıda yaradılan ÜGT-nin regional təlim mərkəzini göstərmək olar. Əməkdaşlarının bilik və bacarıqlarının artırılması məqsədilə təlimlərin keçirilməsinə dair məlumatlar bəzi dövlət orqanlarında mövcuddur. Dövlət qulluqçuları üçün təlimləri təşkil edən əsas qurum Azərbaycan Respublikası Prezidenti yanın Dövlət İdarəçilik Akademiyasıdır. Sözügedən qurum texniki və idarəetmə bilik və bacarıqların artırılması məqsədilə təlimlərin təşkili üçün yüksək potensiala malik deyildir.[163]
Peşəkar biliklərin artırılması əsasında dövlət qulluğunda yüksəlişi əsaslandıran məlumatlar da mövcud deyildir.

**Alt Bölmə 2: İnsan resursları**
**Sual:** Dövlət sektorunda dövlət qulluqçularının etik və vicdanlı davranış qaydaları üzrə müntəzəm təlim keçməsini təmin edən maddələr hansı səviyyədə mövcuddur?
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

Dövlət Qulluğu Komissiyasının 2010-2011-ci illər üçün Fəaliyyət Planında icra hakimiyyətlərinin əsas və yerli bölmələri üçün rüblük olaraq etik və vicdanlı davranış qaydaları ilə bağlı təlimlər keçirmək nəzərdə tutulub. Komissiya görülən işlərlə bağlı illik hesabatlar tələb edir.

**2009-cu ilin qeydləri**

Etik məsələlər üzrə təlimlər Dövlət Qulluqçularının Etik Davranış Qaydaları haqqında qanunun 19.0.1-ci madəsində, sektorlar üzrə (hakimlər, prokurorluq işçiləri, polis əməkdaşları, vergi və gömrük işçiləri) davranış qaydalarında və bəzi qurumların daxili normativ sənədlərində geniş şəkildə əks olunmuşdur. Etik məsələlər və vicdanlı davranış ilə bağlı rüblük təlim proqramlarının təşkil edilməsi Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Tədbirlər Planında əks olunmuşdur.[164] Lakin, mövcud normativ sənədlər təlimlərin məzmununu və ya onlara əməl edilməməsi ilə bağlı məsuliyyəti tənzimləmir.

---

[162] Mənbə: Dövlət Gömrük Komitəsində təşkil edilən seminar və təlimlərin siyahısını aşağıdakı internet saytından əldə etmək mümkündür: http://www.az-customs.net/az/arxnews/
[163] Mənbə: Dövlət İdarəçilik Akademiyasında həyata keçirilən tədbirlərin siyahısı: http://www.dia.edu.az/xeber_en.php
[164] Dövlət qulluğu məsələləri üzrə Komissiyanın 2009-2010-cu illər üzrə Fəaliyyət Planı. Bu plan Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın tərkib hissəsidir.

**Alt Bölmə 2: İnsan resursları**
**Sual:** Təcrübədə dövlət sektorunda dövlət qulluqçuları etik məsələlər, vicdanlı davranış qaydaları üzrə müntəzəm təlim keçirlərmi?
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

Bir sıra dövlət təşkilatları, xüsusilə də Dövlət Qulluğu üzrə Komissiya tərəfindən Etik Davranış qaydaları ilə bağlı keçirilən təlimlərin sayı artıb. Komissiya ilk dəfə olaraq 2010-cu ildə etik davranış məsələləri ilə bağlı həyata keçirilmiş maarifləndirmə tədbirləri barədə məlumat dərc edib.[165] Təlim mövzularına etik davranış qaydaları, vicdanlılıq, mədəni rəftar, insan hüquqlarına hörmət, korrupsiyanın yolverilməzliyi, maraqların toqquşması, etik davranışla bağlı nəzarət qurumu və etik normaların pozulmasına görə daşınan məsuliyyət kimi sahələr aiddir. Təlimlər mərkəzi və yerli icra orqanlarının nümayəndləri üçün təşkil olunur. 2011-ci ilin əvvəllərində Komissiya etik davranış məsələləri ilə bağlı həyata keçirilmiş maarifləndirmə tədbirləri və etik davranış qaydalarına əməl edilməsi vəziyyəti barədə hesabat dərc edib. [166]

**2009-cu ilin qeydləri**

Etik Davranış Məcəlləsi (korrupsiya, hədiyyələr və maraqlar münaqişəsi bölmələri) bütün mərkəzi və icra orqanlarının, hakimlərin və prokurorların təlim proqramına daxil edilmişdir. Ümumi götürdükdə, digər dövlət orqanları ilə müqayisədə Vergilər Nazirliyində və Dövlət Gömrük Komitəsində keçirilən təlim kursları daha yüksək təşkilatçılıq və əlaqələndirmə səviyyəsinə malikdirlər.[167] Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Avropa Şurası, BMTİP və s. bu kimi beynəlxalq təşkilatların dəstəyi ilə silsilə təlim kursları təşkil etmişdir.[168] Dövlət orqanlarında mövcud olan məlumatlar təlimlərin müddəti, mövzuları və təlim iştirakçılarının səviyyəsi barədə məlumatları əhatə etmir.

**Alt bölmə 3: Dövlət Qulluğunda vicdanlı davranış**
**Sual:** Dövlət sektorunda xəbərçiləri (whistlebolower) müdafiə etmək üçün mövcud olan qayalar hansı səviyyədədir?
**Qiymət**: **0**

**2010-cu ilin yenilikləri**

Bu sahədə heç bir irəliləyiş qeydə alınmayıb.

**2009-cu ilin qeydləri**

---

[165] Dövlət Qulluğu üzrə Komissiyanın Etik Davranış qaydaları ilə bağlı məlumat www.dgmk/az.
[166]
[167] Mənbə: www.taxes.gov.az və www.customs.gov.az
[168] Azərbaycan Respublikası Prezidenti yanında Dövlət qulluğu məsələləri üzrə Komissiyanın sədri cənab Bəhram Xəlilovun 23 aprel 2010-cu il tarixli məktubu

Xəbərçilərin (whistleblower) müdafiəsi Maraqların Toqquşması haqqında qanun layihəsində nəzərdə tutulmuşdur. Sözügedən qanun layihəsinin qəbul edilməsi təxirə salınmışdır. Mövcud qanunvericilik isə müvafiq məsələ ilə birbaşa əlaqəli deyildir. Vəzifəli şəxslər ciddi və xüsusilə də, ağır cinayətlərə dair məlumatın verilməməsi üçün cinayət məsuliyyəti daşısalar da, bu kateqoriyadan olan korrupsiya cinayətlərinin sayı çox azdır və müvafiq məlumat verən şəxslərin hüquqi müdafiəsi üçün baza mövcud deyildir.[169] Başqa sözlə desək, ağır cinayətlər barədə məlumat verməyən vəzifəli şəxsləri cəza tədbirləri gözləyir. Xırda qanun pozuntuları isə ötüşdürülə bilər. Bu hal polis işçilərinə şamil olunmur. Belə ki, onlar bütün qanun pozuntuları barədə məlumat verməlidirlər. [170]Lakin, dövlət qulluqçuları bunu etsələr cinayət işi açılana və cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında qanun qüvvəyə minənə qədər hər hansı qanun onları müdafiə etməyəcəkdir.[171] Beləliklə də, hazırkı şəraitdə vəzifəli şəxslərin müvafiq addımı atması üçün heç bir motivasiya mövcud deyildir. Sıravi şəxslər məlumat verilməsi ilə bağlı heç bir öhdəliyə malik deyildir və Cinayət Məcəlləsinə uyğun olaraq müəyyən qədər müdafiə olunurlar - Rüşvət verən şəxs vəzifəli şəxs tərəfindən tətbiq edilən hədə-qorxu nəticəsində rüşvət verdikdə və ya rüşvət vermə haqqında müvafiq dövlət orqanına könüllü məlumat verdikdə cinayət məsuliyyətindən azad edilir.[172]

**Alt bölmə 3: Dövlət Qulluğunda vicdanlı davranış**
**Sual:** Təcrübədə, dövlət sektorunda xəbərçilər (whistlebolower) nə dərəcədə qorunurlar?
**Qiymət**: **0**

### 2010-cu ilin yenilikləri

Bu sahədə heç bir irəliləyiş qeydə alınmayıb.

### 2009-cu ilin qeydləri

Praktikada xəbərçilər (whistleblower) müdafiə edilmirlər və digər kənar qiymətləndiricilər də eyni fikirdədirlər.[173] Korrupsiya ilə bağlı cinayət hadisələri barədə məlumatların verilməsinə dair statistika mövcud deyildir. Əksər dövlət qurumlarında korrupsiya şübhələri barədə siqnalların alınması üçün xüsusi sistemlər yoxdur (Vergilər Nazirliyi və Təhsil Nazirliyi istisna olmaqla). Lakin, əksər hökumət qurumları qaynar xətlərə və elektron vasitələrə malikdirlər ki, əhali, o cümlədən, vəzifəli şəxslər müxtəlif qayda pozuntuları, eləcə də, korrupsiya ehtimalları barədə məlumat verə bilər. İstənilən halda, qeyd edilən alətlərin səmərəlilik dərəcəsi aşağıdır. Belə ki, anonim məlumatların araşdırılması qanunla qadağan edilir və az sayda şəxslər, və daha az sayda dövlət qulluqçusu tapıla bilər ki, korrupsiya ehtimalı barədə məlumat verərkən öz kimliyini açıqlamağa cürət etsin. Xəbərçilər (whistleblower) ilə bağlı rəsmi mexanizm sahəsində mövcud olan boşluqlar müxtəlif ictimai təşkilat, o cümlədən, ŞA təşkilatı tərəfindən

[169] Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 182-ci maddəsi, # 787-İQ, 30 dekabr, 1999-cu il
[170] Polis haqqında qanunun 13 və 15-ci maddələri, Polis haqqında qanun, # 727-İQ, 28 oktyabr, 1999-cu il
[171] cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında qanun
[172] Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 312-ci maddəsi ilə bağlı qeyd, # 787-İQ, 30 dekabr, 1999-cu il
[173] Mənbə: Korrupsiyaya qarşı mübarizə üzrə dövlət tədbirləri, at http://www.business-anti-corruption.com/country-profiles/europe-central-asia/azerbaijan/initiatives/public-anti-corruption-initiatives/

korrupsiya ilə bağlı yaradılan qaynar xətlər vasitəsilə qismən doldurulmuşdur. Lakin, qeyd etmək lazımdır ki, vətəndaş cəmiyyətinin özü də korrupsiyanın qurbanı olan şəxslərin şikayətindən savayı heç bir məlumat almır. Çünki, digər şəxsin yalnış hərəkəti barədə məlumat vermək isə milli mədəniyyətə bir qədər ziddir.

**Alt bölmə 3: Dövlət Qulluğunda vicdanlı davranış**
**Sual:** Dövlət sektoru işçiləri üçün maraqların münaqişəsi, hədiyyələr, qonaqpərvərlik, qulluqdan sonra məhdudiyyətlər və s. üzrə müfəssəl davranış qaydaları nə dərəcədə mövcuddur?
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

2010-cu ildə xeyli sayda dövlət qurumu öz etik davranış kodekslərini qəbul edib və bunu ictimiayyətə yayıb. Azərbaycan Hüquqşünaslar konfederasiyası, Korrupsiyaya qarşı Dövlət Komissiyasının dəstəyi ilə etik davranış mövzusu ilə bağlı ən geniş portal olan www.etika.az portalını təsis edib. Saytda müvafiq qanunlar, onlayn test və dövlət məmurları və vətəndaşlar üçün məlumatlar yer alıb.

**2009-cu il qeydləri**
Vətəndaş cəmiyyətinin əhəmiyyətli töhfələri əsasında hazırlanan və kənar ekspertlər tərəfindən, ümumilikdə, müfəssəl və real hesab olunan Dövlət Qulluqçularının Etik Davranış Qaydaları və Korrupsiyaya qarşı Mübarizə haqqında qanunlar mövcuddur. Bundan başqa, Dövlət Gömrük Komitəsinin, Vergilər Nazirliyinin, Daxili İşlər Nazirliyinin və Ədliyyə Nazirliyinin əməkdaşları üçün xüsusi Etik Davranış Qaydaları vardır. Ümumilikdə, qanunvericilik kifayət qədər yaxşı hazırlanmışdır və hal-hazırda, layihə formasında olan maraqların toqquşmasının qarşısının alınması haqında qanunda daha da təkmilləşdiriləcəkdir. Lakin, qonaqpərvərlik ilə bağlı sahədə müəyyən boşluqlar vardır. Daha dəqiq desək, Korrupsiyaya qarşı Mübarizə haqqında Qanunun 8-ci maddəsində "sadə qonaqpərvərlik halları"na icazə verilir. Lakin, bu zaman hədiyyələrdən fərqli olaraq pul dəyərində heç bir məhdudiyyətlər müəyyən edilməmişdir. Maraqların toqquşmasının qarşısının alınmasına gəldikdə isə, müvafiq qanunun qəbulunun ləngiməsi səbəbindən bu sahə müfəssəl şəkildə əhatə olunmamışdır. 3-cü məqsəd çərçivəsində sözügedən məsələ ətraflı müzakirə olunacaqdır.
Hüquq mühafizə orqanlarının işçiləri üçün qulluqdan sonra müəyyən məhdudiyyətlər vardır. Belə ki, dövlət qulluqçusu dövlət qulluğundan getdikdən sonra qanunvericiliklə müəyyən edilmiş müddət ərzində əvvəllər fəaliyyətinə nəzarət etdiyi idarə, müəssisə, təşkilatlara və ya onların bölmələrinə işə qəbul edilə bilməz.[174] Qeyd edilən müddət və digər məsələlər qeyri-müəyyən olaraq qalır və 2006-cı ilin ortalarında Milli Məclisdə birinci oxunuşdan keçən, lakin, hələ də qəbul edilməyən Maraqlar Toqquşmasının qarşısının Alınması haqqında Qanunda müəyyən olunmalıdır.

**Alt bölmə 3: Dövlət Qulluğunda vicdanlı davranış**

[174] Dövlət qulluqçularının etik davranış qaydaları haqqında qanunun 15.3-cü maddəsi, # 352-IIIQ, 31 May, 2007-ci il

**Sual:** Qeyd edilən davranış qaydalarına təcrübədə nə dərəcədə əməl edilir?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

Dövlət Qulluğu Məsələləri üzrə komissiya bütün dövlət qurumlarına keçirilən təlimlər və qeyri etik davranışla bağlı olan şikayətlərlə əlaqədar məlumat verməsi üçün təlimat verib.[175]Komissiya ilk dəfə olaraq ümumi hesabatını 2010-cu ildə yayıb.[176] Hesabata görə, ilk altı ay ərzində təxminən 250-yə qədər məmur cəzalandırılıb. Onlardan 30-u işdən çıxarılıb. Şəffaflıq Azərbaycan təşkilatına edilən müraciətləri nəzərə alsaq ( il ərzində təxminən 3500 müraciət) yuxarıdakı rəqəmlər mövcud situasiyanı tam olaraq əks etdirmir.

Bir sıra dövlət qurumları, pozuntularla bağlı məlumat almaq üçün qaynar xəttlər təsis ediblər. Bu kimi telefon və internet qaynar xəttlərinin fəaliyyət göstərdiyi dövlət qurumlarına misal kimi Vergilər Nazirliyini, Təhsil Nazirliyini, Mədəniyyət və Turizm Nazirliyini, Təbii Ehtiyatlar və Ekologiya Nazirliyi və Saatlı rayonu icra hakimiyyətini göstərmək olar.[177] Təssüflər olsun ki, yalnız Təhsil Nazirliyi qaynar xəttə gələn müraciətlər barədə məlumatlar yayır.

**2009-cu il qeydləri**

Dövlət təsisatlarında davranış qaydalarının icra statusunun monitorinqini aparmaq və müvafiq hesabat hazırlamaq üçün səlahiyyətli dövlət orqanına (Dövlət Qulluğu məsələləri üzrə Komissiya) və/və ya vətəndaş cəmiyyətinə səlahiyyət verən hüquqi baza mövcud deyildir. Dövlət orqanları tərəfindən hazırlanan hesabatlarda qaydaların icra səviyyəsinə dair heç bir məlumat mövcud deyildir. Müvafiq məsələ üzrə heç bir məlumat mövcud olmadığı üçün bu göstərici qiymətləndirilməmişdir.

**Alt Bölmə 4**: **Dövlət Satınalmaları**
**Sual:** Ümumi qayda kimi açıq rəqabətli tenderin keçirilməsini tələb edən dövlət satınalmaları üzrə qanun hansı səviyyədə mövcuddur? (qanunla müəyyən edilən məhdudiyyətlər istisna olmaqla)
**Qiymət**: **2**

**2010-cu ilin yenilikləri**

Dövlət satınalmları haqqında qaydalar, yeni təşəbbüslər sayəsində genişləndirilə bilər. Satınalmalar üzrə Dövlət Agentliyi veb səhifəsi vasitəsilə Azərbaycan biznesini xaricdə satınalmalar prosesinə qoşulmaq üçün həvəsləndirir, bunun üçün yollar təklif edir.[178] Eyni

[175] Dövlət Qulluğu Məsələləri üzrə komissiya tərəfindən dövlət qurumlarına göndərilən iki məktub. 27 yanvar 2010-cu il
[176] Dövlət Qulluğu üzrə Komissiyanın Etik Davranış qaydaları ilə bağlı məlumat www.dgmk/az
[177] Dövlət Qulluğu üzrə Komissiyanın Etik Davranış qaydaları ilə bağlı məlumat www.dgmk/az
[178] Azerbaijan began to stimulate participation of Azerbaijan business in tenders abroad', 3 August 2010; available at: http://banki.az/showekonews.php?id=3303&lang=ru

zamanda dövlət idarələrində satınalmalarla bağlı standart sənədlər və təlimatlar USAİD ekspertlərinin köməkliyi ilə hazırlanıb.[179]

**2009-cu ilin qeydləri**

Dövlət Satınalmaları haqqında Azərbaycan Respublikasının qanunu ehtimal edilən qiymətlərin həcmindən asılı olaraq bir neçə satınalma metodları müəyyən edir. [180]Belə ki, ehtimal edilən qiyməti 50,000 manatdan (62,000 ABŞ dolları) artıq olan malların (işlərin və xidmətlərin) alışı üçün açıq tender prosedurası tələb olunduğu halda, ehtimal edilən dəyəri 2,000 (2489 ABŞ dolları) manatdan 50,000 manatadək (62,000 ABŞ dolları) olan malların (işlərin və xidmətlərin) alışı üçün kotirovka sorğu elan oluna bilər. Qanun iki mərhələli tender prosesi, məhdud iştiraklı və bir mənbədən satınalma metodu üçün meyar və metodologiya müəyyən edir. [181]Tenderlərə dair məlumatları www.tender.gov.az internet saytından və əsas qəzetlərdən əldə etmək mümkündür. Sözügedən qanunun 19-cu maddəsi məhdud iştiraklı və qapalı tenderlərin keçirilməsi hallarını müəyyən edir və bu hallar məqsədəuyğun görünür. Lakin, bir mənbədən satınalma metodu təfsilatlı icra qaydaları ilə dəstəklənmir ki, bu da dövlət satınalmaları prosesində qeyri-şəffaf halların baş verməsinə rəvac verə bilər.[182]

**Alt Bölmə 4: Dövlət Satınalmaları**
**Sual:** Praktikada açıq tender dövlət müqavilələri üçün nə dərəcə ümumi qayda hesab olunur (qanunla tənzimlənən və məhdudlaşdırılan hallar istisna olmaqla)?
**Qiymət**: **1**

**2010-cu il yenilikləri**

Satınalma sahəsi ən ciddi narahatlıqların olduğu sahələrdən biri kimi qalmaqdadır. 2010-2011-ci illər üzrə Dünya İqtisadi forumu qlobal Rəqbət Hesabatında rəyi nəzərə alınan şirkətlər Azərbaycan hökumət rəsmilərinin müqavilələr bağlanarkən daha çox yaxşı əlaqələri olan kompaniyalar vəya şəxslərə üstünlük verildiyini qeyd ediblər. [183] Buna cavab olaraq, Satınalmalar üzrə dövlət agentliyi qalib elan olunmuş müqavilələri, uğurlu namizədlər və müqavilə qiymətləri barədə internet səhifəsində məlumat yerləşdirir.[184]

**2009-cu il qeydləri**

Təcrübədə, dövlət müqavilələri üçün tender prosesi açıqdır və onlara dair məlumatlara çıxış imkanı mövcuddur. Satınalmalar üzrə Dövlət Agentliyinin hesabatına əsasən satınalmaların əksər hissəsi (təqribən 94%) açıq tender metodu vasitəsilə həyata keçirilir.[185] Agentliyin 2008-

[179] Satınalmalar üzrə Dövlət Agentliyinin 2010-cu il üçün İllik hesabatı www.tender.gov.az
[180] Dövlət satınalmaları haqqında qanun, # 245-IIQ, 27 Dekabr, 2001
[181] Burada yalnız bir mənbə iştirak edə bilər
[182] Dövlət satınalmaları haqqında qanunun 21-ci maddəsi, # 245-IIQ, 27 Dekabr, 2001-ci il
[183] Hesabatla www.weforum.org ünvanında tanış olmaq olar
[184] Satınalmalar üzrə Dövlət Agentliyi ilə yazışma, 31 mart 2011
[185] Mənbə: Azərbaycan Respublikasının dövlət orqan və təşkilatlarında dövlət satınalmalarına dair 2008-ci l üzrə hesabat, http://tender.gov.az/hesabatlar/Hesabat2008.html

ci il üzrə məlumatlarına uyğun olaraq ümumilikdə 2,5 milyon manatlıq (3,1 milyon ABŞ dolları) malların (işlərin və xidmətlərin) satın alınması üçün 8839 tender keçirilmişdir[186]. Lakin, mövcud qanunvericiliyə əsasən[187] yerli sub-podratçıların iştirakı ilə və dəyəri 10 milyon manata qədər olan malların (işlərin və xidmətlərin) satın alınması üçün keçirilən tenderlər mətbuat orqanında dərc edilməyə bilər ki, bu da əlavə narahatlıq doğuran məslədir. Beləliklə də, əksər tender qalibləri, eləcə də, layihələrin ümumi sayı haqqında məlumat mövcud deyildir. Bəzi mənbələr, hətta iddia edirlər ki, müqavilələrin əksəriyyəti üzrə tenderlər keçirilmir və malgöndərən (podratçı) təşkilatlar sirli qərarlar əsasında" müəyyən edilir.[188]

**Alt Bölmə 4: Dövlət Satınalmaları**
**Sual:** Malgöndərən (podratçı) təşkilatın seçilməsi prosesində şəffaflığın təmin edilməsi üçün hansı səviyyədə rəsmi təfsilatlı qaydalar (qiymətləndirmə meyarları, qiymət siyahısından istifadə, sertifikatlaşdırılmış keyfiyyət standartları, komitələr tərəfindən müəyyən edilən mükafatlar və s.) mövcuddur?
**Qiymət**: **1**

**2010-cu il yenilikləri**

Satınalmalar üzrə Dövlət Agentliyi İqtisadi Sosial İslahatlar mərkəzinin tövsiyyələri əsasında yeni qeydiyyat sistemindən istifadə etməyə başlayıb. Yeni sistemə görə şirkətlər Satınalmalar üzrə Dövlət Agentliyinin internet səhifəsində qeydiyyatdan keçməklə, tenderlərdə onlayn qaydada iştirak edə bilirlər. Yeni sistem eyni zamanda qeydiyyatdan keçmiş şirkətlərə prosesi monitorinq eləməyə də imkan verir.[189]

**2009-cu il qeydləri**

Qanunun 36-cı maddəsi tender təkliflərinə baxılması, onların qiymətləndirilməsi və müqayisəsi qaydalarını müəyyən edir.[190] Qeyd edilən maddənin həyata keçirilməsi məqsədilə Satınalmalar üzrə Dövlət Agentliyi tender təkliflərinə baxılması, onların qiymətləndirilməsi və müqayisəsi üçün Metodoloji Alət qəbul etmişdir. Lakin, malgöndərən (podratçı) təşkilatın seçilməsi prosesində obyektivliyin təmin edilməsi üçün rəsmi təfsilatı qaydalar hələ qəbul edilməmişdir. Azərbaycanda keyfiyyətin qiymətləndirilməsi sistemi hazırlıq mərhələsindədir (Aİ Tvinninq, GTZ və s. təşkilatların texniki yardım layihələri çərçivəsində texniki tənzimləmə və sertifikatlaşdırma sahəsində milli qanunvericiliyin və institusional çərçivənin hazırlanması istiqamətində yardım göstərilir).

**Alt Bölmə 4: Dövlət Satınalmaları**

[186] Mənbə: Azərbaycan Respublikasının dövlət orqan və təşkilatlarında dövlət satınalmalarına dair 2008-ci l üzrə hesabat, http://tender.gov.az/hesabatlar/Hesabat2008.html
[187] Maliyyə Nazirliyinin 22 iyul 2002-ci il tarixli 124 saylı sərəncamı
[188] Mənbə: Global Integrity təşkilatının hesabatı 2009, http://report.globalintegrity.org/Azerbaijan/2009/scorecard/62/51j
[189] İqtisadi Sosial İslahatlar mərkəzinin press relizi 27 Avqust 2010; http://www.cesd.az/index1.htm
[190] Dövlət satınalmaları haqqında qanun, # 245-IIQ, 27 dekabr, 2001-ci il

**Sual:** Qeyd edilən qaydalara təcrübədə nə dərəcədə əməl olunur?
**Qiymət**: **1**

**2010-cu il yenilikləri**

Müqavilələr bağlanarkən saxtakarlığa yol verilməsi ilə bağlı konkret sübutlar mövcud deyil. Bununla belə, problemin mövcudluğu da şübhə doğurmur. 2010-cu ilin yazında Azərbaycanın bir çox regionu sel fəlakətindən əziyyət çəkdi. Sel 111.000 hektar torpaq sahəsinə və 30000-nə qədər kənd evinə ziyan vurdu. Vətəndaş cəmiyyətinin təşəbbüsü ilə selin vurduğu zərərlərin təyin edilməsi məqsədilə qrup yaradılıb. 23 İyul 2010-cu ildə dərc edilən hesabatda qeyd olunur ki, selin baş verməsi təbii kataklizmnən daha çox düzgün idarəetmənin olmaması ilə bağlıdır. Son beş ildə dövlət büdəcəsindən, xaricdən götürülən kredirlərdə daxil olmaqla 1 milyard manatdan çox pul ayrılmasına və ayrılan vəsaitin çoxunun xərclənməsinə baxmayaraq Kür çayının deltası məqsədəmüvafiq şəkildə təmizlənməyib.[191]

**2009-cu il qeydləri**

Qeyd edilən qaydalara praktikada nə dərəcədə əməl olunduğunu söyləmək çətin olsa da, şirkətlər, tender iştirakçıları arasında keçirilən sorğu və müstəqil jurnalist araşdırmaları əsasında müəyyən fikir yürütmək mümkündür. "Bəzi hallarda tenderin qalibləri barədə məlumat açıqlanmır. Eyni zamanda, xidmət təminatçılarının tenderdə iştirakını əngəlləyən dolayı maneələr mövcuddur. Xüsusilə, bəzi hallarda tenderdə iştirak üçün haqlar müvafiq şirkətə geri ödənilmir ki, bu da tender iştirakçılarının sayının məhdud olması ilə nəticələnir."[192]
Satınalmalar sahəsində aşağıdakı problemlər mövcuddur:
- Biznes sahibləri dövlət vəsaitlərinin korrupsiya əsasında şirkətlərə, fərdi şəxslər və ya qruplara paylanması fikrini 7 ballıq sistemlə 3,8 bal ilə qiymətləndirmişlər (1 – adi hal, 7- heç vaxt baş vermir).
- Biznes sahibləri siyasətlər və müqavilələrə dair qərar qəbul edən zaman hökumətin rəsmi şəxslərinin əlaqəli şirkətlərə və şəxslərə tərəfkeşlik etdiyini 7 ballıq sistemlə 3,6 bal ilə qiymətləndirmişlər (1 – tərəfkeşlik hər zaman müşahidə olunur, 7 tərəfkeşlik müşahidə olunmur).[193]

Eyni zamanda, sorğuda iştirak edən şirkətlərin 37,6%-i dövlət müqaviləsinin alınması üçün müqavilənin dəyərinin 1,1%-i həcmində hədiyyə verilməli olduğunu qeyd etmişdir. [194]
Eyni zamanda, mövcud qanunvericilik aidiyyatı dövlət qurumlarının səlahiyyətli nümayəndələrindən ibarət tender komitələrinin yaradılmasını də nəzərdə tutur. Beləliklə, qərar qəbul edən şəxslər hər zaman eyni məhdud sayda şəxslər arasından seçilir. Komitənin təkrarlanan üzvlərinin "tərəfkeşlik" etməsinin qarşısını alan mexanizm yoxdur. Müstəqil, orta yerli sahibkarlar əvvəlcədən qeyri-rəsmi əlaqələr yaratmadan tenderdə iştirak etməyə belə cəhd

[191] Azadlıq radiosu, "Sel yalnış idarəetmənin nəticəsidir" 27 Avqust 2010; http://www.radioazadlyg.org/content/article/2179812.html.
[192] Mənbə: "Azadlıq" qəzetinin müxbiri F.Süleymanoğlu tərəfindən jurnalist araşdırması, mənbə: http://sei.az/news-656.html )
[193] Mənbə: Dünya İqtisadi Forumu: Qlobal Rəqabət qabiliyyəti Hesabatı 2009-2010, (http://www.weforum.org/en/)
[194] Mənbə: Dünya Banı və BMK: Müəssisələrin sorğusu 2009, (http://www.enterprisesurveys.org/)

etmirlər.[195] Həmçinin, monitorinq prosedurаlarının hazırlanmasına və təşviq edilməsinə ehtiyac vardır.

**Alt Bölmə 4: Dövlət Satınalmaları**
**Sual:** Mövcud qanunvericilik satınalmalara dair qərarların yenidən baxılmasını və onlara qarşı şikayət edilməsini nə dərəcədə təmin edir?
**Qiymət**: **1**

**2010- cu yenilikləri**

Satınalmalar üzrə dövlət Agentliyi yeni müraciət müxanizmlərinin də daxil olduğu Dövlət Satınalmaları Haqqında qanun layihəsi hazırlayıb. Qanun layihəsinə görə satınalama tərəfləri Satınlamalar üzrə dövlət agentliyinin çıxardığı qərarlara riayyət etməlidirlər.

**2009-cu il qeydləri**

Dövlət satınalmaları haqqında qanunun 24-cü maddəsi[196] malgöndərən (podratçı) təşkilata tender komissiyasının qərarından şikayət etmək hüququ verir. Lakin, üçüncü tərəf tender komissiyasının qərarına yenidən baxılmasını tələb etmək və ya ondan şikayət etmək hüququna malik deyildir. Yoxlama komissiyası Satınalmalar üzrə Dövlət Agentliyi tərəfindən təyin edildiyi üçün onun müstəqilliyi sual altındadır. Bu maraqlar münaqişəsinin yaranması ilə nəticələnir. Eyni zamanda, sözügedən qanunun 8-ci bölməsində əks olunan baxılma prosedurаları və mövcud cəza mexanizmləri həm tender iştirakçısı, həm də təchizatçı üçün liberal hesab olunur.

**Alt Bölmə 4: Dövlət Satınalmaları**
**Sual:** Qeyd edilən yoxlama mexanizmləri praktikada nə dərəcədə səmərəlidir?
**Qiymət**: **1**

**2010-cu ilin yenilikləri**

2010-cu il üzrə satınalma sahəsindən olan şikayətlərin dəqiq statistikasını rəsmi qaynaqlardan əldə etmək mümkün deyil. Satınalmalar üzrə Dövlət Agentliyindən bildirilib ki, tender iştirakçılarından 28-i dövlət satınalamalarının həyata keçirilməsindən və təşkilatçılıq barədə şikayət ediblər. Şikayətlərə Dövlət Satınalmaları Haqqında qanunun VIII fəsli əsasında baxılıb, müvafiq tövsiyyələr verilib, lazımı metodik köməklik göstərilib.[197] Amma bu onu deməyə əsas vermir ki, effektiv monitorinq sistemi mövcuddur.

**2009-cu il qeydləri**

---

195 Mənbə: Anonim şəxs ilə müsahibə, 16 fevral 2010-cu il
196 Dövlət satınalmaları haqqında qanun, # 245-IIQ, 27 dekabr 2001-ci il
197 Satınalmalar üzrə Dövlət Agentliyi ilə yazışma, 31 mart 2011

Satınalmalar üzrə Dövlət Agentliyi 2009-cu il üçün şikayətlərin baxılmasına dair statistik məlumatlar açıqlamamışdır. Mövcud hesabat yalnız 2008-ci ili əhatə edir ki, o da şikayətlərin məzmununa dair geniş məlumat vermir. Qeyd edilən hesabata əsasən qəbul edilən şikayətlərin əksəriyyəti tender proseslərinin təşkilinə və keçirilməsinə dair olmuşdur. Aparılan yoxlamalar nəticəsində, yoxlama komissiyası müvafiq tövsiyələr vermiş, eləcə də, qərəzsizliyin təmin edilməsi və çatışmazlıqların aradan qaldırılması üçün metodiki yardım göstərmişdir.[198] Satınalmalar üzrə Dövlət Agentliyinin vəzifəli şəxsinin sözlərinə əsasən "… müraciətlərin yoxlanılmasının 3 pilləsi vardır. İlkin pillədə müraciət tender təşkilatçısı tərəfindən yoxlanılır. Əgər qəbul edilən qərar şikayətçini qane etməzsə, Satınalmalar üzrə Dövlət Agentliyi ikinci mərhələdə məsləyə müdaxilə edir; əgər, şikayətçi bu dəfə də çıxarılan qərar ilə razılaşmazsa, o zaman, məhkəməyə müraciət edə bilər. Daxil olan şikayətlərin əksəriyyəti birinci mərhələdə həll edilmişdir."[199] ŞA təşkilatının malik olduğu məlumata əsasən,[200] Satınalmalar üzrə Dövlət Agentliyinə 2009-cu ilin birinci yarısında 16 şikayət ərizəsi daxil olmuşdur. Agentlik şikayətlərə baxdıqdan və müvafiq monitorinqlər keçirdikdən sonra 30-dan artıq tender prosedurasını ləğv etmişdir.

**Alt Bölmə 4: Dövlət Satınalmaları**
**Sual:** Dövlət satınalmalarını monitorinq etmək, eləcə də, yanlış hərəkətləri aşkar etmək və müvafiq olaraq sanksiyalar tətbiq etmək üçün qüvvədə olan sistem hansı səviyyədədir?
**Qiymət**: **1**

**2010-cu il yenilikləri**

Dövlət Satınalmaları Haqqında qanuna edilmiş dəyişikliklərə görə, bütün tender elanları Satınalmalar üzrə dövlət Agentliyinin internet səhifəsində yerləşdirilməlidir.[201] Satınalmalar üzrə Dövlət Agentliyi tərəfindən elan edilən tenderlərin sayı əhəmiyyətli dərəcədə artıb və sistem daha da şəffaflaşıb. Bununla belə korrupsiyaya yol aça biləcək imkanlar da qalmaqdadır.[202]

**2009-cu il qeydləri**

Qanuna əsasən dövlət satınalmaları prosesinin monitorinqini Satınalmalar üzrə Dövlət Agentliyi həyata keçirir; lakin, tələblərin həyata keçirilməsi baxımından problemlər mövcuddur. Problemin bir hissəsi monitorinq ilə bağlı müfəssəl normativ bazanın olmamasıdır. Beləliklə, müvafiq sistem qismən mövcuddur. Satınalmalar üzrə Dövlət Agentliyinin vəzifəli şəxsinin sözlərinə əsasən "….. satınalmalar müqaviləsi üzərində monitorinqin həyata keçirilməsi ilə bağlı müvafiq qaydalar (təlimat) Agentlik tərəfindən hazırlanaraq Ədliyyə

[198] Mənbə: 2008-ci il üzrə hesabat, Satınalmalar üzrə Dövlət Agentliyinin rəsmi internet saytı; http://tender.gov.az/hesabatlar/Hesabat2008.html
[199] Mənbə: Satınalmalar üzrə Dövlət Agentliyinin Təlimlər və xarici əlaqələr şöbəsinin müdiri Zahid Vəliyevin ANS Pressə müsahibəsi http://anspress.com/index.php?a=2&lng=az&nid=21741
[200] Mənbə: Azərbaycanda fəaliyyət göstərən QHT-lər ilə İƏİT təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üzrə korrupsiyaya qarşı mübarizə şəbəkəsinin Azərbaycan üzrə ikinci monitorinq hesabatı hazırlayan qrupu arasınad görüş ilə bağlı Tİ Az təşkilatına verilən məlumatalr, 10 dekabr, 2009-cu il
[201] Dövlət Satınalmaları Haqqında qanun, 27 dekabr 2001-ci ildə edilmiş dəyişikliklərlə Maddə, 4.1.7
[202] Sabit Bağırovun Reqnum Agentliyinə müsahibəsi 5 Aprel 2011-ci il, www.regnum.ru.

Nazirliyinə təqdim edilmişdir. Sözügedən nəzarət Dövlət Satınalmaları haqqında qanun və Agentliyin əmr və sərəncamları əsasında təmin edilir. Qeyd edilən qaydalar qəbul olunduqdan sonra nəzarət daha səmərəli şəkildə həyata keçiriləcəkdir."[203]

Lakin, qanun vətəndaş cəmiyyətinin dövlət satınalmaları üzrə monitorinq həyata keçirməsini nəzərdə tutmur. Müstəqil hüquqşünas, cənab Ələsgər Məmmədlinin sözlərinə əsasən "… Dövlət Satınalmaları haqqında qanun dövlət vəsaitlərindən səmərəli şəkildə istifadə edilməsi prinsiplərini təşviq edir. Səmərəlilik şəffaflıq vasitəsilə əldə oluna bilər. Sözügedən proseslər üzrə ümumi ictimai məlumatlılıq səviyyəsi aşağıdır. Bu qanunla tələb olunmur və bunla da, ciddi problem yaradır".[204]

Hal-hazırda, Şəffaflığın Artırılması və Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Strategiyanın tələblərinə uyğun olaraq Satınalmalar üzrə Dövlət Agentliyi tender qaydalarını pozan şirkətlərin qara siyahısını hazırlayır. [205]

**Alt Bölmə 4: Dövlət Satınalmaları**
**Sual:** Qeyd edilən monitorinq sistemi praktikada nə dərəcədə səmərəli fəaliyyət göstərir?
**Qiymət**: **0**

**2010-cu il yenilikləri**

Bu sahədə heç bir yenilik qeydə alınmayıb.

**2009-cu ilin qeydləri**

Qanunun 4.1.2-ci maddəsi Satınalmalar üzrə Dövlət Agentliyinə satınalma müqavilələrinin icrası üzrə monitorinq həyata keçirmək hüququ verir.[206] Lakin, müqavilələrin icrası üzrə nəzarətin həyata keçirilməsi üçün təfsilatlı qaydalar hələ hazırlanmamışdır. Beləliklə, monitorinq sisteminin səmərəliliyini və hüquqi çərçivəsini qiymətləndirmək qeyri-mümkündür.

---

[203] Mənbə: Satınalmalar üzrə Dövlət Agentliyinin Təlimlər və xarici əlaqələr şöbəsinin müdiri Zahid Əliyevin ANS Pressə müsahibəsi, http://anspress.com/index.php?a=2&lng=az&nid=21741

[204] Mənbə: "Ekspress" qəzetinin müxbiri A.Fərhadova tərəfindən təhsil sektorunda tenderlərə dair jurnalist araşdırması, http://sei.az/news-656.html

[205] Mənbə: Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə ilə bağlı 2007-2001-ci illər üzrə Milli Strategiya çərçivəsində 2008-ci ildə görülən işlərə dair Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Komissiyasının hesabatı http://www.commission-anticorruption.gov.az/upload/file/annual%20NAP%20report%202008.pdf və Strategiyanı aşağıdakı saytda əldə etmək mümkündür: www.commission-anticorruption.gov.az

[206] Dövlət satınalmaları haqqında qanun, # 245-IIQ, 27 dekabr, 2001-ci il

**Bölmə 3: GRECO tövsiyyələrinin həyata keçirilməsi**

| | **2009 –cu ilin qiymətləndirməsi** | **2010-cu ilin qiymətləndirməsi** |
|---|---|---|
| **Ümumi qiymət** | 23/36 (64%) | 24/36 (67%) |

| **Alt Bölmə** | **2009 –cu ilin qiymətləndirməsi** | **2010-cu ilin qiymətləndirməsi** |
|---|---|---|
| **Korrupsiya üzrə tədqiqat** | 2/2 (100%) | 2/2(100%) |
| **Dövlət sektorunda insan resurslarının idarə edilməsi** | 8/8 (100%) | 8/8(100%) |
| **Əmlakın tutulması** | 2/6 (33%) | 2/6 (33%) |
| **Pulların yuyulmasına qarşı mübarizə sistemi** | 2/2(100%) | 2/2 (100%) |
| **İnformasiya əldə etmək imkanı** | 0/2 (0%) | 1/2 (50%) |
| **Dövlət sektoru** | 8/14 (57%) | 8/14 (57%) |
| **Rüşvətxorluğa qarşı mübarizə üzrə qanunvericilik/ Maraqarın Toqquşması** | 1/2 (50%) | 1/2 (50%) |

**Alt Bölmə 1: Korrupsiya üzrə tədqiqat**
**Sual:** Azərbaycanda korrupsiyanın miqyası, səbəbləri, xüsusiyyətləri və onun təsirinə daha çox məruz qalan sektorlar üzrə aydın təsəvvürə malik olmaq üçün müfəssəl tədqiqatın aparılmasını nəzərdə tutan GRECO tövsiyələri həyata keçirilirmi?
**Qiymət: 2**

**2010-cu ilin yenilikləri**

2009-cu ilin sonunda, Korrupsiyaya Qarşı Dövlət Komissiyasının dəstəyi ilə Qeyri Hökumət təşkilatlarının məlumat və əməkdaşlıq şəbəkəsi tərəfindən keçirilən tədqiqatın nəticləri dərc edilib.[207] Bu tədqiqatın nəticəsi olaraq atılan addımlar barədə məlumat yoxdur.

Prokurorluq Yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi ilə birgə həyata keçirilən Tvininq layihəsi, dövlətə inamın qiymətləndirilməsi üçün tədqiqatın aparılmasını lazımı sayır. Amma

[207] Bax: www.anticornet.az

sözügedən tədqiqat hələ də aparılmayıb. Hüquq Pozmaları ilə əlaqədar məlumat bazası tərtib edilib. Analitik hesabatlar mətbuat vasitəsi ilə ictimaiyyətə çatdırılır.[208]

**2009-cu ilin qeydləri**

Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Komissiyasının göstərişinə əsasən Korrupsiyaya qarşı mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi 2007-ci ilin sonunda müvafiq sorğu həyata keçirmişdir. Sorğunun nəticələri Komissiyanın iclaslarında nəzərdən keçirilsə də[209], əsas nəticələrin qısa təqdimatı istisna olmaqla onlar ictimaiyyətə tam olaraq açıqlanmamışdır. 2009-cu ilin sonunda həyata keçirilən ikinci sorğu hazırkı hesabat hazırlanan zaman tamamlanma mərhələsində idi[210]. Eyni zamanda, Korrupsiyaya qarşı Mübarizə üzrə Dövlət Komissiyası özünün internet səhifəsi vasitəsilə korrupsiyaya qarşı mübarizə üzrə əsas tədbirlərin qiymətləndirməsini həyata keçirməklə mütəmadi sorğular aparır.[211] Sorğunun nəticələri əsasında Komissiya tərəfindən hər hansı tədbirlərin həyata keçirilməsi və ya planlaşdırılması məlum deyildir.

**Alt Bölmə 2: Dövlət sektorunda insan resurslarının idarə edilməsi (korrupsiya hallarının aşkar edilməsi və cinayətə cəlb etmə)**
**Sual:** Korrupsiya hallarının aşkarlanması, istintaqı və ittihamı proseslərinə cəlb edilən bütün qurumlar (yəni, polis, prokurorluq və vergi orqanları) arasında kommunikasiya, qarşılıq əlaqə və əməkdaşlıq təcrübəsinin təkmilləşdirilməsi ilə bağlı GRECO tövsiyələri həyata keçirilirmi?
**Qiymət**: **2**

**2010-cu il yenilikləri**

Prokurorluq İdarəsi hüquq mühafizə orqanlarının daxili təhlükəsizlik və istintaq şöbələrinin potensealının artırılması məqsədilə seminarlar həyata keçirib. Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafəsi Nazirliyi, Sosial Müdafiə fondu, Dövlət Qulluğu Məsələləri üzrə komissiya, Metrologiya və Standartlaşdırma Komitəsində də analoji seminarlar keçirilib. Təlimlərin məqsədi korrupsiya araşdırma bölmələrinin yaradılması olub. Korrupsiyaya Qarşı Mübarizə İdarəsi eyni zamanda yuxarıdakı təşkilatlara daxli qaydaların hazırlanamasında da köməklik göstərib.[212]

**2009-cu ilin qeydləri**

Bu tövsiyə həyata keçirilmişdir. Dövlət və bələdiyyə mülkiyyəti və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə bağlı qanun pozuntularına qarşı mübarizə üzrə koordinasiya və əməkdaşlıq mexanizmlərini müəyyən edən Azərbaycan Respublikası Prezidentinin müvafiq

[208] Prokurorluq orqanı işçisi ilə söhbət, 4 fevral 2011-ci il
[209] Mənbə: Korrupsiyaya qarşımübarzə üzrə QHT şəbəkəsinin məlumat və əməkdaşlı məslələri üzrə aəqləndiriciis Əliməmməd Nuriyev ilə müsahibə,, 8 fevral 2010-cu il.
[210] Ibidem
[211] Mənbə: http://www.commission-anticorruption.gov.az/view.php?lang=en&menu=0.
[212] Prokurorluq orqanı işçisi ilə söhbət, 4 fevral 2011-ci il

sərəncamına uyğun olaraq, daxili qaydalara əlavə və dəyişiklik edilmişdir.[213] Sözügedən əlavə və dəyişikliklərə əsasən aidiyyatı qurumlar arasında kommunikasiya və qarşılıqlı əlaqələrin təkmilləşdirilməsi məqsədilə məhkəmə qərarlarının digər dövlət orqanlarının istintaq bölmələrinə ötürülməsi barədə baş prokurorluğa müvafiq səlahiyyət verilir. Əməkdaşlığın təkmilləşdirilməsi digər bir yenilik vasitəsilə həyata keçirilir: müstəntiq cinayət işini müzakirəsində, prokuror isə dövlət adından məhkəmədə iştirak edir.[214] Birgə istintaq qrupunun yaradılması təcrübəsndən praktikada geniş şəkildə istifadə olunur. Bir qayda olaraq, bütün istintaq qruplarına Baş Prokurorluğun prokurorları / müstəntiqləri başçılıq edir.[215]

**Alt Bölmə 2: Dövlət sektorunda insan resurslarının idarə edilməsi (Polis, prokurorluq, vergi orqanları)**
**Sual:** Ağır iqtisadi cinayətlər, o cümlədən korrupsiya halları üzrə qabaqcıl təcrübələrin mübadiləsini aparmaq və polis, prokurorluq və vergi orqanlarının əməkdaşlarının müvafiq istintaqın aparılması üzrə birgə təliminə dair plan hazırlamaq məqsədilə müxtəlif təlim mərkəzlərinin nümayəndələrindən ibarət işçi qrupunun yaradılmasına dair GRECO tövsiyəsi həyata keçirilirmi?
**Qiymət**: **2**

**2010-cu il üzrə yeniliklər**

Təlim proqramları, daha əvvəl hazırlanmış təlim modellərindən istifadə edilərək davam etdirilir. Amma korrupsiya əlaqəli cinayət işlərinin araşdırılmasının ayrıca olaraq Prokurorluq orqanının xüsusi orqanına həvalə edilməsi, aparılan təlimlərin əhəmiyyətini azaldır.

**2009-cu il qeydləri**

Baş Prokurorluğun Korrupsiyaya qarşı Mübarizə şöbəsinin analitik informasiya sektorunun müdiri təlim mərkəzlərinin, o cümlədən, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin, Vergilər Nazirliyinin və Milli Təhlükəsizlik Nazirliyinin nümayəndələrindən ibarət yenicə yaranan xüsusi təyinatlı işçi qrupuna rəhbərlik edir.[216] Sözügedən xüsusi təyinatlı qrup yuxarıda adları çəkilən qurumların təlim proqramlarına daxil edilən korrupsiyaya qarşı mübarizə üzrə təlim modulları hazırlamışdır. Təlim mövzularının bəzisi yeni benefisarlar qrupu və ya təkmilləşdirilmiş səviyyələr üçün təkrar tətbiq oluna bilər.

**Alt Bölmə 2: Dövlət sektorunda insan resurslarının idarə edilməsi (Maliyyə cinayətləri)**
**Sual:** Maliyyə xarakterli cinayətlərin, xüsusilə, korrupsiya halları ilə bağlı təhqiqatların aparılması istiqamətində (maliyyə xarakterli cinayətlər və onların mümkün cinayət

[213] 22 iyun 2009 il tarxli dövlət idarəçiliyi bələdiyyə mülkiyyəti sahələrində korrupsiya ilə bağlı hüquqpozmalar qarşı mübarizənin gücləndirilməsi haqqında Azərbaycan Respublikasınıpn sərəncamı **və** Baş Prokurorun daxili qərarı
[214] Həmçinin də Baş Prokurorun daxili qərarı ilə dəstəklənir
[215] Mənbə: 18 fevral 2010 tarixində anonim mənbə ilə müsahibə
[216] Baş Prokurorun daxili qərarı

məsuliyyəti) fəaliyyət göstərən aidiyyatı orqanlar üçün ixtisaslaşmış müfəssəl təlim proqramının yaradılması üzrə GRECO tövsiyələri həyata keçirilirmi?
**Qiymət**: 2

**2010-cu il üzrə yenilikləri**

2010-cu ilin sonuna qədər, Prokurorluq Yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi ilə birgə həyata keçirilən Tvininq layihəsi çərçivəsində 15 seminar təşkil olunub.

**2009-cu ilin qeydləri**

Yuxarıda göstərilmiş yeni yaradılan işçi qrupu təlim proqramına maliyyə istintaqının necə aparılmasına dair mövzular daxil edib. (həm maliyyə cinayətləri həm də cinayətlərin mümkün davamı)[217]

**Alt Bölmə 2: İnsan Resurslarının idarə edilməsi (Ədliyyə və dövlət sektoru)**
**Sual:** Dövlət İttihamının Müdafiəsi üzrə idarənin əsas prokurorları və əsas hakimlər üçün korrupsiya halları ilə bağlı sistemli və xüsusi təlimlər (mövcud təlim imkanları əsasında) keçməsinə və mümkün olduğu təqdirdə, korrupsiya ilə bağlı məhkəmə istintaqının sistemli təlim keçmiş prokurorlar tərəfindən məhkəmələrdə bu cür təlim keçmiş hakimlər qarşısında aparılmasına dair GRECO-nun tövsiyəsi həyata keçirilirmi?
**Qiymət**: 2

**2010-cu il yenilikləri**

Təlim Proqramları davam edir və demək olar ki, mövcud olan beş ağır Cinayətlərə dair məhkəmənin ixtisaslaşmış prokurorları var, amma bu sahə ilə ixtisaaslaşmış prokurorlar aşağı instansiya məhkəmələrində çatışmır. Əlavə olaraq, Parlameent tərəfindən hərbi məhkəmələr cinayət işlərini aparmaqdan və ilin istintaq aparmaqdan uzalaşdırılıblar. Bu iş ixtisaslaşmış prokurorlara həvalə ediləccək.[218]

2011-ci il 11 mart tarixli Prezident sərəncamı ilə,[219] Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin əməkdaşlarının sayı, 40 nəfərdən 100 nəfərə qaldırılıb. Nazirlər Kabinetinə idarənin işçilərinin əmək haqqlarının artırlması və maddi vəziyyətin yaxşılaşdırılması üçün müvafiq addımlar atmaq tapşırılıb. Qanunvericiliyə edilən dəyişikliklərə görə, korrupsiyaya qarşı mübarizə idarəsinə korrupsiya cinayətlərini araşdırmaq üçün əlavə olaraq xüsusi təqdiqat vasitlərindən istifadə etməyə imkan verilir.[220] Qanunda əlavə olaraq istisna hallardan başqa, digər hüquq mühafizə orqanları korrupsiya cinayətləri ilə bağlı işləri aparmaqdan uzaqlaşdırılır. 3 mart 2011-ci il tarixdə Prokurorluq İdarəsi 161 nömrəli qaynar xətt təsis edib. Asan zəng edilməsi mümkün olan, pulsuz fəasliyyət göstərən qaynar xəttin yaradılmasında məqsəd korrupsiya ilə əlaqəli olan şikayətləri qəbul etməkdir.

---

[217] Mənbə: Anonim şəxs ilə müsahibə, 22 fevral 2010-cu il
[218] Bax: www.day.az 22 Oktyabr, 2010
[219] Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə bir sıra tədbirlər haqqında fərman, 11 Mart, 2011-ci il
[220] "Prokurorluq haqqında" və "Əməliyyat axtarışları haqqında" qanunlara əlavə və dəyişikliklər , 18 Mart 2011-ci il

**2009-cu il qeydləri**

Baş Prokurorluğun daxili sərəncamı[221] korrupsiya ilə bağlı araşdırmalara cəlb oluna bilən prokurorların siyahısını müəyyən edir. Ədliyyə sistemində isə müvafiq hakimlər ilə bağlı bu cür siyahı mövcud deyildir.[222] ATƏT, Avropa Şurası (AzPac), Almaniya Texniki Əməkdaşlıq Təşkilatı (GTZ), ABŞ Ədliyyə Departamenti, Aİ-nin Tvinninq layihəsi və digər beynəlxalq təşkilatların iştirakı ilə ən azı 3 aydan bir Prokurorların təlimi mərkəzində hakimlər və prokurorlar üçün müxtəlif təlim kursları təşkil olunur. Bu kurslar çərçivəsində Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən müəyyən edilən presedentlər də nəzərdən keçirilmişdir.[223] Beləliklə, praktikada əsas prokurorlar bu cür təlim proqramlarına cəlb olunurlar. Hakimlərə münasibətdə isə sistemli yanaşma müşahidə olunmur. Bütün hakimlər Məhkəmə-Hüquq Şurası tərəfindən, eləcə də, müxtəlifi texniki yardım layihələri çərçivəsində təşkil edilən müntəzəm təlim kurslarında iştirak etsələr də, korrupsiya ilə bağlı məhkəmə işlərinə baxılması üçün xüsusi məhkəmələr və ya ixtisaslaşmış hakimlər mövcud deyildir..

**Alt Bölmə 3: Əmlakın tutulması – Təcrübə**
**Sual:** Korrupsiya cinayətinin dəyəri məbləğində əmlakın müsadirə edilməsinə və üçüncü tərəfə məxsus əmlakın müsadirə edilməsinə imkan verən müddəaların tam şəkildə tətbiq edilməsinə dair GRECO tövsiyəsi həyata keçirilirmi?
**Qiymət**: 1

**2010-cu il yenilikləri**

Prezident tərəfindən Sərəncam verilməsinə baxmayaraq 2009-cu ildə olduğu kimi, əmlakın müsadirə edilməsi ilə bağlı hər hansı bir məlumat əldə etmək mümkün olmayıb.[224] Digər qaynaqlara görə hər iki mövcud qanuna və Cinayət Məcəlləsinə korrupsiya vəya korrupsiya ilə əlaqəli cinayət işinə görə müsadirəni məcburi edəcək əlavələr salınmalıdır.[225] Hətta mediada yer alan hallarda belə, məhkəmədən qabaq mülkün dondurulması kimi, aralıq tədbirlərin görülməsi ilə bağlı göstərişlərə rast gəlinməyib.

Səlahiyyətlərindən sui istifadə etməkdə günahlandırılaraq, işdən azad edilən Göyçay Prokurorluğunun əməkdaşı barədə Cinayət Məcəlləsinin 313-cü maddəsi ilə cinayət işi açılıb.[226] Prokurorluq İdarəsi eyni zamanda Dövlət Sosial Müdafiə Fonunun Qobustan şöbəsinin rəhbərini, Kooperasiya Universitetinin rektorunun müavinini də korrupsiya

[221] Baş Prokurorun daxili qərarı
[222] Mənbə: 22 fevral 2010 tarixində anonim mənbə ilə müsahibə
[223] Mənbə: Azərbaycan qəzetləri və bir-başa ŞA təcrübəsi
[224] Müsadirə edilmiş əmlakın bir hissəsinin hüquq-mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilməsi Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (16 oktyabr 2006-cı il, № 469)
[225] Bax: www.oecd.org/corruption.acn
[226] Müstəntiq vəzifəsindən azad edildi, 11 Avqust 2010, http://www.azadliq.org/content/article/2125220.html

ittihamları ilə həbs edib.Hər iki cinayətt işi ilə bağlı görülən tədbirlər barədə (məsələn mülkiyyətin dondurulub dondurulmaması) məlumat verilmir.[227]

.

**2009-cu ilin qeydləri**

Cinayət Məcəlləsinin 51-ci maddəsinə əsasən Cinayət yolu ilə əldə edilmiş əmlak və ya bu və ya başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi halda həmin əmlakın dəyəri məbləğində məhkuma məxsus olan pul və ya digər əmlak müsadirə edilir. Çox cüzi dəyərə malik əmlakın müsadirə edildiyini nəzərə alsaq, müsadirə vasitəsindən tam şəkildə istifadə edildiyini iddia etmək çətindir: dondurulma, tutulma və s. bu kimi aralıq tədbirlərə məruz qalan əmlakın dəyəri 2006-cı ildə 105,302 manat (131,465 ABŞ dolları), 2007-ci ildə isə 180,180 manat (224,945 ABŞ dolları) təşkil etmişdir. AŞ təşkilatında 2008 və 2009-cu illər üzrə məhkəmə qərarları əsasında müsadirə edilən əmlakın dəyərinə dair heç bir məlumat mövcud deyildir.[228] Üçüncü tərəfin malik olduğu əmlakın müsadirə edilməsinə imkan verən yeni müddəalar daxil edilmişdir. Lakin, Mülki Məcəlləyə uyğun olaraq üçüncü tərəfin əmlakının müsadirəsi mülki iddia əsasında (cinayət işi çərçivəsində) mülkiyyət ilə əməliyyatı ləğv etməklə həyata keçirilməlidir.

**Alt Bölmə 3: Əmlakın tutulması İnsan Resursları**
**Sual:** Müsadirə və aralıq tədbirlər ilə bağlı qanunvericiliyin tələblərini tətbiq etməli olan vəzifəli şəxslər (yəni, müstəntiqlər, prokurorlar və hakimlər) üçün təlimatların yaradılması və müfəssəl təlimlərin keçirilməsini ilə bağlı GRECO tövsiyəsi həyata keçirilirmi?
**Compliance Score**: **1**

**2010-cu il üzrə yeniliklər**

Bu sahə üzrə heç bir yenilik qeydə alınmayıb.

**2009-cu il qeydləri**

Müsadirə ilə bağlı müddəalara və aralıq tədbirlərə dair təlim keçirilmişdir. Aralıq tədbirlər məhkəmə sanksiyası əsasında prokurorlar tərəfindən tətbiq edildiyi halda, müsadirə məhkəmə qərarına əsasın məhkəmə icraçıları tərəfindən həyata keçirilir. Dondurma / tutulma və müsadirə ilə bağlı heç bir xüsusi təlimatlar mövcud deyildir; ən azı, bu barədə məlumat yoxdur. Müsadirə və aralıq tədbirlər bütün cinayətlər, o cümlədən, korrupsiya halları üçün xarakterikdir və onlar qüvvədə olan qanunvericilik vasitəsilə tənzimlənir; lakin, müsadirə prosesi ilə bağlı hər hansı xüsusi təlimatların mövcud olması nəzərə çarpmır.

**Alt Bölmə 3: Əmlakın tutulması – Qanunvericilik**
**Sual:** Yenilənmiş Cinayət Məcəlləsinin səmərəliliyinin qiymətləndirilməsi və xüsusilə də, nəzərdə tutulan tədbirlərin korrupsiya cinayəti vasitəsilə əldə edilən əmlakın müsadirəsi və

---

[227] Bax: www.mediaforum.az, 24 Sentyabr 2010
[228] Mənbə: Azərbaycanda fəaliyyət göstərən QHT-ləri ilə Azərbaycanda korrupsiyaya qarşı mübarizə tədbirlərinə dair ikinci monitorinq hesabatını hazırlayan İƏİT -in Şərqi Avropa və Mərkəzi Asiya üzrə korrupsiyaya qarşı mübarizə şəbəkəsi ilə 10 dekabr 2009-cu il tarixində keçirilən görüş ilə əlaqədar müvafiq materiallar Tİ Az təşkilatına təqdim edilmişdir.

məhrum edilməsi, eləcə də, aralıq tədbirlərə nə dərəcədə uyğun gəldiyinin yoxlanılması ilə bağlı GRECO tövsiyəsi həyata keçirilirmi?
**Qiymət**: **0**

**2010cu il üzrə yeniliklər**

Bu sahə üzrə heç bir irəliləyiş qeydə alınmayıb

**2009-cu il qeydləri**

Heç bir məlumat yoxdur.

**Alt Bölmə 4: Pulların yuyulmasına qarşı mübarizə sistemi**
**Sual:** Pulların yuyulmasına qarşı mübarizə sisteminin mümkün qədər tez bir zamanda tətbiq edilməsi, Dövlət Maliyyə Nəzarəti Xidmətinin müvafiq işçi heyəti, resurslar ilə və zəruri məlumat mənbəyinə çıxış imkanının təmin edilməsi, DMNX-nin əməkdaşları, habelə, müstəntiqlər, prokurorlar və hakimlər üçün yeni qaydalar üzrə təlimlərin təşkil edilməsi, eləcə də, yeni qanunvericiliyə uyğun olaraq hesabat verən şəxslərin müvafiq hesabatların təqdim edilməsinə dair vəzifələri ilə bağlı GRECO tövsiyəsi həyata keçirilirmi?
**Qiymət**: **2**

**2010-cu il üzrə yeniliklər**
Bu sahədə qanunvericilik istiqamətində bir yeni qanun və iki prezident fərmanı qəbul olunub.[229] Əlavə olaraq, bir sıra hüquqi aktlar da təsdiqlənib.[230] 2009-cu ildən çirkli pulların yuyulması ilə bağlı bir sıra qanunvericilk təşəbbüsləri həyata keçirilib.[231]

Pulların yuyulmasına qarşı qəbul edilmiş qaydalar yaxından monitorinq aparmağa və Nağd Sövdələşmələr Barədə Hesabat və Pul Vəsaitinin Elektron Köçürülməsi Hesabatlarını müqayisə etməyə imkan verir. Xüsusi elektron proqramlar yaradılmışdır ki, məlumatları təhlükəsiz şəkildə almaq, üzərində işləmək və analiz aparmaq mümkün olsun. AML/CFT üzrə ümumilikdə dörd təlim proqramı tərtib edilib və USAİD, ATƏT, BVF, Dünya Bankı və BMT-nin Cinayətkarlığa və narkotiklərə qarşı mübarizə İdarəsi kimi beynlxlq təşkilatların köməkliyi ilə 54 belə təlim keçirilib. 2010-cu ilin oktyabr ayında, USAİD Bakı ofisi FMS-i AML/CFT-i üzrə səmərəli təlim proqramları hazırladığı və bu sahədə olan beynəlxalq təcrübənin çatdırılması istiqamətində uğurlu fəaliyyətinə görə Nailiyyət Sertifikatı ilə mükafatlandırıb.[232]

AML/CFT sisteminin inkişafı istiqamətində məqsədəuyğun və sistemli ölçülər götürdüyündən, Azərbaycana Moldovadakı sistemin qiymətəndirməsini aparmaq həvalə olunub.[233] Avropa

---

229 "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına əlavələr və dəyişiklik edilməsi barədə sərəncam 17 Mart 2010-cu il
230 Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 5 mart 2010
231 ATƏT-in Bakı Ofisi çirkli pulların yuyulmasına qarsı mübarizəyə dair Azərbaycanın maliyyə institutlarına təlimlər keçir, 22 Noyabr, 2010-cu il **http://www.osce.org/baku/74181**
232 Maliyyə Nəzarəti Xidmətinin hesabatı, www.flu.az
233 : www.fatf-gafi.org

Şurasının MONEYVAL komitəsi Azərbaycanın qanunvericilk istiqmtində addımlarını model kimi qəbul edib digər ölkələrə nümunə kimi göstərib.[234]

**2009-cu il qeydləri**

Azərbaycan pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində qanunvericilik bazası yaratmışdır. Azərbaycan hökuməti 2003-cü ilin mart ayında Avropa Komissiyasının 1990-ci ildə qəbul edilən Cinayət yolu ilə əldə edilən vasitələrin yuyulması, axtarılması, tutulması və müsadirə edilməsi ilə bağlı konvensiyasına qoşulduqdan sonra öz öhdəliklərinin yerinə yetirilməsinə dair qanun qəbul etmişdir.[235] Nəticədə, Maliyyə Nazirliyinin mövcud maliyyə strukturu ləğv edilərək 2009-cu ilin aprel ayında Dövlət Maliyyə Nəzarət Xidməti adlı yeni qurum yaradılmışdır.[236] Xidmətin vəzifəsinə büdcə vəsaitlərinin təyinatına uyğun olaraq xərclənməsinin təmin edilməsi və hesabat təqdim etməli olan qurumlardan müvafiq hesabatların alınması və emal edilməsi daxildir. Maliyyə Nazirliyi ilə Baş Prokurorluq arasında səmərəli kommunikasiya əlaqələrinin yaradılmasına dair Anlaşma Memorandumu imzalanmış və 2009-cu ilin aprel ayından dekabr ayına qədər xidmət tərəfindən hüquq mühafizə orqanlarının tələbnaməsi əsasında 6 mürəkkəb maliyyə yoxlaması həyata keçirilmişdir[237]. Xidmətin fəaliyyəti kənar ekspertlər tərəfindən müsbət qiymətləndirilmişdir.[238] DMNX müvafiq işçi heyəti və resurslar ilə təmin edilmişdir: onun ştat vahidi 124 əməkdaşdan ibarətdir, büdcəsi isə (2009-cu il üçün) 601,600 manat (751,072 ABŞ dolları) təşkil etmişdir[239]. Lakin, məlumat mənbələrinə çıxış imkanı ilə bağlı müəyyən çatışmazlıqlar mövcuddur. DMNX-nin əməkdaşları, prokurorlar, hakimlər və hesabat təqdim edən şəxslər üçün təlimlər hələ təşkil edilməmişdir. Müvafiq təlimlər 2010-cu il üçün planlaşdırılır.[240]

**Alt Bölmə 5: İnformasiya əldə etmək imkanı**
**Indicators:** (I) "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq, informasiya məsələləri üzrə səlahiyyətli orqanın mümkün qədər tez bir zamanda yaradılması və müvafiq funksiyaların həyata keçirilməsi üçün sözügedən qurumun lazımı

---

[234] MONEYVAL Katibliyinin 33-cü Plenar Sessiyası, 2010-cu il Sentyabr

[235] Cinayət yolu ilə əldə edilən vəsaitlərin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanun, 10 fevral 2009-cu il. Cinayət yolu ilə əldə edilən vəsaitlərin yuyulması, axtarılması, tutulması və müsadirə edilməsi və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı 2005-ci ildə qəbul edilən yeni konvensiyaya qoşulma prosesi davam edir.

[236] Mənbə: Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2009-cu i tarixli 48 saylı sərəncamına uyğun olaraq: Mənbə "Azərbaycan" qəzeti

[237] Mənbə: Azərbaycanda fəaliyyət göstərən QHT-ləri ilə Azərbaycanda korrupsiyaya qarşı mübarizə tədbirlərinə dair ikinci monitorinq hesabatını hazırlayan İƏİT-in Şərqi Avropa və Mərkəzi Asiya üzrə korrupsiyaya qarşı mübarizə şəbəkəsi ilə 10 dekabr 2009-cu il tarixində keçirilən görüş ilə əlaqədar müvafiq materiallar Tİ Az təşkilatına təqdim edilmişdir.

[238] Mənbə: Azərbaycan ilə bağli tətbiq edilən monitorinq rejimi, 11 Dekabr, 2009-cu il, http://www.coe.int/t/dghl/monitoring/moneyval/About/AZE_StatDec09_en.pdf

[239] Mənbə: Azərbaycanda fəaliyyət göstərən QHT-ləri ilə Azərbaycanda korrupsiyaya qarşı mübarizə tədbirlərinə dair ikinci monitorinq hesabatını hazırlayan İƏİT-in Şərqi Avropa və Mərkəzi Asiya üzrə korrupsiyaya qarşı mübarizə şəbəkəsi ilə 10 dekabr 2009-cu il tarixində keçirilən görüş ilə əlaqədar müvafiq materiallar Tİ Az təşkilatına təqdim edilmişdir.

[240] Mənbə: Anonim şəxs ilə müsahibə, 24 fevral, 2010-cu il..

resurslar ilə təmin edilməsi, (II) qanunvericiliyə uyğun olaraq informasiya tələbi ilə bağlı sorğuların cavablandırılması üçün məsul olan dövlət qulluqçuları üçün təlimlərin təşkil edilməsi, (III) sözügedən qanunun tələblərini pozan dövlət qulluqçularının məsuliyyətə cəlb edilməsi və (ıv) informasiya əldə etmək hüququ barədə ictimaiyyətin məlumatlandırılması ilə bağlı GRECO tövsiyəsi həyata keçirilirmi?
**Qiymət**: **1**

**2010-cu il yenilikləri**

Məlumat əldə etmək işinin yaxşılaşşdırılması istiqamətində ciddi fəaliyyət aparılmasa da cinayət faktları barədə məlumat vermək üçün qaynar xəttlərin yaradılması işi sürətlənib. Yeni qannar xəttlər Prokurorluq Yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi, "Azəriqaz" İstehsalat Birliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi və Gömrük Komitəsidir. "Şəffaflıq Azərbaycan" təşkilatı Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya bu kimi qaynar xəttlərinin əməliyyat və hesabatlılığını nizama salmaq məqsədilə bir sıra tövisyyələr verib. [241]

Beynəlxalq İndekslərdə aşağı pillələrdə yer almağa davam edən ölkədə, gənclər daha çox geniş istifadə etdiyi Facebook, YouTube və Twitter kimi intrenet saytları alternative məlumat mənbəyikimi qəbul olunur.[242]

**2009-cu il qeydləri**

İnformasiya azadlığı haqqında qanunvericilik[243] ilə onun praktik olaraq icrası arasında ciddi boşluqlar mövcuddur. Milli Məclisdə müvafiq müzakirələrin aparılmasına baxmayaraq, qanunda nəzərdə tutulan İnformasiya məsələləri üzrə səlahiyyətli orqan və ya İnformasiya Obdusmanı hələ yaradılmamışdır. İnternetdə mövcud olan sənədlərin vahid elektron reyestri də yaradılmamışdır. Nazirliklərdə ictimaiyyətin sorğularının cavablandıırlması ilə bağlı aidiyyatı bölmələr mövcud deyildir. İnformasiya ilə bağlı sorğuların cavablandırılmasına dair ictiamiyyət/KİV ilə əlaqələr şöbəsinə qeyri-rəsmi təlimat verilsə də, onlar bunu etmək üçün nə rəsmi səlahiyyətə, nə də müvafiq səriştəyə malik deyillər. İctimaiyyət hökumət qurumlarına dair informasiyaya çıxış imkanına malik deyildir və onlar sorğunu kimə ünvanlandırmalı olduğunu bilmirlər. [244] İnformasiya sorğusunun cavablandırılması üçün məsul olan dövlət qulluqçuları üçün sistemli və kompleks təlim proqramı təşkil edilmir; müvafiq qanunvericiliyin tələblərini pozan dövlət qulluqçuları məsuliyyətə cəlb edilmir. İnformasiya əldə etmək hüququ barədə ictimaiyyətin məlumatlandırılması istiqamətində rəsmi şəxslər tərəfindən ciddi səylər müşahidə olunmur.[245]
Lakin, qeyd etmək lazımdır ki, ötən illər ilə müqayisədə mərkəzi dövlət qurumları sorğuların cavablandırılması ilə bağlı fəaliyyətlərini təkmilləşdirmişlər. Bunun nəticəsində, informasiya

---

[241] Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya dəyirmi masanın nəticəsi olaraq göndərilən təkliflər.: www.transparency.az.
[242] www.indexoncensorship.org
[243] İnformasiya əldə etmək hüququ haqqında qanun, Sentyabr, 2005-ci il
[244] Mənbə: KİV hüquqları İnstitutunun direktoru Rahid Hacılı ilə müsahibə, 24 fevral 2010-cu il
[245] Mənbə: Yeni Nəsil Azərbaycan Jurnalistlər Birliyinin sədri Arif Əliyev ilə müsahibə (23 fevral, 2010-cu il) və Tİ Az şirkətinin birbaşa təcrübəsi.

sorğularının cavablandırılması səviyyəsi sıravi vətəndaşlar üçün 25%-30%, və ŞA və s. bu kimi vətəndaş cəmiyyəti təşkilatları üçün isə 70%-75% təşkil edir.[246] Eyni zamanda, bir sıra hökumət qurumları internet səhifələrini təkmilləşdirməklə və qaynar xətlər yaratmaqla informasiyanın əldə edilməsi prosesini sürətləndirmişdir. Buna ən yaxşı misal olaraq Vergilər Nazirliyini göstərmək olar. Lakin, qaynar xətlərin yaradılması və fəaliyyətinə dair ümumi metodologiyanın, eləcə də, məsuliyyət ilə bağlı hüquqi normaların mövcud olmaması onların səmərəliliyini azaldır.[247]

.

**Alt Bölmə 6: Dövlət sektoru – Maraqların toqquşması**
**Sual:** Bütün dövlət qulluqçuları və rəsmi şəxslər üçün maraqlar münaqişəsinə dair standartların müəyyən və təmin edilməsi (o cümlədən, vəzifəli şəxslərin özəl sektora keçməsi ilə bağlı hallar da daxil olmaqla) və sözügedən standartların tətbiq edilməsi üçün müvafiq mexanizmin təmin edilməsi ilə bağlı GRECO tövsiyəsi həyata keçirilirmi?
**Qiymət**: **1**

**2010 Updates**

Bu sahə ilə bağlı heç bir yenilik yoxdur.[248]

**2009 Notes**

Azərbaycan qanunvericiliyində maraqlar münaqişəsi ilə bağlı bir neçə müddəalar mövcuddur. Dövlət qulluqçuları maraqlar münaqişəsi hallarına yol verməməli və bu cür hallar barədə məlumat verməlidirlər.[249] Hüquq mühafizə orqanları ilə bağlı olan xüsusi qanunvericilik ilə yanaşı, yuxarıda qeyd edilən qanun qulluqdan sonrakı dövr üçün məhdudiyyətlər müəyyən edir. Belə ki, dövlət qulluqçusu dövlət qulluğundan getdikdən sonra qanunvericiliklə müəyyən edilmiş müddət ərzində əvvəllər fəaliyyətinə nəzarət etdiyi idarə, müəssisə, təşkilatlara və ya onların bölmələrinə işə qəbul edilə bilməz. Lakin, təfsilatlı məsələlər 2006-cı ildə Milli Məclisdə ilk oxunuşdan keçən və bu gün kimi qəbul edilməyən və bu səbəbdən də vətəndaş cəmiyyəti tərəfindən tənqid atəşinə məruz qalınan maraqların toqquşması haqqında qanunda müəyyən edilməlidir. Qeyd edilən müddəaların pozulması üçün nə İnzibati və ya Cinayət məcəllələrində, nə də İnizbati Xətalar Məcəlləsində heç bir sanksiya nəzərdə tutulmamışdır. Beləliklə də, qulluqdan sonrakı dövr də daxil olmaqla maraqlar münaqişəsinin qarşısının alınması üçün heç bir profilaktik mexanizm mövcud deyildir. Əgər onlar mövcud olsaydı belə, əksər yüksək rütbəli vəzifəli şəxslər vəzifədə olduğu müddətdən əvvəl və ya həmin müddətdə əldə edilən müəssisələrə malikdirlər. Onların bəziləri, hətta, inhisarçı mövqeyə malikdirlər və

---

[246] Mənbə: ŞA şirkətinin ALACs çərçivəsində birbaşa təcrübəsi
[247] Mənbə: Dövlət orqanlarında fəaliyyət göstərən qaynar xətlərin monitorinqinə dair hesabat, QHT Koalisiyasının nəşri, redaktor S.Məmmədov, Bakı 2009, və Hökumətin korrupsiyaya qarşı mübarizə üzrə qaynar xətlərinin səmərəliliyinin artırılması, Azərbaycan, Çexiya Respublikası, Keniya və Moldova üzr tədqiqat, "Transparency İnternational" təşkilatının işçi sənədi, No 7. 2009
[248] Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya dəyirmi masanın nəticəsi olaraq göndərilən təkliflər.: www.transparency.az.
[249] Dövlət qulluqçularının etik davranış qaydaları, 15.1 və 15.2-ci maddələr.

hökumətdən gedəndən sonra belə öz bizneslərini davam etdirirlər.[250] Bu tövsiyə qismən yerinə yetirilmişdir.

**Alt bölmə 6: Dövlət sektoru - əmlakın açıqlanması**
**Sual:** Dövlət sektorunda şəffaflığın artırılması məqsədilə qabaqlayıcı tədbirlər qismində (i) maliyyə bəyannamələrinin səmərəli şəkildə yoxlanılmasının təmin edilməsi, (ii) bütün aidiyyatı vəzifəli şəxslərə münasibətdə maliyyə bəyannamələri ilə bağlı müddəaların həyata keçirilməsi üçün müvafiq mexanizmlərin yaradılması və (iii) seçilmiş və təyin edilmiş vəzifəli şəxslərin maliyyə bəyannamələrinin ictimaiyyətə açıqlanması məsələsinin nəzərdən keçirilməsi ilə bağlı GRECO tövsiyəsi həyata keçirlirmi?
**Qiymət**: **1**

**2010-cu il üzrə yeniliklər**

Bu sahə ilə bağlı heç bir irəliləyiş qeydə alınmayıb.

Əmlak bəyannamələri kommersiya və ya bank sirri hesab olunduğu üçün onlar yalnız məhkəmənin qərarına əsasən korrupsiya və ya cinayət istintaqı hallarında açıqlana bilər. Maliyyə xarakterli məlumatların yuxarıda qeyd edilən məqsədlərdən kənar məqsədlər üçün istifadə edilməsi cinayət məsuliyyətinə səbəb olur. Bu maddə bəyannamənin dövlət qulluqçularının hesabatlılıq sisteminin təkmilləşdirilməsi aləti kimi rolunu heçə endirir.

**2009-cu il qeydləri**

Korrupsiyaya qarşı Mübarizə haqqında qanunun 5-ci maddəsinə əsasən vəzifəli şəxslər mənbəyini, növünü və məbləğini göstərməklə öz gəlirləri barədə, müəssisələrdə öz mülkiyyət payı barədə, vergitutma obyekti olan əmlakı barədə və s. əmlakı haqqında müntəzəm olaraq məlumat təqdim etməlidirlər. Eyni zamanda, vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqında qanun seçilmiş və təyin edilmiş vəzifəli şəxslərə şamil edilməklə vəzifəli şəxslərdən vəzifələrinin icrasına başladıqları gündən 30 gün ərzində bəyannamə təqdim etmələrini tələb edir. Sonralar, Nazirlər Kabinetinə müvafiq formanın və hər iki qrupa daxil olan şəxslər üçün qaydaların hazırlanması göstərişi verilsə də[251], bu tapşırıq bu günə qədər yerinə yetirilməmişdir. Bəyannamələri qəbul edən quruma gəldikdə isə, sözügdən qanununa uyğun olaraq Prezident də daxil olmaqla yüksək vəzifəli şəxslər bəyannamələri Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyaya, daha aşağı rütbəli vəzifəli şəxslər isə müvafiq maliyyə / mühasibat uçotu şöbələrinə təqdim etməlidirlər. Azərbaycan Respublikası Milli Məclisinin, o cümlədən, Naxçıvan Muxtar Respublikasının Milli Məclisinin üzvləri bəyannamələri müvafiq Milli Məclislər tərəfindən seçilən qurumlara təqdim etməlidirlər. Bu cür qurumlar isə hələ müəyyən edilməmişdir. Yerli seçkili orqanların

[250] Mənbə: "Global Integrity" təşkilatının hesabatı, Azərbaycan, 2008, http://report.globalintegrity.org/Azerbaijan/2008/scorecard/34
[251] Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2005-ci il tarixli, 278 saylı sərəncamı

nümayəndələri isə bəyannamələri qanunla müəyyən edilən orqana təqdim etməlidir. Sonradan isə bu orqan Ədliyyə Nazirliyi müəyyən edilmişdir.
Əmlak bəyannaməsi qəbul edən bütün orqanlar burada əks olunan məlumatların dəqiqliyini və tamlığını yoxlamalı, eləcə də, onları əvvəllər təqdim edilən maliyyə xarakterli məlumatlar ilə müqayisə etməlidirlər. Aydınlıq məqsədilə bəyannaməni təqdim edən şəxslərdən əlavə məlumatlar tələb oluna bilər. Lakin, qanunvericilikdə bu cür tədbirlərin səbəbi və ya müvafiq proseduralar aydın şəkildə göstərilməmişdir. Maliyyə bəyannamələrinin yoxlanılmasına dair mexanizm yaradılmalıdır. Eyni zamanda, qanunvericilik icra orqanlarının əməkdaşları tərəfindən təqdim edilən bəyannaəmlərin müstəqil auditini müəyyən etmir. Qanunun 8-ci maddəsinə əsasən komissiya özü təqdim edilən məlumatların düzgünlüyün yoxlayır.

**Alt Bölmə 6: Dövlət sektoru - Vicdanlı davranış**
**Sual:** Bütün dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə, etik və vicdanlı davranış qaydaları, o cümlədən, korrupsiya halları barədə məlumatın verilməsi, hədiyyələr və maraqlar münaqişəsi üzrə dövrü təlimlərin təşkil edilməsini tələb edən qaydaların yaradılması barədə GRECO tövsiyələri həyata keçirilirmi?
**Qiymət: 2**

**2010-cu il üzrə yeniliklər**

Adətən, 2010-cu ildə dövlət qulluqçuları üçün korruspiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı keçirilən təlimlər ən yüksək həddə çatıb. Təlimlər əsasən Korrupsiyaya Qarşı Mübarizə Komissiyası, Dövlət Qulluğu Məsələləri üzrə Komissiya,bir sıra beynəlxalq təşkilatlar, yerli qeyri hökumət təşkilatları, Dövlət İdarəetmə Akademiyası, Ədliyyə Akademiyası və Təhsil Nazırliyi tərəfindən keçirilib. Hələ də bu proqramları tənzimləyən qanunlar mövcud deyil.

**2009-cu il qeydləri**

Dövlət qulluqçularının etik davranış qaydaları haqqında qanunun 19.0.1-ci maddəsində və müxtəlif sektorlar üzrə, məsələn hakimlər, prokurorluq işçiləri, polis əməkdaşları, vergi və gömrük orqanlarının işçiləri və s. üçün davranış qaydalarında, habelə, bəzi dövlət orqanlarının daxili qaydalarında korrupsiyaya qarşı mübarizə, etik və vicdanlı davranış qaydaları üzrə təlimlərin keçirilməsi geniş şəkildə əks olunmuşdur. Lakin, mövcud qaydalar nə təlimlərin keçirilməsi tezliyini və məzmununu, nə də onların yerinə yetirilməməsi ilə bağlı məsuliyyəti müəyyən etmir[252] . Eyni zamanda, etik və vicdanlı davranış üzrə rüblük təlimlərin təşkil edilməsi Dövlət Qulluğu məsələləri üzrə Komissiyanın Fəaliyyət Planında da nəzərdə tutulmuşdur. Komissiya fərdi şəkildə və Avropa Komissiyası, BMTİP və s. bu kimi beynəlxalq təşkilatların dəstəyi ilə ölkənin bütün ərazilərində silsilə təlimlər təşkil etmişdir.[253].

---

[252] Dövlət qulluğu məsələləri üzrə Komissiyanın Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın tərkib hissəsi olan 2009-2010-cu il üzrə Fəaliyyət Planı
[253] Mənbə: Dövlət qulluğu məsələləri üzrə Komissiyanın sədri Bəhram Xəlilovun 23 aprel 2010-cu il tarixli məktubu

**Alt Bölmə 6: Dövlət sektoru Xəbərçilik (whistleblowing)**
**Sual:** Korrupsiya ilə bağlı şübhəli hallar barədə məlumatların verilməsinə dair dövlət qulluqçuları üçün aydın qaydaların / təlimatların hazırlanması və dövlət orqanlarında korrupsiya ilə bağlı şübhəli hallar barədə vicdanlı şəkildə məlumat verən dövlət qulluqçularının qisas tədbirlərindən lazımı dərəcədə müdafiə olunmasının təmin edilməsi ilə bağlı GRECO tövsiyəsi yerinə yetirilirmi?
**Qiymət**: **0**

**2010-cu il yenilikləri**

Bu qaydalar Maraqların Toqquşması haqqında qanun layihəsində əks olunmuşdur. Amma vətəndaş cəmyətinin ciddi səylərinə baxmayaraq bu qanun hələ də qəbul olunmayıb.[254]

**2009-cu il qeydləri**

Bu tövsiyə icra edilməmişdir: dövlət qulluqçularından korrupsiya ilə bağlı şübhəli hallar barədə məlumatın verilməsini tələb edən aydın qayda / təlimat mövcud deyildir; eləcə də, dövlət orqanlarında korrupsiya ilə bağlı şübhəli hallar barədə vicdanlı şəkildə məlumat verən dövlət qulluqçuları qisas tədbirlərindən qorunmurlar.

**Alt Bölmə 6: Dövlət/özəl sektor Vicdanlı davranış**
**Sual:** Hüquqi təsisatlarda aparıcı vəzifəyə malik hər hansı bir şəxsi müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edən sanksiyanın praktikada səmərəli tətbiqinin təmin edilməsi ilə bağlı GRECO tövsiyəsi yerinə yetirilirmi?
**Qiymət**: **1**

**2010 Updates**

Bu sahə il bağlı yeni bir irəliləyiş qeydə alınmayıb.

**2009-cu il qeydləri**

Cinayət Məcəlləsinin 33-cü fəslinə əsasən vəzifədən sui-istifadə halları, o cümlədən korrupsiya ilə bağlı cinayətlər üçün müəyyən dövr ərzində müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmək cəzası tətbiq edilir. Eyni zamanda, Dövlət Qulluğu haqqında Qanunun 27-ci maddəsi yuxarıda qeyd edilən cinayət məsuliyyətinə cəlb edilən şəxslərin dövlət qulluğuna qəbul edilməsini qadağan edir. Xüsusi qanunvericilikdə də oxşar müddəalar nəzərdə tutulmuşdur: dövlət satınalmaları ilə bağlı müqavilələrdə iştiraka buraxılmamaq.[255] Lakin, qeyd edilən bu maddələr dövlət qulluqçularını əhatə edir və digər hüquqi təsisatlarda aparıcı vəzifəyə malik şəxslərə (məsələn, özəl sektor) şamil olunmur.

[254] Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya dəyirmi masanın nəticəsi olaraq göndərilən təkliflər.: www.transparency.az.
[255] Dövlət satınalmaları haqqına qanunun 13-cü maddəsi.

Sözügedən müddəaların tətbiq edilməsi ilə bağlı az sayda da olsa faktlar vardır. Belə ki, 2009-cu ildə yalnız 4 müvafiq məhkəmə qərarı verilmişdir. [256]
Uyğun olaraq, çox az sayda şəxslər rüşvətxorluq ilə bağlı ittiham edilmişdir[257]: 2006, 2007 və 2008-ci illərdə müvafiq olaraq 62, 52 və 68 nəfər.[258]

**Alt Bölmə 6: Dövlət sektoru –Davranış qaydaları**
**Sual:** Vergi orqanları tərəfindən fiskal fəaliyyətin həyata keçirilməsi zamanı korrupsiya problemlərinə xüsusi diqqətin yetirilməsi və bu məqsədlə, korrupsiya cinayətlərinin aşkarlanması və müvafiq qanunvericiliyin tətbiq edilməsi ilə bağlı xüsusi təlimatların və təlim modullarının hazırlanması ilə bağlı tövsiyə həyata keçirilirmi?
**Qiymət**: **1**

**2010-cu il üzrə yeniliklər**

Təlimlər Vergilər Nazirliyi və Prokurorluq Yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin təlim mərkəzi tərəfindən davam etdirilir. Bu irəliləyişlərə baxmayaraq vergi sistemində rüşvətə şərait yaradan amillər qalır.[259] 2010-cu ilin ilk yarısında vergilər Nazirliyi, vergi pozuntusu ilə bağlı 94 cinayət işi qeydə alıb. 39 işlə əlaqədar ilkin məhkəmə baxışı başa çatıb, 22 iş isə məhkəməyə göndərilib. Bir sıra rəy sorğularında biznesadamları tərəfindən bəyan edilən kütləvi halda vergidən yayınma hallarının yanında bu rəqəmlər olduqca aşağıdır.[260]

Vergidən yayınma ilə bağlı korrupsiya cinayətlərinin aşkar edilməsinə dair xüsusi təlim modullarının hazırlanması üzrə Vergilər Nazirliyi ilə Baş Prokurorluq arasında Anlaşma Memorandumu imzalanmışdır.[261] Lakin, mövcud məlumatlar müvafiq qanununun səmərəli şəkildə icra edilmədiyinə dəlalət edir: 2007-ci ildə 1 hal üzrə yalnız 1 şəxs, 2008-ci ildə isə 12 şəxs mühasibat uçotnun saxtalaşdırılmasına görə istintaqa və cinayət məsuliyyətinə cəlb olunmuşdur. [262] Digər heç bir dəqiq məlumat mövcud deyildir.

**2009-cu il qeydləri**

Fiskal vəzifələrin yerinə yetirilməsi zamanı korrupsiya hallarının aşkar edilməsi məqsədilə Nazirlik korrupsiyanın aşkar edilməsi üzrə təlimatlar işləyib hazırlamışdır. Sözügedən təlimatlar müvafiq qurumlar tərəfindən ətraflı şəkildə qiymətləndirilmişdir.[263] Vergi müfəttişləri tərəfindən və/və ya vergi qanunvericiliyinin tətbiqi zamanı törədilən korrupsiya və

---

[256] Mənbə: Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Komissiyasının katibi İnam Kərimovun 26 aprel. 2010-cu il tarixli məktubu
[257] Rəsmi məhkəmə qərarları ilə bağlı statistikada "korrupsiya" ilə müqayisədə "rüşvətxorluq" maddəsi daha çox işlədilmişdir
[258] Mənbə: http://www.azstat.org/statinfo/crimes/az/008.shtml
[259] http://www.heritage.org/Index/
[260] www.day.az, 13 İyul 2010
[261] Mənbə: Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Komissiyasının katibi İnam Kərimov tərəfindən məktub
[262] Mənbə: Azərbaycanda fəaliyyət göstərən QHT-ləri ilə Azərbaycanda korrupsiyaya qarşı mübarizə tədbirlərinə dair ikinci monitorinq hesabatını hazırlayan İƏİT-in Şərqi Avropa və Mərkəzi Asiya üzrə korrupsiyaya qarşı mübarizə şəbəkəsi ilə 10 dekabr 2009-cu il tarixində keçirilən görüş ilə əlaqədar müvafiq materiallar Tİ Az təşkilatına təqdim edilmişdir.
[263] Mənbə: Anonim şəxs ilə müsahibə, 18 fevral 2010-cu il

digər cinayətlərə dair məlumatlar onlayn rejimdə nazirliyə verilə bilər.[264] Bu alətin mövcud olması tərifəlayiq olsa da, alınan məlumatların sonrakı taleyi barədə ictimaiyyətə məlumat verilmir.

**Alt Bölmə 6: Dövlət sektoru - Hesabatlılıq**
**Sual:** Mühasibatlıq uçotu ilə bağlı cinayətlərə dair müddəaların nəzərdən keçirilməsi və Korrupsiya ilə bağlı cinayət qanunu konvensiyasının 14 və 19-cu maddələrinə uyğun olaraq müvafiq sanksiyaların müəyyən edilməsi ilə bağlı tövsiyələr həyata keçirilirmi?
**Qiymət**: **2**

**2010-cu il üzrə yeniliklər**

Bu tövsiyyə yerinə yetirilib və yeni bir dəyişiklik baş verməyib.

**2009-cu il qeydləri**

Avropa Şurasının Korrupsiya ilə bağlı cinayət qanunu Konvensiyasının 14 (Mühasibat uçotu ilə bağlı qanun pozuntuları) və 19-cu (sanksya və tədbirlər) maddələrinə uyğun olaraq Cinayət Məcəlləsinə müvafiq əlavə və dəyişikliklər edilmişdir: Maddə 313 (vəzifəli şəxs tərəfindən saxtakarlıq), Maddə 320 (rəsmi sənədlərin, dövlət mükafatlarının, möhür və formaların saxtalaşdırılması, qeyri-qanuni hazırlanması və satışı və ya saxta sənədlərdən istifadə) və Maddə 179 (etibar edilən mülkiyyətin talanması, qeyri-qanuni mənimsənilməsi və ya digər qeyri-qanuni şəkildə istifadə edilməsi) cinayət məsuliyyətini nəzərdə tutur; İnzibati Xətalar Məcəlləsi mümkün müvafiq qanun pozuntuları üçün inzibati cəza tədbirləri nəzərdə tutur: Maddə 204-1 (büdcə tərəfindən maliyyələşdirilən müəssisə və təşkilatlarda maliyyə-iqtisadi fəaliyyət qaydalarının pozulması), 247-1 (uçot prosedurları ilə bağlı qanunvericiliyin pozulması) və 249 (vergilərin və məcburi ödənişlərin silinməsi qaydalarının pozulması). Hazırkı cinayət məcəlləsində hüquqi şəxslərin məsuliyyətə cəlb oluna bilməməsi ilə bağlı müəyyən boşluqlar vardır. Bu istiqamətdə müvafiq qanunvericilik layihəsi hazırlanmaqdadır. Hazırda isə, inzibati və cinayət qanunvericiliyi hüquqi şəxslərə korrupsiya və oxşar hallarda şamil edilir.[265]

**Alt Bölmə 7: Rüşvətxorluğa qarşı mübarizə üzrə qanunvericilik (Fərdi məsuliyyət)**
**Sual:** Korrupsiya haqqında cinayət qanunu konvensiyasına uyğun olaraq (ETS 17) rüşvətxorluq, qeyri-qanunu təsir və pulların yuyulması ilə bağlı cinayətlərə görə hüquqi şəxslərin məsuliyyətə cəlb edilməsini təmin edən qanunvericilik aktının və müvafiq və çəkindirici xarakterli sanksiyaların qəbul edilməsi, eləcə də, aidiyyatı məsələlər üzrə istintaq və məhkəmə orqanlarının əməkdaşları üçün təlimlərin keçirilməsi ilə bağlı GRECO-nun tövsiyəsi həyata keçirilirmi?
**Qiymət**: **1**

---

[264] Mənbə: Vergilər Nazirliyinin internet saytı vasitəsilə: http://www.taxes.gov.az/?name=daudit&lang=_eng
[265] İnzibati Xətalar Məcəlləsinin 7.2-ci maddəsi korrupsiya ilə bağlı cinayətləri əhatə edir; xırda talama halları 69-cu maddədə əks olunmuşdur. Qiymətli kağızlar və iqtisadi fəaliyyət ilə bağlı digər hüquq pozuntuları 18-ci fəsildə göstərilmişdir.

**2010-cu il üzrə yeniliklər**

Hüquqi şəxslərin Cinayət Məsuliyyəti Haqqında qanun layihəsi (Korrupsiyaya Qarşı Mübarizə Komissiyası yanında fəaliyyət göstərən Qanunvericiliyin İnkişafı üzrə İşçi qrupu tərəfindən hazırlanıb) qəbul olunmayıb. Bununla belə, işçi qrupu Cinayət Məcəlləsinə onu beynəlxalq öhdəliklərə yaxənlaşdırmaq məqsədilə əlavələr təqdim edib.[266] İlkin hazırlıq işləri görülür.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən bu ilin fevral ayında Milli Məslinə təqdim edilən qanun layihəsi Cinayət Məcəlləsinə dəyişikliklərin edilməsini nəzərdə tutur. Layihə korrupsiya cinayətləri subyektlərinin dairəsini genişləndirməyi nəzərdə tutur. Yeni layihəyə əsasən Dövlət qulluğu haqqında qanunda nəzərdə tutulan bütün dövlət qulluqçuları, bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları, həmçinin xarici ölkələrin dövlət orqanlarının vəzifəli şəxsləri, xarici ölkələrin seçkili dövlət orqanlarının üzvləri, beynəlxalq təşkilatların vəzifəli şəxsləri və digər qulluqçuları, beynəlxalq parlament assambleyalarının üzvləri, beynəlxalq məhkəmələrin hakimləri və digər vəzifəli şəxsləri və digər şəxsləri korrupsiya cinayətlərinin subyektləri kimi tanınacaqdır. Həmçinin rüşvət alma və rüşvət vermə cinayətlərində rüşvətlə bağlı təklif və ya vədin qəbul edilməsi bu cinayətlərin tərkib hissəsi hesab ediləcəkdir. O cümlədən layihə ilə nüfuz alveri cinayətinin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur.

**2009-cu il qeydləri**

Beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə[267] hökumət müvafiq istiqamətdə ilkin addımlar atmışdır. "Hüquqi Şəxslərin Cinayət Məsuliyyəti" haqqında qanun layihəsi hazırlanmış və nəzərdən keçirilməsi və müvafiq rəy və təkliflərin verilməsi məqsədilə Avropa Şurası ilə birgə yaradılan işçi qrupuna təqdim edilmişdir. Hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında müddəaların Cinayət Məcəlləsinə daxil edilməsi planlaşdırılır.[268] Lakin, bu istiqamətdə hakimlər və ya müstəntiqlər üçün heç bir təlim təşkil edilməmişdir. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən hər bir hüquqi təsisatın rəhbəri və ya digər səlahiyyətli şəxsi vəzifə borcunu yerinə yetirən əməkdaşının qeyri-qanuni əməli üçün məsuliyyət daşıyır.[269]

---

[266] Korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının şəbəkəsinin koordinatoru Əliməmməd Nuriyevlə söhbət, 15 Mart 2011-ci il

[267] 30 dekabr 2003-cü il tarixində ratifikasiya edilən Avropa Şurasının Korrupsiya ilə bağlı cinayət qanunu konvensiyasında və 30 sentyabr 2005-ci il tarixində ratifikasiya edilən BMT-nin Korrupsiyaya qarşı mübarizə Konvensiyasında nəzərdə tutulan öhdəliklər

[268] Mənbə: Korrupsiyaya qarşı QHT Koalisiyasının informasiya və əməkdaşlıq şəbəkəsinin əlaqələndiricisi Əliməmməd Nuriyev ilə müsahibə, 8 fevral 2010-cu il.

[269] Mülki Məcəllənin 1099-cu maddəsi